

# AZƏRBAYCAN–TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV





## 1991-2001



(1-ci KİTAB)





2002
1400

Ф4(2А)
А 99

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV

*"Biz bir millət iki dövlətik."*
***Heydər Əliyev***

82255
79658
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası
ARXİV

Ф4(2А)-8 + Ф4(5Тү) + Т3(2А)-6

**Redaktor:**
**Əməkdar elm xadimi, prof. M.C. MƏRDANOV**

**Buraxılışa məsul:**
**Prof. Erol ORAL**

**Texniki redaktor:**
**Prof. Niftalı Qocayev**

Kitabda 1991-2001-ci illəri əhatə edən Azərbaycan-Türkiyə əlaqələrinin xronologiyası, həmçinin bu əlaqələrin yaradılmasında və inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının müstəsna rolu tarixi sənədlər əsasında təsvir olunmuşdur.

**©, Qafqaz Universiteti Nəşri, 2002**
**ISSBN-9952-403-04-2**

**Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev**
**Bakı, 2002**



# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV

## 1991-2001

*(1-ci KİTAB)*













**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV.**

*"Bizim Türkiyə kimi, türk xalqı kimi yaxın dostumuz və qardaşımız var."*



**Türkiyə Cümhuriyyətinin banisi MUSTAFA KEMAL ATATÜRK.**

*"Bugün Sovyetler Birliği dostumuzdur, komşumuzdur, müttefikimizdir. Bu dostluğa ihtiyacımız vardır. Fakat yarın ne olacağını kimse bugünden kestiremez; tıpkı Osmanlı gibi, Avusturya-Macaristan gibi parçalanabilir. Bugün elinde sımsıkı tuttuğu milletler avuçlarından kaçabilir. Dünya yeni bir dengeye ulaşabilir. İşte o zaman Türkiye ne yapacağını bilmelidir. Bizim bu dostumuzun idaresinde dini bir, inanci bir, özü bir kardeşlerimiz vardır. Onlara sahip çıkmaya hazır olmalıyız."*



## AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT HİMNİ

Azərbaycan, Azərbaycan,
Ey qəhrəman övladın şanlı vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız.
Səndən ötrü qan tökməyə cümlə qadiriz.
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
sinən hərbə meydan oldu.
Hüququndan keçən əsgər
hərə bir qəhrəman oldu.
Sən olasan gülüstan,
sənə hər an can qurban.
Sənə bir çox məhəbbət
sinəmdə tutmuş məkan.
Namusunu hifz etməyə,
bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır.
Şanlı vətən, şanlı vətən,
Azərbaycan, Azərbaycan!



## TÜRKİYE CUMHURİYETİ İSTİKLAL MARŞI

Korkma, sönmez bu şafaklarda yüzen alsancak;
Sönmeden yurdumun üstünde tüten en son ocak.
O benim milletimin yıldızıdır parlayacak;
O benimdir, o benim milletimindir ancak.

Çatma, kurban olayım çehreni ey nazlı hilal!
Kahraman ırkıma bir gül! ne bu şiddet bu celal?
Sana olmaz dökülen kanlarımız sonra helal,
Hakkıdır, Hak'ka tapan, milletimin istiklal!

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
## *H E Y D Ə R   Ə L İ Y E V Ə*
## FƏXRİ DOKTOR ADI VERMİŞ TÜRKİYƏ UNİVERSİTETLƏRİ

| Universitetin adı | Elmi şura tərəfindən fəxri adın verilmə tarixi və qərar nömrəsi |
|---|---|
| 1. Hacettepe Universiteti **(Ankara)** | 26.01.1994 tarixli 2/94-5 saylı qərar |
| 2. 9 Eylül Universiteti **(İzmir)** | 05.12.1995 tarixli 210/2 saylı qərar |
| 3. Fatih Universiteti **(İstanbul)** | 06.03.1996 tarixli 7 saylı qərar |
| 4. Atatürk Universiteti **(Erzurum)** | 01.05.1998 tarixli 4/35 saylı qərar |
| 5. Ege Universiteti **(İzmir)** | 24.03.1998 tarixli 5/2 saylı qərar |
| 6. Mustafa Kemal Universiteti **(Hatay)** | 22.03.1999 tarixli B.30.2.MKÜ.0.70.00.00/17-3-2231 saylı qərar |
| 7. Osman Gazi Universiteti **(Tekirdağ)** | 31.05.2000 tarixl B.30.2.OGÜ.0.00.00.00-12 saylı qərar |
| 8. Kafkas Universiteti **(Kars)** | 08.09.2000 tarixli 08/25 saylı qərar |
| 9. Süleyman Demirel Universiteti **(İsparta)** | 18.11.1999 tarixli 115/2 saylı qərar |
| 10. Ankara Universiteti **(Ankara)** | 27.02.2001 tarixli 1742 saylı qərar |

# ÖN SÖZ

*Türkiyədəki mövcud qanuna uyğun olaraq hər biri 4 il olmaq üzrə mümkün olan iki müddət ərzində **(1992-2000-ci illərdə)** Anadolu bölgəsinin 40 min tələbə kontingentinə malik ən böyük təhsil ocaqlarından biri olan **Erzurum Atatürk Universitetində** rektor vəzifəsində çalışarkən Naxçıvanla daha yaxından tanış olmaq imkanı əldə etdim. Doğulduğum və xaricə gedənədək çalışdığım **Erzurum** şəhəri Naxçıvana həm qəlbən, həm də coğrafi baxımdan çox yaxın olduğu üçün işlədiyim müddətdə zəngin ən'ənələrə sahib bu qədim Azərbaycan diyarı ilə çox səmimi və işgüzar münasibətlərimiz yarandı. Belə ki, Naxçıvan ziyalıları, xüsusilə də o zamankı Naxçıvan Pedaqoji İnstitutunun müəllimləri, tez-tez bizim Universitetdə olur və müqavilə ilə Türkiyə üçün yüksəkixtisaslı kadr hazırlığı işində yaxından iştirak edirdilər. Həm onlar, həm də tez-tez **Erzurumdan Naxçıvana** gedən əməkdaşlarım vasitəsilə o zamankı Naxçıvanın həyatı ilə yaxından tanış olurdum.*

*Diqqətimi ən çox cəlb edən, məhz müsəlman olduğuna görə Sovet İttifaqında qarşısına çıxan çoxsaylı süni maneələri özünün müstəsna qabiliyyəti sayəsində aşaraq dövlətin ən yüksək zirvəsinə - **Sov.İKP MK-nın Siyasi Büro Üzvü** və **SSRİ Nazirlər Sovetinin Birinci Müavini** vəzifələrinə yüksəlmiş dünya şöhrətli siyasətçi **Heydər Əliyev** cənablarının ən ağır və təhlükəli bir dövrdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik etməsi olmuşdur.*

*Naxçıvanın o zamankı vəziyyətinin nə dərəcədə ağır olduğunu sözlə təsvir etmək mümkün deyildir. Məncə, bunu yalnız o dövrdə Naxçıvanda yaşayanlar edə bilər. İmperiya tərəfindən dəstəklənən və dişinə qədər silahlandırılmış ermənilər gözlərini*

blokadada yaşamaq məcburiyyətində qalmış Naxçıvana tikmişdi. Qonşu dövlətlərin torpaqlarını hissə-hissə ələ keçirmək arzusunda olan ermənilər bu iddialarını həyata keçirmək üçün həmişə olduğu kimi yenə də arxalandıqları dövlətin maddi, siyasi və hərbi imkanlarından geniş istifadə edirdilər.

Biz **erzurumlular** bu oyunlara çox yaxşı bələdik. Keçən əsrin əvvəllərində onlar oxşar oyunları bizim başımıza da gətirmişlər. Türkiyəyə soxulmuş rus ordusunun hərtərəfli köməyindən istifadə edən ermənilər **Erzurumda** minlərlə dinc sakini - qadın və uşaqları, qocaları və gəncləri özlərinə məxsus metodlarla camilərə toplayaraq güllələmiş və diri-diri yandırmışlar. **H.Əliyev** kimi dünya şöhrətli dövlət xadimini təkidlə özünə rəhbər seçmiş **Naxçıvan** əhalisi də belə bir hücuma məruz qalmışdı. Ancaq mövcüd şəraitdə təskinlik tapdığımız bir xüsus var idi. Bu təskinlik, **H.Əliyevin Naxçıvanın** işğalını önləyəcək bütün tədbirləri görən və həyata keçirməyi bacaran qətiyyətli bir şəxsiyyət olduğuna inamımızdan ibarət idi. Allaha şükürlər olsun ki, biz yanılmadıq - qardaş Naxçıvanın son dərəcədə ağır vəziyyətdə olmasına baxmayaraq, **H.Əliyev** dühasının işığı altında qəhrəmanlıq göstərən **naxçıvanlılar** vətənlərini şərəflə müdafiə edə bildilər.

Mən bu qənaətdəyəm ki, belə bir əvəzsiz qəhrəmanlığın tarixi, onun necə və hansı vasitələrlə gerçəkləşdirilməsi, bu qəhrəmanlığın memarı və təşkilatçısı olan **H.Əliyev** cənablarının mümkün olmayanı necə mümkün etməsi elmi cəhətdən kifayət qədər araşdırılmamış və buna görə də nəinki Türkiyə ictimaiyyətinin, hətta Azərbaycan ictimaiyyətinin nəzərinə lazımınca çatdırılmamışdır. Eyni sözləri **H.Əliyev** cənablarının memarı olduğu **«Əsrin müqaviləsi»** və **«Bakı-Tbilisi-Ceyhan neft kəməri»** layihələri haqqında da demək olar. İnanıram ki, bütün bunlar Azərbaycan və Türkiyə siyasətçiləri, tarixçiləri tərəfindən dərindən araşdırılaraq dünya ictimaiyyətinin nəzərinə çatdırılacaqdır. Bu nəhəng tarixi layihələrin möhtərəm **H.Əliyev** cənabları tərəfindən nə üçün və necə həyata keçirildiyini və bu zaman qarşısına çıxan ciddi əngəlləri, təxribatları dərindən təhlil edərək tam mənada dərk etmədən böyük siyasətdən danışmaq düzgün olmazdı.

**H.Əliyevin** alovlu çıxışı ilə müşayiət olunan izdihamlı İğdır mitinqi və əsl qardaşlıq bayramına çevrilmiş **«Ümid Körpüsünün»** təntənəli açılış mərasimi də bu qəbildən



olan tarixi anlardandır. **H.Əliyev** cənabları ilə o vaxtki Baş Nazirimiz çox hörmətli **S.Demirelin** birlikdə olduqları həmin tədbirdə **Naxçıvan** xalqı ilə yanaşı, **Türkiyə Cumhuriyyətinin** az qala bütün nazirlərinin və yüksək səviyyəli dövlət rəsmilərinin, siyasi partiya rəhbərlərinin və ziyalıların birgə iştirakı **«Bir xalq, iki dövlət»** tarixində misli olmayan hadisə idi. Bu mənzərəni öz gözləri ilə görməyən ən qüdrətli qələm sahibi də həmin izdihamı lazımınca təsvir edə bilməz. Bütün bunlar **H.Əliyev** qüdrətinin məhsulu idi. Mən hələ **Türkiyə** şahinlərinin **Azərbaycan** səmasındakı nümayiş uçuşları ilə əlaqədar olan **Türkiyə-Azərbaycan əlaqələrindən** söhbət etmirəm, çünki bu mənim sahəm deyildir.Yalnız onu deyə bilərəm ki, bu möhtəşəm uçuşlar da **H.Əliyev** cənablarının uzaqgörən siyasətinin təntənəsidir.

Möhtərəm **H.Əliyev** cənablarının yeritdiyi uğurlu təhsil siyasəti sayəsində Azərbaycanda fəaliyyət göstərən **Qafqaz Universitetinə** rektor təyin olunduqdan sonra, bu uzaqgörən siyasətlə bilavasitə yerində tanış olmaq imkanı qazandım. Gördüklərim, müşahidə etdiklərim və eşitdiklərimdən heyrətə gəlsəm də mən onları təbii qəbul edirəm. Çünki **H.Əliyevin** başqa sahələrdə yeritdiyi siyasətin səmərəsi özünü təhsil sahəsində də mütləq göstərməli idi. Bakılı həmkarlarım hələ Sovetlər dövründə **H.Əliyev** cənablarının şəxsi təşəbbüsü və qətiyyətli iradəsi nəticəsində milli hərbi kadr hazırlayan hərbi məktəbin açıldığını və bu məktəbin hazırki şəraitdə müstəqil Azərbaycan üçün oynadığı rolu mənə anlatdıqdan sonra **möhtərəm Prezidentin** nə dərəcədə uzaqgörən siyasətçi və vətənsevər olması bir daha mənə aydın oldu. **Cənab Prezidentin** xeyir-duası ilə **Qafqaz Universitetinin**, **«Çağ» Öyrətim İşlətmələri** şirkətinin açdığı təhsil ocaqlarının və digər türk liseylərinin Azərbaycanda fəaliyyət göstərməsinə və eyni xeyir-dua ilə müxtəlif elm sahələrində çalışan Azərbaycan alimlərinin Türkiyə universitetlərində müvəffəqiyyətlə fəaliyyət göstərmələrinə də adi bir hal kimi baxmaq olmaz. Məncə, bu siyasətin mahiyyəti təkcə təhsilin inkişafında deyil, daha qlobal və dərindir - bu uzaqgörən siyasət həm də xalqlarımızın və təhsil sistemimizin bütünləşməsinə, onların dostluq və qardaşlığının daha yüksək səviyyəyə çatdırılmasına xidmət məqsədilə yürüdülür.

Azərbaycanda işlədiyim səkkiz ay müddətində yuxarıda qeyd etdiklərimi bir daha yaddaşımda canlandırdıqca həmişə qarşıma belə bir təbii sual çıxır: **Türkiyə-**

**Azərbaycan** münasibətlərinin, dostluq və qardaşlığının belə bir vüsətlə inkişafı ilə əlaqədar onun tarixinin, heç olmasa ayrı-ayrı səhifələrinin, geniş ictimaiyyətin nəzərinə çatdırılması sahəsində Azərbaycanda fəaliyyət göstərən **Qafqaz Universiteti** nə edə bilər? Bu sual hələlik məni iki təşəbbüs göstərməyə vadar etdi. Onlardan biri **«Bakı-Tbilisi-Ceyhan neft kəmərinin regional və beynəlxalq əhəmiyyəti»** mövzusunda beynəlxalq konfrans təşkil etmək, digəri isə oxuculara təqdim olunan bu kitabı hazırlamaqdan ibarətdir. Hər iki təşəbbüs gələcəklə bağlı böyük arzularımın kiçik bir tərkib hissəsidir.

Yeri gəlmişkən onu da qeyd edim ki, dərin hörmət bəslədiyim **H.Əliyev** cənablarının **Türkiyə-Azərbaycan əlaqələrinin** və dünya siyasətinin inkişafındakı xüsusi xidmətlərinə görə 1998-ci ildə ona **Atatürk Universitetinin** fəxri doktoru adı verilmişdir. Həmin adın verildiyi **Elmi Şura** iclasına rektor olaraq sədrlik etməyimlə fəxr edirəm. Fəxr etdiyim digər xüsus 1993-cü ilin aprelində Erzurumdan Ankaraya təyyarə ilə birlikdə uçarkən **H.Əliyev** cənabları ilə eyni kresloda yan-yana oturmaq və onunla söhbət etmək şərəfinə çatmağımdır. Həmin səfərdə hər ikimizin məqsədi Türkiyənin sabiq Cümhurbaşqanı **Turgut Özalın** dəfn mərasimində iştirak etmək idi. Naxçıvanla Ankara arasında hava rabitəsi olmadığına görə möhtərəm **H.Əliyev** öz qardaşlıq borcunu yerinə yetirmək məqsədilə Ankaraya uçmaq üçün minik maşını ilə **Naxçıvandan Erzuruma** gəlmişdi.

Bu kitab **1991-2001** illərdə bilavasitə **H.Əliyevin** rəhbərliyi dövründə **Azərbaycan-Türkiyə əlaqələrini** xronoloji şəkildə işıqlandırır. Qeyd olunan dövrə aid mövcud rəsmi məlumatların əsasında tərtib edilmiş bu toplunun **Türkiyə-Azərbaycan əlaqələrinin** tədqiqində dəyərli məlumat mənbəyi olacağına ümid edirəm. **Türkiyə-Azərbaycan əlaqələrinin** çoxşaxəli olduğunu, həmçinin belə bir toplunun ilk dəfə tərtib edildiyini nəzərə alsaq, bəzi qüsurların və nöqsanların olması təbiidir. Bütün bunlara görə dəyərli oxuculardan üzr istəyirik. Bizcə, bu **kitab-albom** hətta adi bir məlumat mənbəyi kimi tədqiqatçıların köməyinə gəlsə belə, məqsədimizə çatmış olarıq. Həmçinin inanırıq ki, əlinizdə tutduğunuz kitab-albom **Türkiyə-Azərbaycan əlaqələri** tarixini xronoloji şəkildə işıqlandırmaqla bu əlaqələrin inkişafında müstəsna xidmətləri olan **H.Əliyev** cənablarının da tarixi rolunu geniş



oxucu auditoriyasına çatdıracaqdır. Şübhə etmirəm ki, gələcəkdə həyata keçiriləcək yeni tədqiqatlar və bu sahədə əldə ediləcək digər məlumatlarla zənginləşəcək yeni nəşr dəyərli oxucularımız üçün mükəmməl müraciət mənbəyi olacaqdır.

Oxuculara təqdim olunan bu kitabdan bir daha göründüyü kimi, əhatə olunan dövrdə **Azərbaycan-Türkiyə əlaqələrinin** bütün sahələrdə inkişafında **Baş Nazir** və sonra **Prezident** olduğu müddət ərzində inkarolunmaz rol oynayan digər bir lider də **Türkiyənin 9-cu prezidenti** hörmətli **Süleyman Demireldir**. Hörmətli **S.Demirelin** lütfkarlıq və məmnuniyyətlə kitaba təqdim etdiyi ön sözünün, möhtərəm **Heydər Əliyev** cənablarının **Azərbaycan-Türkiyə əlaqələrindəki** yeri və rolunun qiymətləndirilməsi baxımından tarixi bir sənəd kimi albom-kitaba dəyər qazandıracağı şübhəsizdir. Səmimi duyğularına və nəcib təşəbbüsünə görə çox hörmətli **Süleyman Demirel** cənablarına təşəkkür etməyi özümə borc bilirəm.

Kitabın tərtib olunmasında böyük əməkləri olan prof. **Niftalı Qocayevə**, dos. **Hakan Acara**, dos. **Məmmədəli Babaşova**, həmçinin lazımı məlumat və sənədləri təqdim edən **Rəcəb Rzayevə**, **Sahib Kazımova** və **Uğur Arif Bölekə** təşəkkür edirəm. Əlyazmanı kompüterə köçürərkən böyük zəhmət çəkmiş **Ələkbər Ələkbərovun** əməyini xüsusilə qeyd etmək istəyirəm.

Kitab çapa hazırlanarkən öz dəyərli məsləhətləri ilə bizə yaxından köməklik göstərdiyinə və redaktorluq kimi məsul vəzifəni üzərinə götürdüyünə görə Azərbaycan Respublikasının Təhsil Naziri hörmətli prof. **Misir Mərdanova** dərin minnətdarlığımı bildirirəm.

**Prof. Erol ORAL**
**Qafqaz universitetinin**
**rektoru**



**Türkiye Cumhuriyeti 9.Cumhurbaşkanı**
**Sayın Süleyman DEMİREL'in**

# ÖNSÖZÜ

*Azerbaycan ve sayın Haydar Aliyev! Azerbaycan'ın bağımsızlığa kavuşması, büyük sevinç kaynağıdır. Azerbaycan, daha önce de bağımsız olmuş, ancak bu kısa sürmüştür.*

*Bu defa "Yükselen Bayrak inmeyecektir". Azerbaycan halkı, istiklalin değerini çok iyi bilmektedir.*

*Azerbaycan'ı bağımsız olur olmaz ilk tanıyan Türkiye, ilk büyükelçi gönderen Türkiye, ilk büyükelçilik açan Türkiye'dir. Türkiye bunu yaparak; "Azerbaycan'ın elemi, bizim elemimizdir, Azerbaycan'ın sevinci, bizim sevincimizidir" diyen Büyük Atatürk'ün ruhunu şadetmiştir.*

*Azerbaycan'ın bağımsızlığını ilan etmesinin üzerinden geçen on yılı aşan süre içerisinde, milli devleti kurma ve işletme gibi fevkalade zor bir görev, Azerbaycan Devlet Başkanı Sayın Haydar Aliyev'in dirayetli önderliğinde başarı ile yerine getirilmiştir.*

*Bağımsızlığına yeni kavuşan bir ülkede, huzuru, sükunu sağlamak, devleti oturtmak ve demokrasiye geçmek kolay değildir. Azerbaycan, bunu başarmıştır. Ülkede istikrarı sağlayan Azerbaycan, onu takiben de ekonomik meselelere eğilmek, kalkınma meselelerini yürütmek imkanı bulmuştur.*

*Üzüntü ile ifade edeyim ki, Karabağ'ın Ermeni işgali altında olması, milyonu aşan Azeri kardeşimizin kaçkın olarak topraklarından, evlerinden, yerlerinden göçmüş olması, hüzün vericidir. Bu acıları Türk halkı, yüreğinde derinden hissetmektedir.*

*Sayın Haydar Aliyev'in Azeri halkının iradesi ve oylarıyla görev başında bulunması; Azerbaycan, Kafkasya ve bölge için çok büyük şanstır.*

*Azerbaycan'ın BM, Avrupa Konseyi ve AGİT başta olmak üzere, birçok uluslararası kuruluşa üye olması; sorunlarının uluslararası zeminlerde görüşülerek, dünyanın gündeminde yer almasına yardımcı olmuş ve bölgesel işbirlikleri ile de, dünya ekonomisi ile bütünleşme süreci hız kazanmıştır.*

*Türkiye; tüm uluslar arası forumlarda, Azerbaycan'ın haklı sesini duyurabilmek, uluslararası hukukun ve meşruiyetin tesis edilmesi yönünden, uluslararası toplumun dikkatini ve desteğini bu konuya çekmek için yoğun çaba harcamıştır.*

Cumhurbaşkanı olarak, 5 kez ziyaret ettiğim Azerbaycan'ın, Yukarı Karabağ sorununun çözümüne katkıda bulunmak için, Minsk Grubu üye ülkelerin devlet ve hükümet başkanlarına da birer mektup göndererek, desteklerini talep ettim.

AGİT Lizbon Zirvesi'nde alınan kararda, bu talepler aynen yer almış ve bu karar, Azerbaycan'ın haklılığını tespit eden en önemli uluslararası belge olmuştur.

Azerbaycan, bağımsızlığına kavuşmasının üzerinden henüz kısa bir süre geçmesine rağmen, demokrasi, piyasa ekonomisi yolunda önemli adımlar atmış ve bir dünya devleti olmuştur.

Azerbaycan, Dünya'nın büyük şirketleri ile, neft ve gaz üretimi için, önemli anlaşmalar yapmıştır. Yeni kaynaklar bulmuş ve üretime geçmiştir. Şahdeniz örneği, bunlardan birisidir. Böylece, Azerbaycan halkının refahına, mutluluğuna ve zenginliğine hizmet edecek adımlar atılmıştır.

Başta Türkiye olmak üzere, pek çok Dünya ülkesi; Azerbaycan'ın kalkınmasına ve gelişmesine hizmet için, eli kolu sıvamıştır. İpekyolu'nun açılmasına girişilmesi, Aktoğu/Bakü-Tiflis-Ceyhan Boru Hattı, önemli projelerdir.

Azerbaycan'ın bölgesinde ve dünyada sözü dinleyen, dostluğu aranan, kalkınma yolunda bir ülke olması Sayın Haydar Aliyev'in, uzak görüşlü ve barışçı çabaları sayesinde olmuştur. Sayın Aliyev, kendi ülkesinde ve bölgede büyük bir lider olduğunu göstermiştir. Bunun kıymeti, herkesçe takdir edilmektedir.

Bağımsızlığın ilk gününden itibaren, her zaman, her meselede Azerbaycan'ın yanında olan Türkiye, bundan böyle de Azerbaycan'ın yanında devam edecektir. Bu bizim kardeşliğimizin doğal bir sonucudur. Türkiye ile Azerbaycan, iki kardeş ülke, uygarlığa doğru, iyi, güzel günlere doğru beraberce yürümeye devam edeceklerdir.

Ülkemizin ve benim kalbim, her zaman Azerbaycan'la birlikte atacaktır!...
Türkiye-Azerbaycan dostluğu ve kardeşliği ebedidir.

Azerbaycan, Azerbaycan,
Alkışladık seni candan,
Hilal birken iki oldu,
Selam bizden ikinciye!...

S. Demirel



## Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti
## Hörmətli Süleyman DEMİRELİN

# ÖN SÖZÜ

Azərbaycan və möhtərəm Heydər Əliyev! Azərbaycanın müstəqilliyə qovuşması böyük sevinc qaynağıdır.

Azərbaycan bir dəfə bundan öncə də müstəqil olmuş, ancaq bu müstəqillik qısa sürmüşdür. Bu dəfə "Yüksələn bayraq enməyəcəkdir". Azərbaycan xalqı istiqlalın dəyərini çox gözəl bilir.

82255

Azərbaycan müstəqilliyə çatdığı anda, dərhal onu ilk tanıyan Türkiyə, ilk səfir göndərən, ilk səfirlik açan Türkiyə oldu. Türkiyə bunu edərkən "Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir", deyən Böyük Atatürkün ruhunu şad etmişdir.

Azərbaycanın müstəqilliyini elan etməsindən sonra keçən on ildən artıq bir müddət içində milli dövləti qurmaq və bu dövlətin fəaliyyətini təmin etmək kimi fövqəladə çətin bir vəzifə Azərbaycanın Dövlət Başçısı Möhtərəm Heydər Əliyevin bacarıqlı rəhbərliyi altında uğurla yerinə yetirilmişdir.

Müstəqilliyinə yeni qovuşan bir ölkədə əmin-amanlığı təmin etmək, dövlətin qüdrətini artırmaq və demokratiyaya keçmək asan deyildir. Azərbaycan bunu bacarmışdır. Ölkədə sabitliyi təmin edən Azərbaycan onun ardınca da iqtisadi məsələlərə yönəlmək və dirçəliş məsələlərini həyata keçirmək imkanlarını tapa bilmişdir.

Üzüntü ilə ifadə edim ki, Qarabağın erməni işğalı altında olması, milyondan çox azəri qardaşlarımızın qaçqın olaraq torpaqlarından, evlərindən, yurd-yuvalarından köçmüş olması hüzn vericidir. Bu ağrıları Türk xalqı ürəyində dərindən hiss edir.

Möhtərəm Heydər Əliyevin azəri xalqının iradəsi və dəstəyi ilə vəzifə başında olması Azərbaycan, Qafqaz və bölgə üçün çox böyük uğurlu imkandır.

Azərbaycanın BMT, Avropa Şurası və ATƏT başda olmaqla bir çox beynəlxalq təşkilata üzv olması problemlərinin beynəlxalq səviyyədə müzakirə edilməsinə, dünyanın diqqət mərkəzində olmasına kömək etmiş və regional əməkdaşlıqları ilə də dünya iqtisadiyyatı ilə inteqrasiyasını sürətləndirmişdir.

Türkiyə bütün beynəlxalq toplantılarda Azərbaycanın haqq səsini eşitdirmək, beynəlxalq hüququn və qanuniliyin təsis edilməsi baxımından beynəlxalq

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ictimaiyyətin diqqətini və dəstəyini bu məsələyə yönəltmək üçün çox güclü səy göstərmişdir.

Prezident olaraq 5 dəfə ziyarət etdiyim Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində iştirak etmək, ona töhfə vermək üçün Minsk Qrupuna üzv olan ölkələrin dövlət və hökumət başçılarının hər birinə məktub göndərərək dəstək verməldefinitely tələb etdim.

ATƏT-in Lissabon sammitində qəbul edilən qərarda bu tələblər eyniylə göstərilmiş və bu qərar Azərbaycanın haqlı olduğunu təsdiq edən ən önəmli beynəlxalq sənəd olmuşdur.

Azərbaycan öz müstəqilliyinə qovuşmasından hələ qısa bir müddət keçməsinə baxmayaraq demokratiya, bazar iqtisadiyyatı yolunda mühüm addımlar atmış və bir dünya dövləti olmuşdur.

Azərbaycan dünyanın böyük şirkətləri ilə neft və qaz istehsalı üçün mühüm sazişlər imzalamışdır. Yeni yataqlar tapmış və istehsala keçmişdir. Şahdəniz örnəyi bunlardan biridir. Beləliklə, Azərbaycan xalqının rifahına, xoşbəxtliyinə və zənginliyinə xidmət edəcək addımlar atılmışdır.

Başda Türkiyə olmaqla bir çox dünya ölkəsi Azərbaycanın dirçəlməsinə və inkişafına xidmət göstərmək üçün qollarını çırmalamışdır. İpək yolunun bərpası təşəbbüsü, Aktau/Bakı-Tbilisi-Ceyhan boru xətti mühüm layihələrdir.

Azərbaycanın öz bölgəsində və dünyada sözü eşidilən, dostluğu aranan, tərəqqi yolunda bir ölkə olması Möhtərəm Heydər Əliyevin uzaqgörən və sülhsevər təşəbbüsləri sayəsində mümkün olmuşdur. Möhtərəm Əliyev öz ölkəsində və bölgədə böyük bir lider olduğunu göstərmişdir. Bunun dəyəri hər bir kəs tərəfindən təqdir edilməlidir.

Müstəqilliyin ilk günündən etibarən hər zaman, hər məsələdə Azərbaycanla birgə olan Türkiyə, bundan sonra da Azərbaycanla birgə olmağa davam edəcəkdir. Bu bizim qardaşlığımızın təbii bir nəticəsidir. Türkiyə ilə Azərbaycan iki qardaş ölkə sivilizasiyaya doğru, yaxşı, gözəl günlərə doğru birlikdə yürüməkdə davam edəcəkdir.

*Ölkəmin və mənim qəlbim hər zaman Azərbaycanla birlikdə döyünəcəkdir!...*
*Türkiyə - Azərbaycan dostluğu və qardaşlığı əbədidir.*

*Azərbaycan, Azərbaycan,*
*Alqışladıq səni candan,*
*Hilal birkən iki oldu,*
*Salam bizdən ikinciyə!..*

S. Demirel








SİLAHLI KUVVETLER AKADEMİSİ
KOMUTANLIĞI


GÜRCİSTAN
TÜRKİYE
İSTANBUL ÜNİVERSİTESİ
BİZ BİR MİLLET İKİ DEVLETİZ



AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1991

**8 oktyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Muxtar Respublikaya gəlmiş Türkiyənin Mərmərə Eyitim və Kültür Vəqfinin Azərbaycandakı təmsilcisi Hilmi Öneyi və **"Zaman"** qəzetinin Azərbaycan üzrə müxbiri Yılmaz Poladı qəbul etmişdir. **Heydər Əliyev** görüşdən sonra **"Zaman"** qəzetinə müsahibə vermişdir.

**12 oktyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvanı elektrik enerjisi ilə təchiz etmə sahəsində müqavilə öhdəliklərini yerinə yetirmək üçün Naxçıvan şəhərinə gəlmiş bir qrup türk mütəxəssisini qəbul etmişdir.

**29 oktyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Muxtar Respublikanın Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.

**1 noyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvanda ilk türk liseyinin açılması və 1992-1993-cü tədris ilində 100 nəfər naxçıvanlı gəncin Türkiyəyə ali təhsil almaq üçün göndərilməsi barədə Naxçıvan Muxtar Respublikası Xalq Təhsili Nazirliyi və Türkiyənin **"Zaman"** qəzeti arasında müqaviləni imzalamışdır.

**9 noyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Araz çayı üzərində salınmış müvəqqəti körpü vasitəsilə Türkiyənin Qızıl Ay Cəmiyyətinin xətti ilə Muxtar Respublikaya 126 ton ərzaq gətirmiş Kars vilayəti valisinin vəkili İsmet Bahadırların başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**Heydər Əliyev** Türkiyə nümayəndə heyəti ilə birlikdə gəlmiş müxbirlərin suallarına ətraflı cavablar və Türkiyə televiziyası üçün müsahibə vermişdir.

**13 noyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvana gəlmiş Türkiyənin **"Milliyet"** və **"Hürriyet"** qəzetlərinin müxbirləri və digər xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.

**15 noyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin Nəqliyyat Nazirliyinin dəmiryol, liman və aeroport tikintisi üzrə departamentinin baş direktoru Aytekin Akagünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.





**18 noyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin Konya şəhərindən ərzaq dolu ilk yardım karvanı ilə Naxçıvana gəlmiş Konya şəhər ziyalılarının nümayəndələrini qəbul etmişdir.

**20 noyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin Kars əski millət vəkili Sabri Aras, iş adamları Sönmez Karadaş və Zafer Karadaşı qəbul etmişdir.

**29 noyabr** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin İqdır şəhəri əhalisinin və valiliyinin göndərdikləri 19 yük maşınından ibarət ərzaq yardımını gətirmiş Iğdır bələdiyyə rəisi Ali Ağrının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.



## AZƏRBAYCAN–TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1992







**8 yanvar -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvana qardaş payı gətirmiş Türkiyənin "Firudin Dinkər Kifayət" tikinti, turizm, sənaye və ticarət şikətinin sahibi Firudin Ayrımı və Türkiyənin **"Milliyet"** qəzetinin müxbirini qəbul etmiidir.

**19 yanvar -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvan-Türkiyə gömrükxanasının istifadəyə verilməsi məsələlərini müzakirə etmək məqsədilə Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirelin** tapşırığı ilə Muxtar Respublikaya gəlmiş nümayəndə heyətini qəbul etmişdir.

**30 yanvar -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin "Şahar Groub" daxili və xarici ticarət şirkəti idarə heyətinin sədri Zekai Savaşları qəbul etmişdir.

**3 fevral -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** fevral ayının 1-də Türkiyədə baş vermiş qar uçqunu nəticəsində insan tələfatı ilə əlaqədar Türkiyə Cümhuriyyətinin Prezidenti **Turgut Özala** telefonla zəng etmiş, Naxçıvan parlamenti, Muxtar Respublika əhalisi adından **Turgut Özal** cənablarına, bütün türk xalqına, faciədə həlak olanların ailələrinə başsağlığı vermişdir.

Elə həmin gün, Türkiyə Cümhuriyyətinin Prezidenti **Turqut Özal** və Baş Nazir **Süleyman Demirel** cənablarına rəsmi başsağlığı teleqramları göndərmişdir.

**4 fevral -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyevin** Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirel** ilə telefon söhbəti olmuşdur. Ali Məclisin Sədri **Heydər Əliyev** bir daha baş vermiş fəlakətlə əlaqədar qardaş türk xalqına başsağlığı vermiş, naxçıvanlıların mərhumların əzizlərinin kədərinə şərik olduğunu bildirmişdir.

**6 fevral -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvana ərzaq yardımı gətirmiş Türkiyənin "Madsan" xarici ticarət şirkətinin prezidenti İbrahim Aydını qəbul etmişdir.

**22 mart -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Prezidenti **Turqut Özalın** və Baş Nazir **Süleyman Demirelin** xüsusi dəvəti ilə Türkiyəyə rəsmi səfərə yola düşmüşdür.

Ankarada olarkən **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin ilk Prezidenti **Mustafa Kemel Atatürkün** və Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan **Məmməd Əmin Rəsulzadənin** qəbirlərinə əklillər qoymuşdur.

**23 mart -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Turqut Özal** və Baş Naziri **Süleyman Demirel** ilə təkbətək görüşmüşdür.

**Heydər Əliyevlə Süleyman Demirel** arasında söhbət və danışıqlar zamanı Türkiyə tərəfindən Baş Nazirin Müavini Erdal İnönü, Xarici İşlər Naziri Hikmet Çetin, Milli Müdafiə Naziri Nevzat Ayaz, Daxili İşlər Naziri İsmet Sezgin, Kənd Təsərrüfatı Naziri Necmettin Cevheri, Dövlət Nazirləri Cavit Çağlar, Ekrem Ceyhun, Ömer Barutçu, Türkiyə Böyük Millət Məclisinin deputatı Münif İslamoğlu iştirak etmişlər.

**24 mart -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, o cümlədən Naxçıvana 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə əməkdaşlıq protokolunu imzalamışdır.



***Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti Arasında əməkdaşlıq Protokolu***

*Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** 1992-ci il martın 22-dən 24-dək Türkiyəni ziyarət etmişdir.*

*Bu ziyarət zamanı təşkil edilmiş görüşlərdə, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxşı qonşuluq müqaviləsi, iki ölkə xarici işlər nazirlikləri arasındakı protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri göz önünə alınaraq hər sahədə daha yaxşı əməkdaşlıq təşkil edilməsi məqsədi ilə aşağıdakı xüsuslarda razılığa gəlinmişdir:*

*1. Türkiyə Cümhuriyyəti hökuməti Naxçıvan Muxtar Respublikasının kənd*

təsərrüfatı, sənaye, qida və istehlak malları, nəqliyyat, telekommunikasiya, tikinti və turizm kimi sahələrdəki zəruri ehtiyaclarını təmin etmək üçün bütünlükdə 100 milyon dollarlıq bir kredit təsis edəcək.

2. Naxçıvan Muxtar Respublikası bu kreditin həyata keçirilməsi üçün ehtiyac zərurətlərinə görə hazırlayacağı və kredit hissələrinin istifadə edilmə proqramını təsbit edən layihələrini Türkiyə tərəfinə təqdim əsasında lazım olan maliyyə məsələlərinin həlli iki tərəfin texniki məsul şəxsləri ilə müəyyən ediləcək.
3. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasındakı enerji xətləri ən qısa vaxtda yaradılacaq, Naxçıvan Muxtar Respublikası Türkiyənin elektrik sisteminə daxil ediləcək.
4. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu və avtomaşın yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlər sürətləndiriləcək və körpü tikintisi ən qısa vaxtda bitiriləcək.



5. TRT İdarəsinin televiziya verilişlərinin Naxçıvan Muxtar Respublikasında rahatca seyr edilə biləcək vəziyyətə gətirilməsi üçün Türkiyə tərəfi lazımi tədbirləri sürətlə həyata keçirəcəkdir. Ayrıca Naxçıvan tərəfindən tələb edildikdə TRT İdarəsi xüsusi proqramlar verəcək.
6. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikası ilə avtomaşın və dəmir yollarına əlavə olaraq hava xəttini ən qısa vaxtda həyata keçirəcək.
7. Telekommunikasiya sahəsində Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarının təmin edilməsi, telefon, faks, teleks kimi xəbər sistemlərinin ən qısa vaxtda işlək vəziyyətə gətirilməsi üçün iki tərəfin səlahiyyətli şəxsləri tərəfindən sürətlə tətbiq edilə biləcək bir proqram hazırlayacaqlar.
8. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahələrində ehtiyac olan toxum, avadanlıq və digər vasitələri və lazım olan mütəxəssislərin əkin mövsümünə çatdırıla biləcək şəkildə sürətlə təmini üçün üzərinə düşən işləri və hazırlıqları qısa müddətdə həyata keçirəcək.
9. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında bank işi sahəsində geniş əməkdaşlıq əlaqələri yaradılması imkanları sürətlə təsdiq ediləcək və Türkiyə Cümhuriyyəti Ziraat Bankının Naxçıvanda bir şöbəsinin açılmasının ilkin hazırlıq işlərinə başlanacaq.
10. Turizm sahəsində Naxçıvan Muxtar Respublikasının imkanlarının dəyərləndirilməsi üçün təsis edilən kredit çərçivəsində mehmanxana inşası daxil olmaqa gərəkli kömək və texniki kömək Türkiyə Cümhuriyyəti hökuməti tərəfindən yerinə yetiriləcək.
11. Naxçıvan Muxtar Respublikasındakı mədəni həyatın inkişafına kömək etmək üçün Türkiyə Cümhuriyyəti, mətbəə təmini də daxil olmaqla mətbuat avadanlıqlarının ehtiyaca görə təminini həyata keçirəcək.
12. Naxçıvan Muxtar Respublikasından 100 tələbənin təhsili Türkiyə Cümhuriyyəti tərəfindən təmin ediləcək.
13. Bütün əməkdaşlıq layihələrinin koordinasiyası və icra edilməsindən Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi ilə iqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq idarəsi sədrliyi məsul olacaq.

Bu protokol **24 mart 1992**-ci il tarixdə **Ankarada** türkçə, iki nüsxədə imzalanmışdır.

**Türkiyə Cümhuriyyəti adından**
**Baş Nazir Süleyman DEMİREL**

**Naxçıvan Muxtar Respublikası adından**
**Ali Məclisin SədriHeydər ƏLİYEV**

İmzalanma mərasimində Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirel** və **Heydər Əliyev** nitqlə çıxış etmişlər.

*"Hörmətli Baş Nazir Süleyman Demirelin dəvəti ilə mənim Türkiyədə olmağım bütün naxçıvanlılar üçün böyük bir hədiyyədir, böyük bir mükafatdır. Və buna əsasən, bugün burda elə bir müqavilənin imzalanması, bir daha qeyd edirəm, Naxçıvanın həyatında tarixi bir hadisədir. Bunu biz tarixi sənəd kimi qiymətləndiririk."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***








- Ankarada 2 günlük rəsmi görüşlərini başa çatdıran **Heydər Əliyev** İstanbula səfər etmişdir.

- Türkiyəyə səfər zamanı **Heydər Əliyev** həmçinin Kars, İğdır şəhərlərinin rəhbərləri ilə görüşüb danışıqlar aparmış, həmin şəhərlərin tarixi abidələri, görməli yerləri ilə tanış olmuşdur.

**25 mart -** Türkiyə dövlət və hökumət rəhbərlərinin xüsusi dəvəti ilə qardaş ölkədə səfərdə olmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev Süleyman Demirelin** şəxsi təyyarəsi ilə Naxçıvana qayıtmışdır.





**4 aprel - Heydər Əliyev** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Türkiyə Cümhuriyyətinə rəsmi səfəri və Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında **24 mart 1992-ci** il tarixli Ankara əməkdaşlıq protokolu haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarını imzalamışdır.

**9 aprel -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvan Muxtar Respublikası və Türkiyə Cümhuriyyəti arasında imzalanmış protokola əsasən telekommunikasiya sahəsində Muxtar Respublikanın zəruri ehtiyaclarını nəzərdə tutan xüsusi proqramın hazırlanması məqsədilə Naxçıvana gəlmiş Türkiyənin "Teletaş" şirkətinin xarici ölkələrlə ticarət şöbəsinin müdiri Mucit Emelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**24 aprel -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış əməkdaşlıq protokolu əsasında Naxçıvana gəlmiş Kars vilayətinin valisi Sıtkı Aslan və Türkiyə elektrik şirkətinin eksperti Tevfik Karasunu qəbul etmişdir.

**27 aprel -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış əməkdaşlıq protokoluna əsasən aprelin 21-dən 27-dək Naxçıvanda olmuş Türkiyə Kənd Təsərrüfatı Nazirliyinin məsul işçiləri - nazirliyin mexanizasiya idarəsinin rəisi Kadir Demirci, bitkicilik idarəsinin rəisi Fahri Harmanşah və heyvandarlıq idarəsinin rəisi doktor Erol Dəmirteldən ibarət nümayəndə heyətini qəbul etmişdir.

**2 may -** Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyənin Baş Naziri **Süleyman Demirel** Bakıdan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyevə** telefonla zəng etmişdir. Cənab **Süleyman Demirel** möhtərəm **Heydər Əliyevin** dəvətinə əsasən Türkiyə ilə Azərbaycan arasındakı körpünün açılışı zamanı Naxçıvana gələcəyini bildirmişdir.

**5 may -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** daha öncə Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirel** ilə telefon danışığı







zamanı ABŞ-dan gətirilmiş 5 təyyarə ərzaq malları və tibbi ləvazimatın Kızılay Cəmiyyəti vasitəsi ilə Naxçıvan Muxtar Respublikası əhalisinə yardım kimi göndərilməsi barədə əldə olunmuş razılığa əsasən aprel ayının 20-dən may ayının 4-dək həmin yardımın Naxçıvana gətirilməsi ilə məşğul olan Türkiyə Cümhuriyyəti Kızılay Cəmiyyətinin Naxçıvan üzrə yardım komitəsinin sədri Şafak Lotarı qəbul etmişdir.

**18 may**

- Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikasının - Sədərək rayonunun ərazisinə hərbi təcavüzün başlanması ilə əlaqədar Türkiyənin Baş Naziri **Süleyman Demirel** Budapeştdən, Türkiyənin Xarici İşlər Naziri Hikmet Çetin Parisdən və Türkiyənin Baş Nazirinin birinci müavini Erdal İnönü Ankaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyevə** telefon etmiş və son vəziyyət barədə məlumat almışlar.

- Həmin gün axşam Ankaraya qayıdan Türkiyənin Baş Naziri **Süleyman Demirel** saat 23.30-da Nazirlər Kabinetinin iclasını çağıraraq Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat qəbul etmişdir. Bəyanatda "İşğalçılıq siyasətinin yeni Ermənistan dövlətinin özü üçün fəlakət gətirəcəyi" bildirilmişdir.

**19 may** - Erməni silahlı qüvvələrinin Naxçıvana qarşı təcavüzə keçmələri ilə əlaqədar Amerikada xəstəxanada müalicə olunan Türkiyə Prezidenti **Turgut Özal** bəyanat verərək bölgəyə türk qoşunu göndərilməsi təklifi ilə çıxış etmişdir.

**20 may** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında **24 mart 1992-ci** il Ankara əməkdaşlıq protokolunun həyata keçirilməsi işlərini təşkil etmək üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclis Sədrinin müavini Q. Məmmədovun başçılığı ilə Naxçıvan MR dövlət plan komissiyasının sədri Ş.Xanbabayev, Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin xarici ölkələrlə əlaqələr şöbəsinin müdiri R.İbadov, Naxçıvan MR maliyyə naziri N.İmanov və Naxçıvan MR Ali Məclis Sədrinin baş köməkçisi V.Talıbovdan ibarət nümayəndə heyətinin Türkiyə Cümhuriyyətinə göndərilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin qərarını imzalamışdır.

**21 may** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Baş Naziri **Süleyman Demirelin** tapşırığı ilə döyüş əməliyyatı rayonunda vəziyyətlə tanış olmaq üçün göndərilmiş Türkiyə Xarici İşlər Nazirliyinin böyük elçisi Ömer Ersunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**24 may** - Türkiyənin Baş Naziri **Süleyman Demirel** Moskvaya yola düşməzdən əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyevlə** telefon əlaqəsi saxlamış və Türkiyənin blokada vəziyyətində olan Muxtar Respublikaya hər cür yardım göstərməyə hazır olduğunu bildirmişdir.

**25 may** - Moskvada rəsmi səfərdə olan Türkiyənin Baş Naziri **Süleyman Demirel** mətbuat konfransında Rusiya və Türkiyənin Dağlıq Qarabağa dair birgə bəyanat qəbul etdiyini açıqlamışdır.

**28 may** - Türkiyənin Baş Naziri **Süleyman Demirel** Sədərəkdə Naxçıvanla Türkiyə arasında tikilmiş **"Ümid" Körpüsünün** açılış mərasimində iştirak etmək üçün Naxçıvana qısamüddətli səfərə gəlmişdir. Körpünün açılış mərasimində Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirel**, Azərbaycan Prezidentinin səlahiyyətini həyata keçirən İsa Qəmbərov və Naxçıvan MR Ali Məclisinin sədri **Heydər Əliyev** iştirak və çıxış etmişlər.





**1 iyun** - Türkiyə hökumətinin və şəxsən Baş Nazir **Süleyman Demirelin** dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** başda olmaqla Muxtar Respublikanın nümayəndə heyəti iyunun 4-də İzmir şəhərində keçiriləcək **III Beynəlxalq İqtisadi Konqresdə** iştirak etmək üçün Türkiyəyə yola düşmuşdür.

Elə həmin gün Ankaraya gələn nümayəndə heyəti axşamüstü kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüşdür.

**2 iyun** - **Heydər Əliyevin** başçılıq etdiyi nümayəndə heyəti Dövlət Nazirləri Cavit Çağlar, Ekrem Ceyhun, Xarici İşlər Naziri Hikmet Çetin və bir sıra başqa nazirlərlə görüşmüşdür.

Baş Nazir **Süleyman Demirel** ilə nümayəndə heyəti arasında səmimi bir şəraitdə keçən rəsmi danışıqlar olmuşdur.







**3 iyun** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Ankarada Türkiyənin Naxçıvan Muxtar Respublikasına verdiyi kreditdən istifadə edilməsi qaydası haqqında Türkiyə xarici işlər naziri Hikmet Çetinlə protokol imzalamışdır.

Səfər əsnasında Türkiyə Cümhuriyyətinin Prezidenti **Turqut Özal**, Türkiyə Cümhuriyyəti Baş Nazirinin müavini Erdal İnönü, xarici işlər naziri Hikmet Çetin, həmçinin bir sıra nazirlər və siyasi partiyaların liderləri ilə görüşərək Naxçıvandakı son vəziyyət barədə geniş, ətraflı söhbət aparmışdır.

İzmirdə Milli İqtisadi Kongresdə iştirak edən Naxçıvan MR nümayəndə heyətinin başçısı **Heydər Əliyevin** çıxışı çox böyük rəğbətlə qarşılanmışdır.

**5 iyun** - Naxçıvan MR nümayəndə heyəti İstanbulda, Erzurumda, Iğdırda və Türkiyənin bir sıra başqa şəhərlərində qəzet redaksiyalarında olduqdan, mətbuat konfransı keçirdikdən və Erzurumda müalicə olunan naxçıvanlı yaralılara baş çəkdikdən sonra Naxçıvana qayıtmışdır.

**9 iyul** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasındakı Sədərək-Dilucu körpüsünün rəsmi sərhəd keçid qapısı elan edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarını imzalamışdır.

**10-14 avqust**
- Türkiyə Cümhuriyyətinin Baş Nazirinin dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri **Heydər Əliyev** başda olmaqla Muxtar Respublika nümayəndə heyəti avqustun 10-da Türkiyəyə yola düşmüşdür.

Aralık bələdiyyə rəisi Yıldırım Turanın qarşıladığı nümayəndə heyətini aparan maşın karvanı Aralığın kaymakamı Hasan İpek və sakinlər tərəfindən hərarətlə qarşılanmışdır.

Nümayəndə heyəti Iğdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar keçirilən mərasimdə iştirak etmək üçün Aralıkdan Iğdır şəhərinə yola düşmüşdür.

Naxçıvan nümayəndələrini şəhərin girəcəyində buraya yeni təyin olunmuş vali Erdoğan İzgi və bələdiyyə sədri Ali Ağrı qarşılamışdır.

Bayram əhvali-ruhiyyəsi ilə bəzədilmiş şəhər sakinləri tərəfindən hərarətlə qarşılanan nümayəndə heyəti şəhərin mərkəzi meydanında keçirilən mərasimdə iştirak etmişdir.

Türkiyə Cümhuriyyəti Baş Nazirinin müavini Erdal İnönü, dövlət nazirləri və millət vəkillərinin də iştirak etdiyi bayram mərasimində Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirel** və Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri **Heydər Əliyev** çıxış etmişlər.

- Cənab **Heydər Əliyev** Iğdır vilayətinin yaradılması münasibətilə keçirilən təntənəli mitinqdə iştirak etdikdən sonra Kars və Ankara şəhərlərində olmuş, Ankarada Türkiyənin Baş Naziri **Süleyman Demirel**, Dövlət Nazirləri və nazirlər ilə səmərəli danışıqlar aparmışdır.

- Türkiyəyə səfərini başa çatdıran nümayəndə heyəti Naxçıvana qayıtmışdır.

**18 sentyabr -** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirelin** dəvətilə avqust ayının 10-dan 14-a qədər Türkiyədə rəsmi səfərdə olmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyevin** başçılıq etdiyi nümayəndə heyətinin Türkiyə Cümhuriyyətinə səfərinin yekunları barədə qərar qəbul etmişdir.

**7 oktyabr -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin **"Zaman"** qəzetinin dəvəti ilə Naxçıvandan keçməklə qonşu ölkəyə tanışlıq səfərinə gedən Azərbaycan jurnalistləri qrupunu qəbul etmişdir.

**9 oktyabr -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvanda Türkiyənin ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüşmüşdür.

**21 noyabr -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin Iğdır və Aralık vilayətlərinin bələdiyyə idarələri tərəfindən sədərəklilər üçün göndərilmiş 11 maşın ərzaq yardımını müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.



# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1993







**5 fevral -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Naxçıvan Muxtar Respublikasında Türkiyə Cümhuriyyəti konsulluğunun fəaliyyətə başlaması münasibəti və Türkiyə Cümhuriyyətinin Naxçıvana yeni təyin olunmuş baş konsulu Orhan Ertuğruloğlunu Muxtar Respublika rəhbərinə təqdim etmək məqsədi ilə Naxçıvana gəlmiş Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**3 mart -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Bakıda olarkən Türkiyənin Azərbaycandakı səfirliyində olmuş, bu ölkənin Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlu ilə görüşmüşdür.

**8 mart -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Naxçıvandakı baş konsulu Orhan Ertuğruloğlunu onun xahişi ilə qəbul etmişdir.








**15 aprel -** Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchizatında yaranmış çətinliklərlə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Kızılay Cəmiyyətinin sədri Kemal Demirlə telefon danışığı apararaq Ankaradan ərzaq malları yüklənmiş 7 böyük yük avtomobilinin Naxçıvana yola düşməsini təmin etmişdir.

**16 aprel**

- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin yaxın bölgələrinə işgüzar səfərə getmişdir.

Sədərək-Dilucu körpüsündə Aralık qəzasının kaymakamı Hasan İpek tərəfindən qarşılanan **Heydər Əliyev** sərhəd mühafizə dəstəsi rəhbərləri və gömrük işçiləri ilə görüşərək söhbət etmişdir.

- **Heydər Əliyev** buradan Iğdır vilayətinə getmişdir. Möhtərəm qonağı Iğdırın valisi Erdoğan İzgi, bələdiyyə rəisi Ali Ağrı və digər rəsmi şəxslər qarşılamışlar.

- Həmin gün vertolyotla Iğdıra gələn Türkiyə Cümhuriyyətinin dövlət naziri Orhan Kilercioğlu ilə **Heydər Əliyevin** görüşü olmuşdur.

Səmimi və işgüzar söhbətdən sonra **Heydər Əliyev** və Orhan Kilercioğlu Iğdırın bələdiyyə idarəsinə gələrək şəhərin mərkəzi meydanında keçirilən böyük mitinqdə iştirak etmişlər.

**Heydər Əliyev** və Orhan Kilercioğlu son aylar Türkiyəyə gələn və Iğdır vilayəti ərazisində yaşayan axıska türkləri ilə görüşərək onların sosial-məişət problemləri ilə maraqlanmışlar. Görüşdə Iğdırın valisi Erdoğan İzgi, dövlət naziri Orhan Kilercioğlu və Naxçıvan Muxtar Republikası Ali Məclisin Sədri **Heydər Əliyev** çıxış etmişlər.

- Günün ikinci yarısında **Heydər Əliyevlə** Iğdırın valisi Erdoğan İzgi arasında danışıqlar olmuşdur.





- **Heydər Əliyev** həmin gün Naxçıvan şəhərinə qayıtmışdır.

- Naxçıvanda ərzaq qıtlığı ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin kənd təsərrüfatı naziri Necmettin Cevheri ilə telefon əlaqəsi saxlamış və həmin nazirlik tərəfindən Naxçıvan Muxtar Respublikasına 2 min ton buğda göndərilməsi barədə razılıq əldə etmişdir.



**19 aprel** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** başda olmaqla Muxtar Respublika Ali Məclisinin və Nazirlər Kabinetinin rəhbər işçiləri Türkiyə Cümhuriyyətinin Prezidenti **Turqut Özalın** vəfatı ilə əlaqədar öz kədərlərini ifadə etmək və başsağlığı vermək üçün saat 12.00-da Türkiyənin başkonsulluğunun binasına gəlmişlər. **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Naxçıvandakı baş konsulu Orhan Ertuğruloğluna başsağlığı vermiş və matəm kitabına aşağıdakı sözləri yazmışdır:

*"Türkiyə Cümhuriyyətinin Prezidenti **Turqut Özalın** vəfatı Naxçıvan Muxtar Respublikası əhalisinin böyük kədərinə səbəb olmuşdur. Beynəlxalq aləmdə böyük dövlət xadimi, İslam aləminin, Türk Dünyasının görkəmli şəxsiyyəti, Azərbaycan xalqının böyük dostu olmuş **Turqut Özalın** əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Türkiyə Cümhuriyyətinin hökumətinə, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin".*

**19-25 aprel**

- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Azərbaycan Respublikasının Prezidenti **Əbülfəz Elçibəylə** birlikdə Türkiyə Cümhuriyyətinin Prezidenti **Turqut Özalın** Ankarada və İstanbulda keçirilən matəm mərasimlərində iştirak etmişdir.

**Heydər Əliyev, Turqut Özalın** ailəsini ziyarət etmiş, mərhum prezidentin həyat yoldaşı Səmra Özala və ailə üzvlərinə ağır itki münasibətilə başsağlığı vermişdir.

**Heydər Əliyev** Naxçıvan Muxtar Respublikası adından Türkiyə Böyük Millət Məclisinin Sədri **Hüsamettin Cindoruka** və Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirelə** başsağlığı vermişdir.










KONUK DEVLET BAŞKANL
VE ÖZEL TEMSİLCİLE

- Türkiyə Cümhuriyyətinin Prezidenti **Turqut Özalın** dəfn mərasimi başa çatdıqdan sonra **Heydər Əliyev** İstanbuldan Ankaraya qayıtmış, aprelin 23-də və 24-də Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və blokada ucbatından burada yaranmış problemlərin həlli ilə əlaqədar Türkiyə hökuməti nazirləri ilə işgüzar görüşlər keçirmişdir.

- **Heydər Əliyev** aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə Cümhuriyyətinin yaradılmasının 73-cü ildönümünə həsr olunmuş iclasında iştirak etmişdir.

- Aprel ayının 24-də Türkiyə Cümhuriyyətinin Baş Naziri **Süleyman Demirel Heydər Əliyevlə** görüşmüşdür.

- Səfər zamanı **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Kənd Təsərrüfatı Naziri Necmettin Cevheri və Kızılay Cəmiyyətinin sədri Kamal Dəmirlə də görüşərək Naxçıvan Muxtar Respublikasına yardım məsələlərini müzakirə etmişdir.

- Aprel ayının 24-də **Heydər Əliyev** Ankarada Türkiyənin Anavatan Partiyasının başçısı Mesut Yılmazla görüşmüşdür.

- Cənab **Heydər Əliyev** aprelin 25-də Naxçıvana qayıtmışdır.

**16 may -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə **Süleyman Demirelə** təbrik məktubu göndərmişdir.

**2 iyun -** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Heydər Əliyev** Türkiyənin Kızılay Cəmiyyətinin xətti ilə Naxçıvanda humanitar yardım göstərilən təşkilatlarda olmuşdur.

**19 iyun -** Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**23 iyun -** Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu onun xahişi ilə qəbul etmişdir.

**25 iyun -** Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**30 iyun -** Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyənin **"Milliyet"** qəzetinin xüsusi müxbiri Nur





Baturu və **"Show"** televiziya proqramının xüsusi müxbiri Mehmet Ali Birandı qəbul etmişdir.

**5 iyul -** Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Respublikada yaranmış vəziyyətlə əlaqədar ABŞ, Rusiya və Türkiyənin Bakıdakı səfirlərini və BMT-nin Azərbaycandakı səlahiyyətli nümayəndəsini qəbul etmiş, bəyanat vermişdir:

*"Məlum olduğu kimi, ATƏM-in Minsk konfransının sədri, cənab M.Raffaelli iyulun 5-də Azərbaycana gəlməli idi. Respublikanın rəhbərliyi cənab M.Raffaellini qarşılamağa hazırlaşaraq lazımi tədbirlər həyata keçirmiş və onun proqramını qəbul etmişdi. Çox böyük təəssüf və təəccüb hissilə qeyd edirəm ki, buraya dəvət olunmuş dövlətlərin səfirləri, yəni onların təmsil etdikləri dövlətlər lazımi tədbirlər görməyiblər. Bu sözləri deyərkən buna əsaslanıram ki, iyulun 2-dən sonra Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəinki dayandırılmadı, hətta iyulun 3-4-dən daha da genişləndi...*

*...Biz xahiş edirik ki, bu ağır vəziyyətdə hərə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirsin. Heç kəs, o cümlədən, burada iştirak edən xarici ölkələrin nümayəndələri də şübhə etməməlidirlər ki, bunların hamısı Ermənistan silahlı qüvvələrinin təcavüzüdür və başqa cür qiymətləndirilə bilməz. Güman edirik ki, belə bir faciəli vəziyyətdə də böyük dövlətlər gərək öz qəti tədbirlərini görsünlər.*

*Bəyanatı bitirərək bir daha qeyd etmək istəyirik ki, biz cənab M. Raffaellinin təcili gəlməsini gözləyirik və Azərbycan tərəfindən cənab Raffaellinin missiyasının həyata keçirilməsinə tam zəmanət veririk. Ancaq bu zəmanət ikitərəfli olmalıdır. Əgər, doğrudan da: Ermənistan Respublikası və onun Dağlıq Qarabağda olan qüvvələri münaqişənin sülh yolu ilə həllini istəyirlərsə, onlar da buna zəmanət verməlidirlər. Üç böyük dövlət - Amerika Birləşmiş Ştatları, Rusiya və Türkiyə, Birləşmiş Millətlər Təşkilatı bu zəmanətin cənab M.Raffaelliyə verilməsi üçün Ermənistan Respublikasına lazımi təsir göstərməlidirlər. Biz cənab M.Raffaellinin tezliklə gəlib işə başlamasını gözləyirik".*



**17 iyul** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**28 iyul** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyə Prezidentinin baş müşaviri Namık Kemal Zeybeki qəbul etmişdir.

**25 avqust** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirinin müavini Özden Sanberki və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**30 avqust** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** avqustun 29-da keçirilmiş referendumda müşahidəçi kimi iştirak etmiş Türkiyə Böyük Millət Məclisinin deputatı Rıfat Yüzbaşıoğlunu qəbul etmişdir.

**3 sentyabr** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Azərbaycan Respublikası ilə Türkiyə








Cümhuriyyəti arasında müqavilənin təsdiq edilməsi haqqında Milli Məclisin qərarını imzalamışdır.

**4 sentyabr** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyə Parlamentinin Anavatan Partiyası fraksiyasının lideri Eyüp Aşık başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

**8 sentyabr** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Moskvada rəsmi səfərdə olan Türkiyənin Baş Naziri xanım **Tansu Çiller** ilə görüşmüşdür.

**13 sentyabr** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Milli Məclisin növbəti iclasında Türkiyə Cümhuriyyətinin Baş Naziri xanım **Tansu Çiller** ilə Moskvada apardığı danışıqlar haqqında məlumat vermişdir.

**15 sentyabr** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyevin** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirellə** telefon söhbəti olmuşdur.

**17 sentyabr** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Xarici İşlər Naziri Hikmet Çetini və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir. Hikmet Çetinlə birlikdə yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.



**3 oktybar** - Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** ümumxalq dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Möhtərəm **Heydər Əliyevin** Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar **Türkiyə dövlət və hökumət rəhbərləri** dövlət başçımızın ünvanına təbrik məktubları göndərmişlər:

***Azərbaycan Respublikasının Prezidenti Sayın Heydər Əliyevə***

***Hörmətli Dost!***

*Dost və qardaş Azərbaycanın Prezidenti seçilməyiniz münasibəti ilə zati-alilərinizi ürəkdən təbrik edirəm.*

*Azərbaycanın çox çətinliklə əldə etdiyi suverenliyini və müstəqilliyini, demokratikləşmə sahəsində nail olduğu inkişafı rəhbərliyinizlə qoruyacağınıza və möhkəmləndirəcəyinizə əminəm.*

*Azərbaycan xalqının birlik və bərabərlik ruhu içində olması bu gün həmişəkindən daha böyük əhəmiyyət daşımaqdadır. Türk millətinin arzu və diləyi də budur.*

*Ölkələrimiz arasındakı sağlam dostluq və qardaşlıq əlaqələrinin təzə vəzifəniz dövründə daha da möhkəmlənəcəyinə inanıram.*

*Azərbaycanın erməni təcavüzünə və işğalına ən qısa müddətdə son verərək daimi və sağlam bir sülhə çatması ən böyük arzumuzdur. Türkiyə bu məqsədin həyata keçirilməsi üçün beynəlxalq miqyasda səy göstərilməsi işində qardaş Azərbaycan xalqının daim yanında olacaqdır.*

*Dost və qardaş Türk Milləti adından və öz adımdan yeni vəzifənizi bir daha təbrik edir, Sizə cansağlığı və uğurlar diləyirəm.*

***Süleyman DEMİREL***
***Türkiyə Cümhuriyyətinin Prezidenti***

***Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə***

*Azərbaycan prezidentliyinə seçilməyinizlə əlaqədar olaraq səmimi təbriklərimi bildirirəm. Dost və qardaş Azərbaycanın rəhbərliyiniz altında birlik və bərabərlik içində daha da inkişaf edəcəyinə inamımı bildirirəm. Müvəffəqiyyətlərinizin davam etməsini arzulayıram.*

***Hüsamettin CİNDORUK***
***Türkiyə Böyük Millət Məclisinin Sədri***

***Azərbaycan Respublikasının Prezidenti Sayın Heydər Əliyevə***

***Sayın prezident!***

*Azərbaycan dövlətinin prezidenti seçilməyinizlə əlaqədar Sizi şəxsən öz adımdan və hökumətim adından ürəkdən təbrik edirəm. Dost və qardaş Azərbaycanın demokratiya, sülh, birlik və bərabərlik içində inkişafını, siyasi fəaliyyətlərlə bərabər, iqtisadi sahədə də inkişafını türk xalqı ürəkdən arzulayır. Müstəqil və suveren Azərbaycandan umduğumuz bu müvəffəqiyyətin zatialilərinizin müdrik rəhbərliyi altında həyata keçə biləcəyinə inanıram. Bu sahədəki fəaliyyətinizdə daim yanınızda olacağıq.*

*Azərbaycanın beynəlxalq aləmdəki yerini möhkəmləndirə bilməsi üçün öncə sülhə qovuşmasının gərəkli olduğu inamı ilə bölgədə sülhün təmin olunması məqsədilə beynəlxalq səylərdə Türkiyənin fəal iştirakını davam etdirəcəyini bir daha təsdiq edirəm.*

*Ölkələrimiz arasında bütün sahələrdə mövcud olan münasibətlərin bu yeni vəzifəniz dövründə daha da inkişaf etdiriləcəyinə və nümunəvi qardaşlıq əlaqəsi nümayiş etdirəcəyinizə inanıram.*

*Hökumətim adından və öz adımdan prezidentlik vəzifənizi bir daha təbrik edir, cansağlığı, xoşbəxtlik arzulayıram.*

***Tansu ÇİLLER***
***Türkiyə Cümhuriyyətinin Baş Naziri***

***Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə***

***Sayın prezident!***

*Müstəqil və suveren Azərbaycan Respublikasına bu dəfə prezident olaraq xidmətinizlə əlaqədar duyduğum sevinci bildirir, bu vəzifəni müvəffəqiyyətlə həyata keçirəcəyiniz inamı ilə zati-alilərinizi ürəkdən təbrik edirəm.*

*Köklü tarixi, mədəni əlaqələrlə və hər sahədə etdiyimiz yaxın əməkdaşlığımızla möhkəmlənən əlaqələrimiz suveren, müstəqil və demokratiya ideyasına bağlı Azərbaycana bizi daha da yaxınlaşdırmaqdadır.*

*Türkiyə bu yaxınlıqdan aldığı qüvvətlə beynəlxalq ictimaiyyətin Azərbaycanı tam dəstəkləməsini, seçki yolu ilə qazandığınız yeni vəzifəniz dövründə də yardım və dəstəyini qərarlı şəkildə davam etdirəcəkdir.*

*Dost və qardaş Azərbaycanın Ermənistanın işğalından qurtararaq, sabit, haqlı bir sülhə nail olması ən böyük arzumuzdur. Bu məqsədlə davam etdirilən beynəlxalq səylərdə Türkiyə fəal iştirak edəcəkdir.*

*Zati-alilərinizi bir daha təbrik edir, ürəkdən müvəffəqiyyət arzulayır və hörmətimi bildirirəm.*

***Hikmet ÇETİN***
***Türkiyə Cümhuriyyəti Xarici İşlər Naziri***

**4 oktyabr -** Azərbaycan Respublikası Ali Sovetinin Sədri **Heydər Əliyev** prezident seçkilərində müşahidəçi kimi iştirak etmiş türkiyəli müşahidəçilər qrupunu qəbul etmişdir.

**23 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**26 oktybar -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin qurulmasının 70 illiyi münasibəti ilə keçirilən **"Türkiyə Cümhuriyyəti-70"** elmi-praktik konfransının iştirakçılarına təbrik məktubu göndərmişdir.

**28 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Milli Bayramı - Respublika elan edilməsi gününün 70 illiyi münasibəti ilə Türkiyə Cümhuriyyətinin

Prezidenti **Süleyman Demirel** cənablarına, Baş Nazir xanım **Tansu Çillerə** və Türkiyə Böyük Millət Məclisinin sədri cənab **Hüsamettin Cindoruka** təbrik məktubları göndərərək qardaş türk xalqına xoş arzularını bildirmişdir.

**29 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin qurulmasının 70 illiyi münasibətilə bu ölkənin səfirliyinin **"Gülüstan"** sarayında təşkil etdiyi mərasimdə çıxış etmişdir.

**18 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident sarayında Türkiyə Cümhuriyyətinin prezidenti **Süleyman Demirelin "Çağ" Öyrətim İşlətmələri** şirkəti tərəfindən Azərbaycanda açılmış təhsil müəssisələrinə etimadını təsdiq edən məktubunu gətirmiş İstanbulda yerləşən şirkətin idarə heyətinin üzvü Nurettin Vereni, **Qafqaz Universiteti**nin rektoru prof. dr. Zafer Ayvazı, şirkətin Azərbaycan üzrə nümayəndəsi Məmmədəli Babaşovu, **"Zaman"** qəzetinin Azərbaycandakı nümayəndəsi Halim Dağları və qəzetin xəbər şöbəsinin müdiri Nedim Yalçını qəbul etmişdir.

Səmimi şəraitdə keçən görüş zamanı **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** göndərdiyi məktuba görə çox şad olduğunu ifadə edərək **"Çağ" Öyrətim İşlətmələri** AŞ-nin Azərbaycanda açdığı təhsil ocaqlarının fəaliyyətlərinin hamısından xəbərdar olduğunu, məmnuniyyət duyduğunu və bu işlərin davam etməsi üçün hər cür lazımi köməklik göstərəcəyini ifadə etmişdir.

**3 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin ictimai xadimi və iş adamı **Turqut Özalın** oğlu Ahmet Özalı qəbul etmişdir.

**28 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Sumqayıtda Türkiyənin "Teletaş" firmasının və Sumqayıt rabitə qovşağı əməkdaşlarının birgə quraşdırdıqları yeni beynəlxalq avtomat telefon stansiyasının açılışında iştirak etmişdir.



# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1994







**5 yanvar** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin universitetlərinə tələbə qəbulu haqqında sərəncam imzalamışdır.

**17 yanvar** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Yüksek Öyretim Kurulu (YÖK) nümayəndəsi Mehmet Altunayı qəbul etmişdir.

**26 yanvar** - Ankaranın **Hacettepe Universitetinin** bir qrup professorunun təklifinə əsasən Universitetin Elmi Şurası *Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ermənilər tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad olunması, Prezident seçildiyi tarixdən etibarən Türkiyə ilə strateji və hərbi əməkdaşlığın inkişafı, Azərbaycan Milli Ordu quruculuğu sahəsindəki böyük xidmətləri və digər dövlətlərə qarşı yeritdiyi düşünülmüş siyasətinə görə* görkəmli dövlət xadimi **Heydər Əliyevə** beynəlxalq münasibətlər sahəsində **fəxri doktor** adı verilməsi barədə yekdilliklə 2/94-5 saylı qərarı qəbul etmişdir.

**27 yanvar** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin nümayəndələri A.Karaca, M.Kengerli və M.Müşteki qəbul etmişdir.





**2 fevral** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı müvəqqəti işlər vəkili Vural Atayla birlikdə həmin ölkənin Hacəttəpə Universitetinin professorları Tansun Yılmaz, Bahettin Yediyıldız, Abdülhaluk Çay və Hüseyin Cevizoğlunu qəbul etmişdir.

**3 fevral** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin müxtəlif kütləvi informasiya vasitələrini təmsil edən jurnalistlərinin bir qrupunu onların xahişi ilə qəbul etmişdir.

**7 fevral** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin ali məktəblərində təhsil almağa yola düşən azərbaycanlı tələbələrin bir qrupu ilə görüşmüş və nitqlə çıxış etmişdir:

*"Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var. İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

**8 fevral** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Prezidenti cənab **Süleyman Demirelin** dəvətilə qardaş ölkəyə rəsmi səfərə yola düşmüşdür.
Prezident Binə hava limanında jurnalistlərə səfərlə bağlı müsahibə vermişdir:

*"Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqımızın arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var. Son illər Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da möhkəmlənmişdir."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müsahibəsindən)***

- Türkiyə Cümhuriyyətinə rəsmi səfərə başlayan möhtərəm Prezident Ankarada Atatürkün məqbərəsinə əklil qoymuş, Məmməd Əmin Rəsulzadənin məzarını ziyarət etmişdir.

- Türkiyə Cümhuriyyəti Prezidentinin iqamətgahı olan **"Çankaya"** köşkündə rəsmi qarşılanma mərasimindən sonra mətbuat nümayəndələri üçün bəyanat vermişdir:

*"Bizim ölkələrimiz - Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və dostluğu əsrlərdən-əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)***

- Türkiyə Prezidenti **Süleyman Demirellə** təkbətək görüş keçirmişdir.

- Danışıqlar nümayəndə heyətləri arasında geniş tərkibdə davam etdirilmişdir.

- Öz iqamətgahında Türkiyənin Baş Naziri xanım **Tansu Çilleri** qəbul etmişdir.

- Anavatan Partiyasının sədri Mesut Yılmaz və Milliyetçi Hareket Partiyasının rəhbəri Alparslan Türkeşlə görüşmüşdür.

- Axşam **"Çankaya"** köşkündə Prezident **Süleyman Demirel** Prezident **Heydər Əliyevin** şərəfinə ziyafət vermişdir. Ziyafətdə hər iki ölkənin prezidenti nitqlə çıxış etmişdir.







*"Bizim indiki görüşlərimiz son illərdə Azərbaycan ilə Türkiyə arasında yaranmış əlaqələrin davamıdır. Böyük iftixar hissi ilə, böyük məmnuniyyətlə demək olar ki, 70 il bir-birindən ayrı düşmüş xalqlarımız qısa müddətdə bir-birinə qovuşdu, bir-birini qucaqladı və sanki bu 70 ildə ayrılıq heç olmamışdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

**9 fevral**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Cumhuriyet Halk Partiyasının sədri Deniz Baykalı qəbul etmişdir.

- Öz iqamətgahında Türkiyədə yaşayan azərbaycanlı icmasının nümayəndələri ilə görüşmüşdür.

- Ankaranın Hacettepe Universitetində **Heydər Əliyevə** bu universitetin fəxri doktoru adı verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişdir.

- Bilkent Universitetinin idarə heyətinin sədri, professor **İhsan Doğramacının** qonağı olmuşdur.

- Türkiyə Böyük Millət Məclisində olmuş və millət vəkilləri qarşısında geniş nitqlə çıxış etmişdir:



*"Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi və yardımı heç vaxt unutmayacaqdır".*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- **"Çankaya"** köşkündə iki dövlət arasında münasibətlərə dair sənədlərin imzalanması mərasimində iştirak etmişdir.

**Heydər Əliyev və Süleyman Demirel** iki ölkə arasında dostluq, qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlıq haqqında müqavilə imzalamışlar. Mərasimdə hər iki dövlət başçısı nitq söyləmişdir.

Azərbaycan ilə Türkiyə arasında iqtisadiyyat, səhiyyə, maliyyə, təhsil, mədəniyyət və digər sahələrdə qarşılıqlı əməkdaşlıq haqqında **16 müqavilə** imzalanmışdır.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Ankara-Palas" otelində

xarici ölkələrin Türkiyədəki səfirləri və diplomatik korpusun üzvləri ilə görüşmüş və Ankarada yaşayan azərbaycanlıların böyük bir qrupunu qəbul etmişdir.

- Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İstanbula yola düşmüşdür.

- Öz iqamətgahında "Sülh və səbir" devizi altında İstanbulda keçirilmiş beynəlxalq dini konfransın bir qrup nümayəndəsini qəbul etmişdir.

**10 fevral**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbul ali məktəblərində təhsil alan azərbaycanlı gəncləri qəbul etmişdir.

- Türkiyənin iş adamlarının böyük bir qrupu ilə görüşmüşdür.

- Azərbaycan Prezidenti **Heydər Əliyev** "Netaş" firmasında olmuşdur.

- Öz iqamətgahında Türkiyənin ən zəngin adamlarından birini - **Vehbi Koçu** qəbul etmişdir.

- Əmlak Bankının baş müdiri Aydın Ayaydını, Xarici İqtisadi Əlaqələr Şurasının sədri Nihat Gökyigiti qəbul etmişdir.

- İstanbulda yaşayan azərbaycanlıların bir qrupu ilə görüşmüş və nitqlə çıxış etmişdir:

*"Türkiyə Cümhuriyyətinin və onun rəhbərlərinin son illərdə Azərbaycana göstərdikləri kömək çox böyükdür və biz bunu yüksək qiymətləndiririk".*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Axşam İstanbul valisi Hayrı Kozakçıoğlu **Heydər Əliyevin** şərəfinə ziyafət vermişdir.

**11 fevral**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** öz iqamətgahında Türkiyənin bir qrup iş adamını ayrı-ayrılıqda qəbul etmişdir.

- Türkiyə Baş Nazirinin müavini, dövlət naziri Murat Karayalçın ilə görüşmüşdür.

- Ölkənin keçmiş Prezidenti **Turqut Özalın** məzarını ziyarət etmişdir.

- İstanbuldakı mətbuat mərkəzində KİV nümayəndələri üçün mətbuat konfransı keçirmiş və bəyanatla çıxış etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti Vətənə yola düşmüşdür.







**24 fevral** - Böyük Britaniyanın Baş Naziri Con Meycorun dəvətilə Londonda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin bu ölkədəki səfiri Candemir Önhonu qəbul etmişdir.

**1 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "İnterplas" Beynəlxalq Xeyriyyə Təşkilatı Türkiyə bölməsinin həkimlər qrupunu qəbul etmişdir.

**13 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Prezidentinin baş müşaviri Namık Kemal Zeybeki qəbul etmişdir.

**24 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin xarici işlər naziri Hikmet Çetini qəbul etmişdir.

**9 iyun**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** dəvətilə

bu ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

Səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab vermişdir.

Rəsmi qarşılanma mərasimindən sonra hər iki prezident jurnalistlər qarşısında bəyanat vermişdir.

- Türkiyə Prezidenti **Süleyman Demirellə** təkbətək görüş keçirmişdir.

- Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Doğan Güreşlə görüşmüşdür.

**10 iyun -** Türkiyənin Xarici İşlər Naziri Hikmet Çetini qəbul etmişdir.

İstanbuldakı **"Şalə Yıldız"** köşkündə Türkiyənin Baş Naziri xanım **Tansu Çillerlə** görüşmüşdür.





- Türkiyədən Vətənə qayıdarkən İstanbulun Atatürk hava limanında jurnalistlər üçün brifinq vermiş və bəyanatla çıxış etmişdir.

**7 iyul -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Doğan Güreşi və onu müşayiət edən bir qrup Türkiyə hərbçisini qəbul etmişdir.

**29 iyul -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin "Ferko" İnşaat, Turizm, Sənaye və Ticarət şirkətinin Bakı Baş Tikinti İdarəsi ilə birlikdə tikdiyi diplomatik kompleksin özülünün qoyulması mərasimində iştirak və çıxış etmişdir.

**9 avqust -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Energetika və Təbii Kaynaqlar Naziri Veysel Atasoyu qəbul etmişdir.

**10 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** işgüzar səfərə gəlmiş Türkiyə Cümhuriyyətinin Xarici İşlər Naziri Mümtaz Soysalı qəbul etmişdir.

Mümtaz Soysalla KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

**20 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Xəzər şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilənin imzalanması mərasimində iştirak edən Türkiyənin dövlət naziri Necmettin Cevherini qəbul etmişdir.

**23 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-a gedərkən İstanbulda olmuş, Türkiyənin xarici işlər naziri Mümtaz Soysalla görüşmüşdür.

**26 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Nyu-Yorka gəlmişdir.

- Prezident "Türk Evi"ndə Nyu-Yorkda yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşmüşdür.

**29 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Sessiyanın işində iştirak edən Türkiyənin Xarici İşlər Naziri Mümtaz Soysalla görüşmüşdür.

**1 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ABŞ-dan



Vətənə qayıdarkən yolüstü İstanbulda olmuş, Türkiyə Prezidenti **Süleyman Demirel** ilə görüşmüşdür.

**18 oktyabr** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** türk dövlətləri başçılarının ikinci zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti türk dövlətləri başçılarının ikinci zirvə toplantısının təntənəli açılış mərasimində çıxış etmişdir.

**19 oktyabr**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** toplantı iştirakçıları: **Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə** və **Türkmənistan** prezidentləri ilə birgə bəyannamə imzalamışlar.

- KİV nümayəndələri üçün keçirilən mətbuat konfransında iştirak etmişdir.

- Qazaxıstan Prezidenti **Nursultan Nazarbayev** və Türkiyə Prezidenti **Süleyman Demirel** ilə təkbətək görüşlər keçirmişdir.

- Vətənə qayıtmışdır.

**26 oktyabr** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkmənistanın müstəqillik qazanmasının üçüncü ildönümü münasibətilə keçirilən şənliklərdə iştirak etmək üçün Prezident **Saparmurad Niyazovun** dəvətilə rəsmi səfər etdiyi Aşqabadda Türkiyə Prezidenti **Süleyman Demirel** ilə görüşmüşdür.

**29 oktyabr** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin istiqlaliyyət qazanmasının 71-ci ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyinin **"Gülüstan"** sarayında düzəltdiyi rəsmi qəbulda çıxış etmişdir.







**1 noyabr**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** dahi Azərbaycan şairi **Məhəmməd Füzulinin** anadan olmasının 500 illik yubileyi münasibətilə Türkiyədə keçirilən yubiley tədbirlərində iştirak etmək üçün Ankaraya yola düşmüşdür.

- Esenboğa hava limanında rəsmi qarşılanma mərasimindən sonra öz iqamətgahında xarici ölkələrin Türkiyə və Azərbaycandakı səfirləri ilə görüşmüşdür.

- Türkiyə Xarici İqtisadi Əməkdaşlıq Komitəsinin üzvləri ilə görüşmüşdür.

- Türkiyənin Xarici İşlər Naziri Mümtaz Soysalı qəbul etmişdir. Milliyetçi Hareket Partiyasının rəhbəri Alparslan Türkeşi qəbul etmişdir.

- Ankara yaxınlığındakı Bilkent Universitet şəhərciyində dahi Azərbaycan şairi **Məhəmməd Füzulinin** anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışında çıxış etmişdir:

*"Azərbaycan Respublikası, Azərbaycan xalqı Türkiyə xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə dostluq və qardaşlıq əlaqələrini, Türkiyə Cümhuriyyətinin Azərbaycana göstərdi-*




*yi yardımı və köməyi yüksək qiymətləndirir və həyatının bu ağır dövründə, torpaqlarına erməni təcavüzü davam etdiyi bir zamanda Türkiyəni, türk xalqını, Türkiyə Cümhuriyyətini özünə böyük dayaq sayır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Elə həmin gün cənab **Heydər Əliyev** Ankarada yaşayan azərbaycanlılarla görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

- **Heydər Əliyev** Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**2 noyabr**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Silahlı Qüvvələrinin Baş Komandanı İsmail Hakkı Karadayını qəbul etmişdir.

- Türkiyənin Dövlət Naziri Necmettin Cevherini qəbul etmişdir.

- **"Çankaya"** köşkündə Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüş, onun doğum gününü təbrik etmişdir.

- Türkiyənin Baş Naziri **Tansu Çillerlə** görüşmüşdür.







- Türkiyə Böyük Millət Məclisində Türkiyə Parlamentinin sədri **Hüsamettin Cindoruk** ilə görüşmüşdür.

- Türkiyə Böyük Millət Məclisində dahi Azərbaycan şairi **Məhəmməd Füzulinin** anma mərasimində çıxış etmişdir.

**3 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Vətənə qayıtmışdır.

**4 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə iştirak etmək üçün Budapeştə yola düşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti səfər zamanı Budapeştdə Türkiyənin Baş Naziri xanım **Tansu Çillerin** verdiyi nahar-da iştirak etmişdir.

**6 dekabr** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** zirvə toplantısında çıxış etmişdir. Türkiyənin Baş Naziri xanım **Tansu Çillerlə** görüşmüşdür.

**12 dekabr**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İslam Konfransı Təşkilatının (İKT) növbəti zirvə toplantısında iştirak etmək üçün Mərakeşə yola düşmüşdür.

- Yolüstü Türkiyənin İstanbul şəhərində olmuş və **"Atatürk"** hava limanında jurnalistlərlə görüşmüşdür.

**13 dekabr** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Zirvə toplantısında iştirak edən Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**16 dekabr** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Vətənə qayıdarkən yolüstü İstanbulda olmuşdur.

**27 dekabr** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Böyük Millət Məclisinin sədri **Hüsamettin Cindoruku** və Parlamentin nümayəndə heyətini qəbul etmişdir.



# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1995









**18 yanvar** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev Azərbaycan, Türkiyə, Rusiya, Qırğızıstan** və **Gürcüstan** Həmkarlar İttifaqı təşkilatlarının əlaqələndirmə şurasının Bakıda keçirilmiş iclasının iştirakçılarını qəbul etmişdir.

**28 yanvar** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün getdiyi İsveçrənin Davos şəhərində forumun işində iştirak edən Türkiyənin Baş Naziri xanım **Tansu Çillerlə** görüşmüşdür.

**4 fevral** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Energetika və Təbii Qaynaqlar Naziri Veysel Atasoyun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**9 mart** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**11 mart** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** BMT-nin xətti ilə keçirilən sosial inkişaf məsələlərinə həsr olunmuş zirvə toplantısında iştirak etmək üçün getdiyi Danimarkada Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür. Görüşdən sonra Azərbaycan Prezidenti Türkiyə jurnalistlərinin suallarına cavab vermişdir.

**21 mart** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**3 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Türk Petrolları Anonim Ortaqlığı" (TPAO) şirkətinin vitse-prezidenti Mustafa Murat başda olmaqla nümayəndə heyətini qəbul etmişdir.

**12 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Azərbaycana rəsmi səfərə gələn Türkiyənin Baş Naziri xanım **Tansu Çilleri** Binə hava limanında qarşılamışdır.

- Xanım **Tansu Çillerlə** şəhidlər xiyabanını ziyarət etmişdir. Azərbaycan Prezidenti xanım **Tansu Çillerlə** danışıqlar aparmışdır.





- **"Gülüstan"** sarayında Türkiyənin Baş Naziri xanım **Tansu Çillerlə** birlikdə ölkələrimiz arasında neft sahəsində əməkdaşlığa dair sazişin imzalanması mərasimində iştirak və çıxış etmişdir:

*"Məlumunuzdur ki, 1994-cü il sentyabrın 20-də burada **"Gülüstan"** sarayında "Əsrin Müqaviləsi" adlanan müqavilə imzalanmışdır. Həmin müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağından: "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından dünyanın bütün şirkətləri ilə müştərək istifadə olunması ilə əlaqədardır. Bu müqavilədə Türkiyənin şirkəti də iştirak edir. O vaxt həmin sənəd imzalanarkən Türkiyə şirkəti bu müqavilənin 1.75 faizinin sahibi olmuşdur. Yəni Türkiyə bu müqavilədə əvvəldən var. Sonradan isə Azərbaycan Respublikasının öhdəsində qalmış 20 faiz haqqında fikirləşdik. Türkiyənin bu barədə bizə müraciəti olmuşdur. Türkiyə Prezidenti, əziz dostumuz və qardaşımız hörmətli **Süleyman Demirel** mənə məktub göndərmiş və xüsusi müraciət etmişdir. Baş Nazir hörmətli **Tansu xanım Çillerdən** də mənə bu barədə müraciət olmuşdur. Bunları və Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrini nəzərə alaraq, onların daha da inkişaf etdirilməsini istəyərək, respublikamız həmin müqavilədə öz payından 5 faiz əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir".*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Azərbaycanda fəaliyyət göstərən və gələcəkdə də Azərbaycanla işgüzar əlaqələr qurmaq istəyən Türkiyə iş adamlarının bir qrupu ilə görüşmüşdür.

- Xanım **Tansu Çilleri** vətənə yola salmışdır.

**23 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

**25 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Azərbaycan Dövlət Opera və Balet Teatrında professor **İhsan Doğramacının** 80 illiyinə həsr olunmuş yubiley gecəsində iştirak və çıxış etmişdir.

**2 may** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömür Orhunun etimadnaməsini qəbul etmişdir.

**3 may** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Xarici İşlər Naziri Erdal İnönünü qəbul etmişdir.

**7 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Böyük Britaniya rəhbərliyinin dəvətilə faşizm üzərində qələbənin 50 illik yubileyinə həsr olunmuş şənliklərdə iştirak edərkən Londonda Türkiyə Cümhuriyyətinin Baş Naziri xanım **Tansu Çiller** ilə görüşmüşdür.

**23 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Xəzərneftqaz-95" beynəlxalq sərgisinin işində iştirak edən Türkiyə Energetika və Təbii Kaynaqlar Naziri Veysel Atasoyu qəbul etmişdir.

**11 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyədə yaşayan soydaşlarımız - "Turanlılar" şirkətlər qrupunun prezidenti Ali Turanlı və onun oğlu şirkətin nümayəndəsi Dağıstan Turanlını qəbul etmişdir.

**30 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Buxarestdə Qara Dəniz Hövzəsi Ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə





toplantısında iştirak edərkən Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**10 iyul -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Azərbaycana rəsmi səfərə gələn Türkiyə Cümhuriyyətinin Baş Naziri **Tansu Çilleri** Binə hava limanında qarşılamışdır.

- Türkiyənin Baş Naziri **Tansu Çilleri** və Azərbaycan Prezidenti Şəhidlər xiyabanında olmuşlar.

- Azərbaycan-Türkiyə danışıqları başlanmışdır.

- Prezident **"Gülüstan"** sarayında Türkiyə Baş Nazirinin şərəfinə ziyafət vermişdir. Ziyafətdə çıxış edən Azərbaycan Prezidenti demişdir:

*"Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr son dövrdə daha yüksək səviyyəyə qalxmışdır. Bu gün dərin minnətdarlıq hissi ilə qeyd edə bilərik ki, tarixin bütün mərhələlərində Azərbaycana böyük diqqət göstərib, kömək edibdir."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

**11 iyul -** Azərbaycan Respublikasının Prezidenti və Türkiyənin Baş Naziri xanım



**Tansu Çiller** BDU-da olmuşlar. Xanım **Tansu Çillerə** BDU-nun **fəxri doktoru** diplomu təqdim edilmişdir.

- Azərbaycan Respublikasının Prezidenti və Türkiyənin Baş Naziri diplomatik korpusun tikinti meydançasında olmuşlar.

- Azərbaycan Respublikasının Prezidenti və Türkiyənin Baş Naziri Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanalarında yaşayan qaçqınlarla görüşmüşlər.

- "Azərtürkbank"ın açılışında olmuşlar.

- Azərbaycan Respublikasının Prezidenti və Türkiyənin Baş Naziri hökumət üzvlərinin iştirak etdikləri yığıncaqda Azərbaycan-Türkiyə danışıqlarının yekunları haqqında məlumat vermişlər.

- KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişlər.

- İş adamları ilə görüşmüşlər.

- ABƏŞ-in Rəhbər Komitəsinin üzvləri ilə görüşmüşlər.





- Respublika sarayında Azərbaycan ictimaiyyətinin nümayəndələri ilə görüşmüşlər. Görüşdə Azərbaycan Prezidenti nitqlə çıxış etmişdir:

*"Türkiyə tarix boyu bizə kömək etmiş, arxa olmuşdur. Azərbaycan xalqı heç vaxt unutmayacaq, həyatımızın çətin dövründə Türkiyənin bizə göstərdiyi dəstəyə, mənəvi dayağa görə minnətdar olacaqdır".*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

**12 iyul -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Baş Nazirini vətənə yola salarkən xanım **Tansu Çillerlə** birlikdə yolüstü Türkiyənin **"Çağ" Öyrətim İşlətmələri** Şirkətinin açdığı **Qafqaz Universitetində** olmuş, şirkət rəhbərliyi və Universitet rektorundan universitetin fəaliyyəti haqda məlumat almışlar.

**7 avqust -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair danışıqlarda Türkiyənin nümayəndəsi Kamal Ayhanı qəbul etmişdir.

**27 avqust -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Manas"** dastanının 1 000 illik yubileyi şənliklərində və türkdilli dövlətlərin







başçılarının III zirvə toplantısında iştirak etmək üçün Bişkekə yola düşmüşdür.

**28 avqust**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** türkdilli dövlətlərin başçılarının III zirvə toplantısında çıxış etmişdir.

- Zirvə toplantısının yekunlarına dair Bişkek bəyannaməsini imzalamışdır.

- KİV nümayəndələri üçün keçirilən mətbuat konfransında iştirak etmişdir.

**30 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türk Xalqlarının III Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının iştirakçılarına təbrik məktubu göndərmişdir.

**19 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev**





Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömür Orhunu qəbul etmişdir.

**23 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** BMT-nin yaranmasının 50 illiyinə həsr olunmuş təntənələrdə iştirak etmək məqsədilə getdiyi Nyu-Yorkda Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**28 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin 72-ci ildönümü münasibətilə Bakıdakı Türkiyə səfirliyinin təşkil etdiyi rəsmi qəbulda iştirak etmiş və nitq söyləmişdir.

**3 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömür Orhunu qəbul etmişdir.

**13 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətini qəbul etmişdir.

**29 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** işgüzar səfər məqsədilə getdiyi Londonda Türkiyənin **"Anadolu"** agentliyinin və **"Hürriyet"** qəzetinin London müxbirləri Ali Koçaka və Hefsal Elevliyə müsahibə vermişdir.

**5 dekabr -** İzmir **"9 Eylül" Universitetinin** Elmi Şurası *Azərbaycanın müstəqillik qazanması və ölkənin ən ağır dövründə üzərinə aldığı prezident vəzifəsini müvəffəqiyyətlə yerinə yetirdiyi, Azərbaycanda demokratiyanın bərqərar olması və inkişafı naminə yorulmadan çalışdığı, Azərbaycanın təhlükəsizliyi və milli mənafeyini beynəlxalq aləmdə uğurla təmin etdiyi, həmçinin Türkiyə Cümhuriyyəti ilə iqtisadi, mədəni və sosial sahələrdə əməkdaşlığın həyata keçirilməsində misilsiz xidmətlər göstərdiyinə görə* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə**





beynəlxalq münasibətlər sahəsində **fəxri doktor** adının verilməsi barədə yekdilliklə **210/2** saylı qərarı qəbul etmişdir.

**6 dekabr**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Binə hava limanında Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demireli** qarşılamışdır.

- **Süleyman Demirellə** birlikdə Şəhidlər Xiyabanını ziyarət etmişdir.

- İki ölkənin dövlət başçıları arasında təkbətək görüş olmuşdur.

- Azərbaycan-Türkiyə danışıqları prezidentlərin başçılıq etdikləri nümayəndə heyətləri arasında davam etdirilmişdir.

- **"Gülüstan"** sarayında Türkiyə Prezidenti **Süleyman Demirelin** və onun xanımının şərəfinə ziyafət vermişdir. **Heydər Əliyev** ziyafətdə nitqlə çıxış etmişdir:

*"Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almış, türk xalqının köməyini hiss etmiş, türk xalqının Azərbaycan xalqı ilə həmrəyliyini daim duymuşdur. Bizim keçmişimiz, tarixi əlaqələrimiz çox zəngindir."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***



**8 dekabr**

- Cənab **Süleyman Demirelə** birlikdə Türkiyənin "DHT-Construction" Şirkətinin inşa etdiyi Azərbaycan Beynəlxalq Bankının tikinti meydançasında olmuşdur.

- Türkiyə Prezidenti **Süleyman Demirelə** Azərbaycan Respublikası Elmlər Akademiyasının **fəxri doktoru** adı verilməsi mərasimində iştirak etmişdir.

- Hər iki ölkənin dövlət başçısı birlikdə Azərbaycan Respublikası Milli Məclisində olmuş, çıxış etmişlər.

*"İndiyə qədər olduğu kimi, bundan sonra da biz Azərbaycan üçün tarix boyu dost və qardaş olan Türkiyə ilə, türk xalqı*



*ilə, Türkiyə Cümhuriyyəti ilə öz əlaqələrimizi inkişaf etdirəcəyik."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Prezidentlər BDU-nun tələbə yataqxanasında məskunlaşmış qaçqınlarla görüşmüş, Xətai rayonundakı 3 saylı uşaq evində olmuş, Bakıda fəaliyyət göstərən Türk Anadolu liseyini ziyarət etmiş, Azərbaycanın və Türkiyənin işgüzar dairələrinin nümayəndələri ilə görüşmüş, iki ölkənin KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişlər.

- Möhtərəm Prezident Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq haqqında sənədlərin imzalanması mərasimində iştirak etmiş, Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** ilə Azərbaycan ictimaiyyəti nümayəndələrinin Respublika sarayında keçirilən görüşündə iştirak və çıxış etmişdir:

*"Türkiyə ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, obasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs* ***Kazım Karabekir bəyi*** *unutmur və unuda bilməz. O cümlədən, Azərbaycanda da* ***Enver Paşanı, Nuri Paşanı*** *heç kəs heç vaxt unutmur və unuda bilməz. Onların simasında o dövrdə, o çətin dövrdə Azərbaycana gəlib kömək edən türk qardaşarımızı biz heç vaxt unutmamışıq və unuda bilmərik."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

**9 dekabr**

- Türkiyə Prezidenti **Süleyman Demirel** ilə birlikdə Türkiyənin "Bayholdinq" şirkətinin paytaxtda tikəcəyi ilk binanın özülünün qoyulması mərasimində, Azərbaycan Respublikası Rabitə Nazirliyinin "Aztelekom" İstehsalat Birliyində respublikada ilk beynəlxalq telefon stansiyasının, habelə yenidən qurulmuş şəhərlərarası rabitə stansiyasının birinci növbələrinin açılışında iştirak etmişdir.

- Azərbaycana rəsmi səfərini başa çatdıran Türkiyə Prezidentini vətənə yola salmışdır.

**14 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Əmək və Sosial Təminat Naziri Mustafa Kulu qəbul etmişdir.



## AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1996













**10 yanvar -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Fransanın eks-prezidenti Fransua Mitteranın dəfn mərasimində iştirak etmək üçün Parisdə olarkən Türkiyə Prezidenti **Süleyman Demirel** ilə görüşmüşdür.

**8 fevral -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair danışıqlarda Türkiyə Prezidentinin xüsusi nümayəndəsi Kemal Ayhanı qəbul etmişdir.

**6 mart -** İstanbuldakı *Fatih Universitetinin Elmi Şurası Azərbaycan və Türkiyə arasındakı siyasi, iqtisadi, mədəni əlaqələrin, təhsil sahəsində əməkdaşlığın inkişafı və Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi sahəsində göstərdiyi xidmətlərə görə* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə fəxri doktor** adının verilməsi barədə yekdilliklə 7 saylı qərarı qəbul etmişdir.

**21 mart -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasında Türkiyə Prezidentinin nümayəndəsi Kemal Ayhanı qəbul etmişdir.

**3 aprel -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə İqtisadi Araşdırmalar Vəqfinin Prezidenti Orhan Dikmeni qəbul etmişdir.

**14 aprel**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Azərbaycana rəsmi səfərə gələn Türkiyənin Baş Naziri **Mesut Yılmazı** qəbul etmişdir. Azərbaycanla Türkiyə arasında sənədlərin imzalanması mərasimində iştirak etmişdir.

- Mərasimdən sonra Türkiyə Cümhuriyyətinin Baş Naziri **Mesut**



**Yılmazın** şərəfinə rəsmi ziyafət verilmişdir. Ziyafətdə Azərbaycan Prezidenti nitq söyləmişdir:

*"Bizim dostluğumuzun, qardaşlığımızın böyük gələcəyi var. Biz Türkiyəni özümüzə dayaq hesab edirik. Türkiyədə gedən prosesləri və 70 il müddətində dövlət quruculuğunda əldə olunmuş nailiyyətləri özümüz üçün örnək hesab edirik."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

- **Mesut Yılmazla** birlikdə Respublika sarayında ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür. Görüşdə **Heydər Əliyev** nitqlə çıxış etmişdir:

*"Biz daim bir-birimizə dayaq olmuşuq, yardım əli uzatmışıq. Keçmişdə də belə olubdur. İndi də belədir. XX əsrin əvvəlində Azərbaycanın həyatında faciəli hadisələr baş verdiyi zaman Türkiyədə olan qardaşlarımız bizim dadımıza yetişmişlər, harayımıza gəlmişlər, kömək əlini uzatmışlar."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***







**15 aprel**

- Türkiyə Cümhuriyyətinin Baş Naziri **Mesut Yılmaza BDU**-nun **fəxri doktoru** diplomunun təqdim edilməsi mərasimində çıxış etmişdir.

- Türkiyə Cümhuriyyətinin Baş Naziri **Mesut Yılmazla** birlikdə diplomatik korpusun tikinti meydançasında, "Ramstore" supermarketinin açılışında olmuşdur.

- Türkiyə Cümhuriyyətinin Baş Naziri **Mesut Yılmazla** Sabunçu rayonundakı 6 saylı texniki peşə məktəbinin yataqxanasında yaşayan Füzuli, Cəbrayıl, Zəngilan qaçqınları ilə görüşmüşdür. Görüşdə çıxış edən Azərbaycan Prezidenti demişdir:

*"Ermənistanın Azərbaycana silahlı təcavüzü başlanandan indiyə qədər biz Türkiyəni, Türkiyə xalqını, Türkiyə Cümhuriyyətinin rəhbərlərini, başçılarını öz yanımızda, özümüzlə bərabər görürük. Bu, bizim üçün böyük təskinlikdir, dayaqdır, eyni zamanda böyük yardım və kömәkdir".*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Azərbaycan Prezidenti **Mesut Yılmazı** vətənə yola salmışdır.

**14 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** EKO-nun IV zirvə toplantısında iştirak etmək məqsədilə getdiyi Aşqabadda Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**30 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri" konfransında geniş nitqlə çıxış etmişdir:

*"Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Bu əlaqələr bir çox əsrlər boyu formalaşıb, inkişaf edib, bugünkü xoşbəxt günlərə gəlib çatıbdır. Xalqlarımızın eyni kökə, eyni dinə, eyni dilə mənsub olması, adət və ənənələrimizin bir-birinə bənzərliyi, yaxud eyniliyi, milli duyğularımızın bir-biri ilə oxşar olması - hamısı birlikdə əsrlərdən-əsrlərə xalqlarımızı bir, bərabər etmişdir, xalqlarımız arasında sıx dostluq, qardaşlıq əlaqələri yaratmışdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

**31 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Azərbaycan-



Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri" mövzusunda konfransda iştirak etmək üçün Bakıya gəlmiş Türkiyənin dövlət naziri Yaman Törünerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**11 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Böyük Millət Məclisi sədrinin müavini Kamer Gençin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**21 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Iğdır şəhərinin bələdiyyə başçısı Ali Asker Aşırımı, Mələkli bələdiyyə başçısı Feyzullah Türkeli, Anavatan Partiyası Iğdır təşkilatının başçısı Muzaffer Genceni qəbul etmişdir.

**24 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmail Hakkı Karadayının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**25 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin "Bayholdinq" şirkətinin və Böyük Britaniyanın "Balli qrup" şirkətlər qrupunun birgə nümayəndə heyətini qəbul etmişdir.

- Azərbaycan Respublikası əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyə Cümhuriyyəti Əmək və Sosial Müdafiə Nazirliyi arasında əməkdaşlıq protokolu barəsində sərəncam vermişdir.

**13 iyul -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Diyanət İşləri Başçısı Nuri Yılmazı qəbul etmişdir.

**12 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömür Orhunu diplomatik missiyasını başa vurması münasibətilə qəbul etmişdir.

**28 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Milli Təhlükəsizlik Sədri Sönmez Köksalı qəbul etmişdir.

**5 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyədəki Azərbaycan lobbisinin rəhbəri Yahya Taşdeleni qəbul etmişdir.







**7 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Çağ" Öyrətim İşlətmələri** Şirkətinin Qubada fəaliyyət göstərən özəl türk liseyinin yeni binasının təməlinin qoyulması mərasimində iştirak etmək üçün gəlmiş Türkiyənin dövlət nazirləri Namık Kemal Zeybek və Ahmet Demircanı qəbul etmişdir.

**22 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** türkdilli ölkələrin dövlət başçılarının IV zirvə toplantısında və Əmir Teymurun anadan olmasının 660-cı ildönümü münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün Daşkəndə yola düşmüşdür.

Türkdilli ölkələrin dövlət başçılarının IV Zirvə Toplantısında çıxış etmişdir.

- Daşkənd bəyannaməsini imzalamışdır. Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**24 oktyabr**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Osman Faruk Loğoğlunun etimadnaməsini qəbul etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Qara Dəniz İqtisadi Əməkdaşlığı Ölkələrinin dövlət və hökumət başçılarının növbəti - VIII görüşündə iştirak etmək üçün Moskvaya yola düşmüşdür.

**25 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev**

Qara Dəniz İqtisadi Əməkdaşlığı Ölkələrinin dövlət və hökumət başçılarının növbəti VIII görüşündə iştirak edən Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**30 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Naxçıvan Muxtar Respublikasında səfərdə olarkən **"Naxçıvan-Türk"** bankında olmuşdur.

**6 noyabr**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türk Dünyası Yazıçılarının III Qurultayının açılışında çıxış etmişdir.








- Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti Türksoyun VIII toplantısının açılışında iştirak və çıxış etmişdir.

- Azərbaycan-Türkiyə iş birliyinin Bakıda keçirilən iclasında iştirak edən Türkiyə nümayəndə heyətini qəbul etmişdir.

**10 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyədəki Azərbaycan icmasının rəhbəri Yahya Taşdeleni qəbul etmişdir.

**13 noyabr**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Silahlı qüvvələrinin Baş Komandanı, ordu generalı Hikmet Köksalı qəbul etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin TGRT kanalının "Üz-üzə" proqramına müsahibə vermişdir.

**23 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Ali Məhkəməsinin sədri Müfit Utkunu qəbul etmişdir.

**1 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ATƏT-in zirvə görüşündə iştirak məqsədilə getdiyi Lissabon şəhərində Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür. Həmin axşam Türkiyə Prezidenti **Süleyman Demirel** Lissabonda Azərbaycan Prezidenti **Heydər Əliyev** şərəfinə ziyafət vermişdir.

**18 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Osman Faruk Loğoğlunu qəbul etmişdir.



# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1997









**1 mart** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Milli Təhsil Naziri Mehmet Sağlamı qəbul etmişdir.

**19 mart** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Böyük Millət Məclisinin sədri **Mustafa Kalemlinin** başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**13 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** tanınmış türk müğənnisi Ebru Gündeşin konsertində olmuşdur.

**28 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin İstanbulda keçiriləcək biznes konfransında iştirak etmək üçün Türkiyəyə yola düşmüşdür.

**5 may**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Prezidenti **Süleyman Demirelin** dəvəti ilə qardaş ölkəyə rəsmi səfərə yola düşmüşdür.

- Həmin gün Azərbaycan Prezidentinin Türkiyəyə rəsmi səfəri ilə əlaqədar **"Çankaya"** köşkündə qarşılanma mərasimi olmuşdur.

- Hər iki qardaş ölkənin prezidentləri mətbuat üçün qısa bəyanatlar vermişlər.





*"Türkiyə bizim dost, qardaş ölkəmizdir. Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin ən dərin kökləri var. Bizim keçmiş əlaqələrimiz və son illərdə sürətlə inkişaf edən əlaqələrimiz indi Türkiyə-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldırıbdır. Azərbaycan bundan çox məmnunluq duyur. Azərbaycan xalqı, respublikamızın bütün vətəndaşları Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz qardaş ölkəsi kimi daim sevgi-məhəbbət hislərini bildirirlər."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)***

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin banisi, Türk dünyasının görkəmli xadimi **Mustafa Kemal Atatürkün** məqbərəsini ziyarət etmiş, məzarının önünə əklil qoymuş və fəxri qonaqlar üçün xatirə kitabına ürək sözlərini yazmışdır:

*"Bu müqəddəs yeri, Türkiyə Cümhuriyyətinin banisi, böyük **Mustafa Kemal Atatürkün** məzarını yenidən ziyarət edərkən, onun ruhu qarşısında baş əyirəm. Onun ölməz xatirəsinə, bəşər tarixindəki xidmətlərinə dərin hörmət və ehtiramımı bildirirəm. Azərbaycan xalqı böyük Atatürkün xatirəsini qəlbində yaşadır, daim yaşadacaqdır. Allah rəhmət eləsin."*

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev**Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmail Hakkı Karadayı ilə görüşmüşdür.



- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident **Süleyman Demirellə** təkbətək görüşmüş, sonra prezidentlərin rəhbərliyi ilə iki qardaş dövlətin nümayəndə heyətləri arasında danışıqlar başlanmışdır.

- İkitərəfli danışıqlar başa çatdıqdan sonra **"Çankaya"** köşkündə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sənədlərin imzalanması mərasimi olmuşdur.

- Prezidentlər **Heydər Əliyev** və **Süleyman Demirel** "Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında" bəyannaməni imzalamışlar.

- Sonra Azərbaycan Respublikası hökuməti ilə Türkiyə hökuməti arasında sənədlər imzalanmışdır. Azərbaycan xarici işlər naziri Həsən Həsənov və Türkiyə Cümhuriyyəti Baş Nazirinin müavini, Xarici İşlər Naziri **Tansu Çiller** "Sərhəd

məsələlərinin və anlaşılmazlıqların həlli haqqında saziş"ə, Azərbaycan Baş Nazirinin müavini Abid Şərifov və Türkiyənin dövlət naziri Gürcan Dağdaş "Gəmiçilik sazişi"nə, Abid Şərifov və Türkiyənin yollar naziri Ömer Barutçu "Hava daşımaları haqqında sazişə əlavə protokol"a imza atmışlar. Azərbaycan Gənclər və İdman Naziri Əbülfəz Qarayev və Türkiyənin Dövlət Naziri Bahettin Şeker "Gənçlik və idman sahəsində əməkdaşlığa dair əlavə protokol"u, nazirlər Əli Nağıyev və Necati Çelik Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Təminat Nazirliyi ilə Türkiyə Cümhuriyyəti Əmək və Sosial Təminat Nazirliyi arasında əməkdaşlıq sazişini imzalamışlar.

- Daha sonra "Kiçik və orta həcmli sənaye müəssisələrini inkişaf etdirmək istiqamətində əməkdaşlığın əlavə protokolu", "Elektrik enerjisi sahəsində əməkdaşlığın prinsipləri haqqında saziş" imzalanmışdır.

- Hər iki ölkənin dövlət başçıları mərasimdə bəyanatla çıxış etmişlər.

- **"Çankaya"** köşkündə Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin ən yüksək dövlət mükafatı olan **"Dövlət nişanı"** təqdim edilmişdir.

Mərasimdə Türkiyə Prezidenti **Süleyman Demirel** və Azərbaycan Prezidenti **Heydər Əliyev** çıxış etmişlər:

*"Biz qardaş Azərbaycan Respublikasının çox hörmətli Prezidenti, qardaşım **Heydər Əliyevə** Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsində göstərdiyi xidmətlərə görə Türkiyə Cümhuriyyətinin **"Dövlət nişanı"** təqdim etmək məqsədi ilə buraya toplaşmışıq. Bu **"Dövlət nişanı"** dövlətlər arasında dostcasına əlaqələrin inkişaf etdirilməsinə və millətlərin bir-birinə yaxınlaşmasına nail olan dövlət başçılarına verilir. Bu gün bu nişanı qardaş ölkənin dövlət başçısına - hörmətli Prezident **Heydər Əliyevə** təqdim etməkdən böyük şərəf duyuram."*

***(Türkiyə Cumhuriyyətinin Prezidenti Süleyman Demirelin çıxışından)***

*"Mən çox həyəcanlıyam. Doğrusu, belə bir yüksək mükafatı heç də gözləmirdim. Çünki Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri inkişaf etdirmək, genişləndirmək, günü-gündən irəliyə aparmaq bir azərbaycanlı, bir vətəndaş kimi mənim müqəddəs borcumdur."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Mərasimin sonunda Prezident **Heydər Əliyev** orada iştirak edən jurnalistlərin suallarına cavab vermişdir.





- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankarada öz iqamətgahında Türkiyə Baş Nazirinin müavini, Xarici İşlər Naziri **Tansu Çiller** ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankarada öz iqamətgahında Türkiyənin Baş Naziri **Necmettin Erbakan** ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** iqamətgahları Ankarada yerləşən, Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin səfirləri ilə görüşmüş və nitqlə çıxış etmişdir.

- Türkiyə Prezidenti **Süleyman Demirelin** adından ali qonağın - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** şərəfinə rəsmi ziyafət verilmişdir. Rəsmi ziyafətdə dövlət başçıları nitq söyləmişlər.

*"Sizi əmin edirəm ki, Azərbaycan xalqı Türkiyə-Azərbaycan dostluğuna həmişə sadiq olacaqdır. Dəfələrlə dediyimiz **"Biz bir millət, iki dövlətik"** sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır. İndiyə qədər bu fikirlərlə yaşamış millət bundan sonra da həmin fikirlərlə yaşayacaqdır. Azərbaycanda yaşayan bütün azərbaycanlılar Türkiyədə yaşayan qardaşları ilə indiyə qədər bir olublar və bundan sonra da bir olacaqlar."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

- Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankarada öz iqamətgahında Türkiyənin Milliyetçi Hareket Partiyasının sədri əvəzi Tuğrul Türkeşi qəbul etmişdir.

**6 may**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyəyə rəsmi səfəri zamanı, Ankaranın mərkəzi küçələrindən birinə - 3-cü caddəyə **Azərbaycan Prospekti** adı verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.

Ankaranın bələdiyyə başçısı Melik Gökçek mərasimdə çıxış etmişdir. Sonra isə hər iki ölkənin prezidentləri çıxış etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Süleyman Demirel** Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin yeni binasının təməlinin qoyulması münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmiş və nitq söyləmişlər.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankarada Türkiyə Quru



Qoşunları Məktəbinə gələrək Türkiyənin hərbi və mülki ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrlə, Türkiyədəki Azərbaycan diasporunun nümayəndələri ilə görüş keçirmiş və nitq söyləmişdir. Görüşdə Türkiyə Polis Akademiyasının rəisi Hasan Yucasan Prezident **Heydər Əliyevə** plaket təqdim etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Bilkent Universitetinin əziz qonağı olmuşdur.

Orada İhsan Doğramacı Prezident **Heydər Əliyevə Türkiyə-Azərbaycan dostluğu vəqfinin fəxri sədri** seçilməsi barədə diplomu təqdim etmişdir.

- Sonra həmyerlimiz Toğrul Qəniyevin dirijorluq etdiyi Bilkənd Universiteti Akademik Orkestrinin konserti olmuşdur. Konsertdə Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Vivaldinin əsərləri səslənmişdir.

- Konsertdən sonra İhsan Doğramacı Azərbaycan Respublikası Prezidenti **Heydər Əliyevin** şərəfinə ziyafət vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və onu müşayiət edən şəxslər Türkiyə parlamentinə gəlmişlər.

- Sonra Respublikamızın başçısı **Heydər Əliyev** ilə TBMM-in sədri **Mustafa Kalemli** və məclis üzvlərinin görüşü olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankaradakı iqamətgahında Türkiyə Anavatan Partiyasının sədri Mesut Yılmazla görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankaradakı iqamətgahında Türkiyədəki Demokratik Sol Partiyasının sədri Bülent Ecevit ilə görüşmüşdür.





- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankaradakı iqamətgahında TBMM-nin üzvü Hikmet Çetinlə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankaradakı iqamətgahında Türkiyənin tanınmış jurnalistləri ilə görüşmüşdür. Görüşdə **"Cumhuriyet", "Hürriyet", "Sabah", "Milliyet", "Turkish Daily News", "Zaman", "Günaydın", "Türkiye", "Radikal"** qəzetlərinin və digər mətbuat orqanlarının nümayəndələri iştirak etmişlər.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankaradakı iqamətgahında Türkiyənin **"Samanyolu"** televiziyasına müsahibə vermişdir:

*"Mən bunu Məclisdə də dedim - son 3 ildə Türkiyə ilə Azərbaycan arasında ticarət 3 dəfə artıb. Ancaq mütləq rəqəmi götürəndə bu o qədər də böyük deyil. Mən bu artımdan məmnunam, amma hesab edirəm ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi iş birliyinin daha böyük imkanları vardır. Bu imkanlardan istifadə etmək lazımdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***



- Daha sonra Azərabaycanda türk təhsil ocaqlarının fəaliyyətinə toxunan Azərbaycan Prezidenti demişdir:

*"Mən həmişə buna dəstək vermişəm və bu gün də dəstək verirəm. Mən güman edirəm ki, bunlar Azərbaycan-Türkiyə dostluğunun və əməkdaşlığının inkişaf etməsinə kömək edəcəkdir."*

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankaradakı iqamətgahında Türkiyənin **"NTV"** televiziyasına müsahibə vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Dövlət Opera və Balet teatrında olmuşdur.

**7 may**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankaradan İzmirə yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** onu müşayiət edən şəxslərlə birlikdə ona **fəxri doktor** adı

verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmək üçün hava limanından birbaşa İzmirin **"9 Eylül" Universitetinə** gəlmişdir.

**"9 Eylül" Universitetinin** rektoru Fethi İdiman salondakıların gurultulu alqışları altında universitetin fəxri doktoru mantiyasını və medalını Azərbaycan Prezidenti **Heydər Əliyevə** təqdim etmişdir.

Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** mərasimdə nitq söyləmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyədə rəsmi səfərdə olarkən İzmirdə yaşayan və burada təhsil alan soydaşlarımızla görüşmüdür.



Dəbdəbəli "Prenses" otelində keçirilən bu görüş münasibətilə azərbaycanlı rəssamların, tələbələrin, habelə digər türkdilli ölkələrin gənclərinin failiyyətindən bəhs edən sərgi təşkil edilmişdir. Respublikamızın rəhbəri sərgi ilə tanış olmuşdur.

- İzmir valisi Kutlu Aktaş Azərbaycan Respublikası Prezidenti **Heydər Əliyevin** şərəfinə ziyafət vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və respublikamızın nümayəndə heyətinin üzvləri İzmirdə **"Bakı" parkının** açılış mərasimində iştirak etmişlər. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** çıxış etmişdir.

- İzmirin mənzərəli guşəsində, Ege dənizi sahilində **"Heydər Əliyev Bulvarı"nın** açılış mərasimi olmuşdur. Mərasimdə toplaşanlar Azərbaycan dövlətinin başçısını hərarətlə, alqışlarla qarşılamışlar. Prezident **Heydər Əliyev** bulvarın açılışını bildirən lenti kəsmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Azərbaycan nümayəndə heyətinin üzvləri ilə birlikdə həmin gün axşamüstü İstanbula gəlmişdir. Dövlət başçısını Türkiyənin Dövlət Naziri Namık Kemal Zeybek müşayiət etmişdir.





Atatürk adına hava limanında Prezident **Heydər Əliyevi** İstanbul valisi Rıdvan Yenişən və digər rəsmi şəxslər qarşılamışlar.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbula gəlişindən az sonra öz iqamətgahında, "Çırağan" otelində, mətbuat nümayəndələri ilə görüşmüşdür. Görüşün əvvəlində Azərbaycan Prezidenti Türkiyəyə rəsmi səfərinin gedişi barədə bəyanatla çıxış etmişdir.

- Sonra Prezident **Heydər Əliyev** jurnalistlərin suallarına cavab vermişdir.

- Həmin gün axşam İstanbul valisi Rıdvan Yenişen Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** şərəfinə ziyafət vermişdir.

**8 may**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ona **fəxri doktor** adı verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmək üçün ölkənin böyük təhsil ocaqlarından biri olan İstanbulun **Fatih Universitetinə** gəlmişdir. Universitetin professor və müəllim heyəti, tələbələr dövlət başçısını hərarətlə, gül-çiçək dəstələri ilə qarşılamışlar. Universitetin rektoru Ergün Yener Prezident **Heydər Əiyevi** səmimiyyətlə salamladıqdan sonra mərasimdə Türkiyənin Dövlət Naziri Namık Kemal Zeybek çıxış etmişdir.

Sonra **Fatih Universitetinin** rektoru professor Ergün Yener salondakıların gurultulu alqışları altında Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə Fatih Universitetinin fəxri doktoru** mantiyasını və diplomunu təqdim etmişdir.

Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** mərasimdə geniş nitq söyləmişdir:

*"Universitet və onunla bağlı olan vəqf türk dünyasında türk xalqının, türk tarixini, milli ənənələrini, keçdiyi yolu təbliğ etməkdə və türk dilini, təhsilini, tədrisini qurmaqda, yaratmaqda türk cümhuriyyətlərində yeni-yeni tədris ocaqları - universitetlər, kolleclər, liseylər açmaqda çox böyük xidmətlər göstərir. Bu tək bir universitet deyil, onun çox böyük qol-qanadı var. Yəni bu vəqfin çox böyük qol-qanadı var. Onun böyük qanadlarından biri bu universitetdir. Mən fürsətdən istifadə edib bu vəqfin Türkiyənin və türk cümhuriyyətlərinin həyatında son illər gördüyü işlərə yüksək qiymət verirəm. Görülən bu işlər münasibətilə sizi təbrik edirəm.*

*Biz Azərbaycanda çox sevinirik, iftixar hissi keçiririk ki, Türkiyənin təhsil ocaqları*



*gündən-günə genişlənir, güclənir və sayca artır. Türkiyənin yüksək təhsil ocaqları, universitetləri, Türkiyə Cümhuriyyəti türk dünyasının gələcəyi üçün yüksək ixtisaslı mütəxəssislər hazırlayırlar. Bizi sevindirən bir də odur ki, Türkiyənin siyasəti də, mədəniyyəti də, mənəviyyatı da, təhsili də, elmi də Türkiyə Cümhuriyyətinin banisi, qurucusu böyük* ***Mustafa Kemal Atatürkün*** *qoyduğu yolla, onun vəsiyyətlərini yerinə yetirmək yolu ilə gedir.*

*Mən bir daha sizə təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm.*

*Bir daha bildirmək istəyirəm ki, Azərbaycanda Türkiyənin xüsusi yeri var. Sizin vəqfin və universitetin Azərbaycanda gördüyü işlər respublikamızın təhsil sistemində müəyyən müsbət dəyişikliklər meydana gətirir. Ona görə də mən bu işlərə həmişə dəstək vermişəm, bundan sonra da dəstək verəcəyəm."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

Mərasimdə dövlət başçısı **Heydər Əliyevə** Türkiyənin





**"Çağ" Öyrətim İşlətmələri** şirkəti adından hədiyyə, Azərbaycandakı Türkiyə məktəbləri adından gül dəstəsi təqdim edilmişdir.

Sonra **"Çağ" Öyrətim İşlətmələri** şirkətinin prezidenti Adem Öcal çıxış edərək *böyük demokrat, xalqına ləyaqətlə xidmət edən, XX əsrin tanınmış, böyük dövlət adamı, qardaş Azərbaycan Respublikasının müdrik Prezidenti hörmətli* **Heydər Əliyevi Fatih Universitetinin fəxri doktoru** adı alması münasibətilə təbrik etmiş, ona yeni böyük uğurlar diləmişdir.

Mərasimin sonunda Azərbaycan Prezidentinə plaket təqdim olunmuşdur.







- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbulda öz iqamətgahında - "Çırağan" otelində Türkiyənin **"TRT", "TGRT", "Samanyolu", "NTV"** televiziyalarının rəhbərləri ilə görüşmüş və çıxış etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbuldakı "Suis" hotelində Türkiyənin iş adamları ilə görüşmüşdür. Görüşdə Türkiyə-Azərbaycan İş Şurasının sədri Ali Yücelin çıxışından sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitq söyləmişdir:

*"Gəlin biz daha da yaxınlaşaq. Millətlərimiz bir-biri ilə nəinki yaxındır, birdir. Dilimiz, dinimiz, qanımız, canımız birdir. Gəlin iqtisadiyyatda da daha da yaxınlaşaq."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbulda İslam Konfransı Təşkilatının tarix, kültür, sənət mərkəzində olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyəyə rəsmi səfərini başa çatdıraraq vətənə qayıdarkən İstanbulun Atatürk adına hava limanında mətbuat konfransı keçirmiş və qısa bəyanatla çıxış etmişdir.

Elə həmin gün Prezident **Heydər Əliyev** Bakıya qayıtmışdır.

**13 may** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** EKO-nun növbədənkənar sammitində iştirak etmək üçün getdiyi Aşqabatda Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**22 may** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Osman Faruk Loğoğlunu qəbul etmişdir.

**3 iyun** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türk Petrolları Anonim Şirkətinin Prezidenti Sıtkı Sancarı qəbul etmişdir.

**8 iyul** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İspaniyanın paytaxtı Madrid şəhərində NATO-nun və Avroatlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iclasında iştirak edərkən Türkiyə Prezidenti **Süleyman Demirellə** görüşmüşdür.

**28 iyul** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ABŞ Prezidenti **Bill Klintonun** dəvəti ilə Amerika Birləşmiş Ştatlarında ilk rəsmi səfəri



zamanı Nyu-Yorkda Türkiyənin Xarici İşlər Naziri Murat Başeskioğlu ilə görüşmüşdür.

**1 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə-Yaponiya, Türkiyə-MDB, Yaponiya-Türkiyə, Türkiyə-Azərbaycan iş birliklərinin sədrləri Şarik Tara, Nihat Gökiğit, Hisaşi Sukamomoto və Ali Yüceli qəbul etmişdir.

- Həmin gün Prezident Türkiyə-Yaponiya İş Birliyinin sədri Şarik Taranı qəbul etmişdir.

**8 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Dövlət Naziri Ahat Andicanı və Xarici İşlər Naziri İsmail Cemi qəbul etmişdir.

**15 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev**







Türkiyənin iş adamı, millət vəkili Cavit Çağların başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**16 sentyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "NTV"yə müsahibə vermişdir.

**25 sentyabr -** İtaliya Respublikasının Prezidenti **Oskar Luidji Skalfaronun** dəvəti ilə bu ölkəyə rəsmi səfərə gedən Azərbaycan Prezidenti **Heydər Əliyev** Romada öz iqamətgahında Türkiyənin Anadolu Acansının Roma müxbiri Yasemen Taşkına müsahibə vermişdir.

**11 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə iştirak etmək üçün getdiyi Strasburqda Avropa sarayında Türkiyə Cümhuriyyətinin Baş Naziri **Mesut Yılmaz** ilə görüşmüşdür.

**8 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin Tehranda keçirilən VIII zirvə görüşündə iştirak edərkən Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** ilə görüşmüşdür.

**27 dekabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin **"Samanyolu"** televiziyasının rəhbəri Naci Tosun, texniki müdiri Nihat Özdemir, **"Çağ" Öyrətim İşlətmələri A.Ş.**-nin Azərbaycan üzrə prezidenti Adem Öcal, **"Zaman"** qəzetinin Azərbaycan təmsilçisi Ersin Demirci və **"Samanyolu"** televiziyasının Azərbaycan təmsilçisi Tahir Karanfili qəbul etmişdir. Adı çəkilən qurumların, o cümlədən təhsil sahəsində böyük uğurlar qazanmış **"Çağ" Öyrətim İşlətmələri A.Ş.**-nin rəhbərliyi möhtərəm Prezidentə şirkətin Azərbaycandakı fəaliyyətləri və bundan sonrakı gələcək işləri haqda geniş məlumat vermişdir.

**"Çağ" Öyrətim İşlətmələri A.Ş.**-nin Azərbaycan üzrə prezidenti Adem Öcal 1993-cü ildə Bakıda açılan **Qafqaz Universitetinin** müasir təhsil kompleksini tikmək üçün Xırdalan qəsəbəsində üzərində 20 hektar torpaq sahəsi ayrıldığını bildirərək, özülqoyma mərasimində Zati-alilərini də gözlədiklərini ifadə etmişdir. Universitet və məktəblərin fəaliyyətlərindən çox məmnun olduğunu və onları hər zaman dəstəklədiyini bildirən **Azərbaycan Prezidenti** dünya standartlarına uyğun təhsil ocaqları açmağın xeyirxah iş olduğunu vurğulayaraq belə işlərə hər zaman arxa və yardımçı olacağını təkrar etmişdir.



# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 1998









**13 fevral**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- İstanbulda rəsmi qarşılanma mərasimindən sonra **Azərbaycan və Türkiyə prezidentləri** hava limanındakı dövlət qonaq evinin konfrans salonuna gələrək jurnalistlər qarşısında qısa bəyanatla çıxış etmişlər.

*"Mən qardaşım **Süleyman Demirelin** sözlərini tam təsdiq edirəm və həqiqətən böyük **Mustafa Kemal Atatürkün** vəsiyyəti həm Türkiyə üçün, həm də Azərbaycan üçün eyni xarakter, eyni əhəmmiyyət daşıyır, Türkiyənin dərdi-qəmi Azərbaycanın dərdi-qəmidir, Azərbaycanın dərdi-qəmi Türkiyənin dərdi-qəmidir. Biz belə qardaşlıq, belə dostluq edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əbədi, daim olacaq, sarsılmaz olacaqdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)***

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyəyə işgüzar səfərinin birinci günü İstanbulda öz iqamətgahında ölkənin Baş Naziri **Mesut Yılmazla** görüşmüşdür.

- Azərbaycan Prezidenti **Heydər Əliyev** Türkiyənin **"Nərgiz-TV"** televiziyasının 1997-ci il üçün **"Dünyada ilin adamı"** Mükafatı təqdim edilmişdir. Dövlət başçısı mərasimdə nitq söyləmişdir:

*"Bizim dostluğumuza mane olan bütün qüvvələr bilsinlər ki, heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

**14 fevral**
- Türkiyənin Xarici İqtisadi Əlaqələr Gurumu (DEİG) İstanbulun "Ceylan interkontinental" otelində Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** şərəfinə səhər yeməyi təşkil etmişdir.

- "Ceylan interkontinental" otelinin konfrans salonunda Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə** Türkiyənin Kars şəhər bələdiyyəsinin və türk sənayeçiləri və iş adamları Vəqfinin 1997-ci ilin insan haqları və **"İlin dövlət adamı"** mükafatlarının təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir. Mərasimdə hər iki ölkənin prezidenti nitqlə çıxış etmişdir.

*"Naxçıvana yardım əlini, kömək əlini məhz Türkiyə, türk xalqı uzatdı, türk dünyasının böyük lideri, mənim əziz dostum, qardaşım **Süleyman Demirel** uzatdı. Biz o vaxt Azərbaycanla Türkiyəni bir-birinə bağlaya bilən bir körpünün tikilməsinə başladıq. Bu körpünü muştərək tikdik, amma bunun bütün zəhməti, əziyyəti, xərci, məsrəfləri Türkiyənin uzərinə düşdü. Qısa bir muddətdə bu körpünu tikdik və 1992-ci il may ayının 28-də bu həsrət, ümid körpüsu təntənəli surətdə açıldı və biz hamımız orada çoxlu insanın toplaşdığı şəraitdə bunu bayram etdik. Bizim xalqımız öz qardaş-bacıları - Türkiyə torpağında yaşayan qardaş-bacıları ilə bir-birinə qovuşdular."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Süleyman Demirel** qardaş ölkəyə işgüzar səfərinin yekunları barədə İstanbulda birgə mətbuat konfransı keçirmişlər.

**24 mart -** İzmirdəki **Ege Universitetinin** Elmi şurası *sülhsevər siyasət yeritdiyi, dost və qardaş Azərbaycanın müstəqilliyi yolunda, Türkiyə və Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi, elmi, iqtisadi, mədəni əməkdaşlığın genişləndirilməsi sahəsində göstərdiyi böyük xidmətlərə görə* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə fəxri doktor** adının verilməsi barədə yekdilliklə 5/2 saylı qərarı qəbul etmişdir.

**26 aprel**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** dəvəti ilə dost ölkəyə işgüzar səfərə yola düşmüşdür.

- Türkiyənin Artvin şəhəri ərazisində **Dərinər Su Bəndi** su elektrik stansiyasının təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Prezidenti **Heydər Əliyev**, Gürcüstan Prezidenti **Eduard Şevardnadze**, Türkiyənin Prezi-







denti **Süleyman Demirel**, Türkiyənin Baş Naziri **Mesut Yılmaz** və digər rəsmi şəxslər iştirak etmişlər.

- Türkiyə Cümhuriyyətinin Prezidenti cənab **Süleyman Demirelin** dəvəti ilə dost ölkədə işgüzar səfərdə olan Azərbaycan Prezidenti **Heydər Əliyev**, Gürcüstan Prezidenti **Eduard Şevardnadze** və Türkiyə Prezidenti **Süleyman Demirel** Trabzon şəhərində görüşərək bu üç dövlətin arasında dostluğun, mehriban qonşuluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı məsələləri müzakirə etmişlər.

Səmimilik və dostluq şəraitində keçən görüşün sonunda Türkiyə, Azərbaycan və Gürcüstan prezidentləri birgə bəyanat qəbul etmişlər.

**1 may -** Ərzurumdakı **Atatürk Universitetinin** Elmi Şurası Universitetin **fəxri doktor** adının verilməsi barədə əsasnaməyə uyğun olaraq Universitet rektorluğunun təklifinə əsasən *Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında əldə etdiyi uğurlara, ölkəsində və Qafqazda sülhün bərqərar olması naminə göstərdiyi səylərə, Azərbaycan və Türkiyə respublikaları arasında dostluq və əməkdaşlığın inkişafında müstəsna xidmətlərinə görə müdrik dövlət xadimi, Türkiyənin böyük dostu, türk dünyasının tanınmış öndəri Azərbaycan Respublikasının Prezidenti* **Heydər Əliyevə**



beynəlxalq münasibətlər sahəsində **fəxri doktor** adı verilməsi barədə yekdilliklə 4/35 saylı qərarı qəbul etmişdir.

**13 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident sarayında Türkiyənin **Fatih Universitetinin** təsisçilərindən biri dr. Ali Bayramı, **"Çağ" Öyrətim İşlətmələri A.Ş.**-nin Azərbaycan təmsilçisi Adem Öcalı, Azərbaycan-Türkiyə Liseyləri Baş İdarəsinin rəisi Turan Öztoprakı və **"Zaman"** qəzetinin baş redaktoru Ersin Demircini qəbul etmişdir. Azərbaycan Prezidenti **Heydər Əliyevi** 75 illik yubileyi münasibətilə təbrik edən qardaş ölkənin nümayəndələri **"Çağ" Öyrətim İşlətmələri** Şirkətinin açdığı təhsil ocaqlarının fəaliyyəti və beynəlxalq olimpiadalarda əldə etdiyi uğurlar barədə ölkə başçısına ətraflı məlumat vermişlər.

- Yubiley münasibətilə möhtərəm Prezident Türkiyə Jurnalistlər və Yazarlar Vəqfinin göndərdiyi səmimi təbrik məktubu və xatirə hədiyyəsi üçün qonaqlara minnətdarlığını bildirmişdir. Dr. Ali Bayramla 1991-ci ildə Araz çayı üzərində tikilmiş körpünün açılışı zamanı, Türkiyənin **Fatih Universitetindəki** görüşlərini və ona **fəxri doktor** adı verilməsini məmnuniyyətlə xatırlayan Azərbaycan Prezidenti o anları heç vaxt unutmayacağını ifadə etmişdir. Dövlət





başçısı xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin olduğunu və bu dostluğun daim davam edəcəyinə inandığını söyləmişdir.

Azərbaycan Respublikasının Prezidentini 75 illik yubileyi münasibətilə səmimi təbrik edən **"Çağ" Öyrətim İşlətmələri A.Ş.**-nin Azərbaycan təmsilçisi Adem Öcal son illərdə Azərbaycanın dünya birliyində layiqli yer tutduğunu və bunun da **Heydər Əliyevin** müstəsna xidmətləri nəticəsində gerçəkləşdiyini bildirmişdir. Sonra o, MDB üzvü olan ölkələrin orta məktəb şagirdlərinin Qırğızıstanda keçirilmiş kimya olimpiadasında özəl türk liseylərinin əldə etdiyi nailiyyətlər barədə məlumat verərək şagirdlərin kimya olimpiadasının qalibi şəhadətnamələrini dövlət başçısına təqdim etmişdir.

**5 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin IV zirvə görüşündə iştirak edərkən Yaltada Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** ilə görüşmüşdür.

**9 iyun**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** türkdilli ölkələrin dövlət başçılarının növbəti zirvə görüşündə və Astana şəhərinin yeni paytaxt elan olunması münasibətilə keçiriləcək mərasimdə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfərə yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Astanada, Qazaxıstan prezidentinin iqamətgahında türkdilli dövlətlərin V Zirvə görüşündə iştirak etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** səfər əsnasında Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** ilə görüşmüşdür.

**11 oktyabr -** Keçirilmiş Prezident seçkilərində **Azərbaycan xalqının böyük dəstəyi və etimadı ilə Heydər Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti** seçilmişdir.

- Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar Türkiyə dövlət, hökumət və partiya rəhbərləri tərəfindən **Heydər Əliyevin** ünvanına göndərilmiş səmimi təbriklər:

***Azərbaycan Respublikasının Prezidenti***
***Zati-Aliləri Cənab Heydər Əliyevə***

***Hörmətli Prezident,***
**Əziz gardaşım,**
*1998-ci il oktyabrın 11-də Azərbaycan-*

*da keçirilmiş seçkilərdə ikinci dəfə prezident vəzifəsinə seçildiyinizi öyrənib çox məmnun oldum. Şəxsən öz adımdan və türk milləti adından zati-alinizə ən dərin səmimiyyətlə müvəffəqiyyətlər dilədiyimi bildirirəm. Ölkənizi demokratiya və sərbəst bazar igtisadiyyatı zəminində müasir dünyaya qovuşdurmaq məqsədi ilə indiyə qədər göstərdiyiniz böyük səylərin bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə tam inanıram.*

*Bu yeni mərhələdə qardaş Azərbaycanın demokratikləşmə və sərbəst bazar iqtisadiyyatının müasir qurumlarını və qaydalarını bərqərar etmək səylərinin zati-alinizin səriştəli başçılığı ilə daha da güclənəcəyinə inanıram. Türkiyə əbədi dostluq və qardaşlıq telləri ilə bağlı olduğu qardaş Azərbaycanla əlaqələrini müştərək tale anlayışı ilə daha da genişləndirmək, onun iqtisadi yüksəliş və demokratikləşmə səylərinə hər cür dəstək vermək əzmindədir.*

*Fürsətdən istifadə edib, zati-aliləri, əziz qardaşımı öz adımdan və türk milləti adından ən səmimi duyğularla təbrik edir, Sizə cansağlığı və uğurlar diləyir, Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına əbədi sülh, rifah və əmin-amanlıq arzulayıram.*

***Süleyman DEMİREL***
***Türkiyə Cümhuriyyəti Prezidenti***

***Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri Cənab Heydər Əliyevə***

***Hörmətli Prezident!***

*Prezident seçkilərində qardaş Azərbaycan xalqının böyük dəstəyi ilə yenidən seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.*

*Seçkilərin nəticəsi Azərbaycanda Sizin səriştəli liderliyinizlə görülən işlərin gardaş Azərbaycan xalgı tərəfindən də təqdir edildiyini və ürəkdən bəyənildiyini göstərir.*

*Qardaş Azərbaycan xalqının qarşıdakı dövrdə də demokratikləşmə və dirçəliş yolunda əzmlə irəliləməsini, ölkələrimiz arasında mövcud olan sıx dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrinin hər vasitə ilə inkişaf etdirilməsini ürəkdən istəyirəm.*

*Fürsətdən istifadə edib, Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını təbrik edir, səmimi ehtiramımı bildirirəm.*

***Bülent Ecevit,***
***Türkiyə Cümhuriyyəti***
***Baş Nazirinin Müavini***

***Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri Cənab Heydər Əliyevə***

***Əziz Prezident,***

*1998-ci il oktyabrın 11-də keçirilən prezident seçkilərində Azərbaycan xalqının böyük əksəriyyətinin səsi ilə qalib gəldiyinizi eşidib məmnun oldum.*

*Azərbaycan xalqının zati-alinizə böyük dəstək verməsi Sizin səriştəli başçılığınızla ölkənizdə sərbəst bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması üçün aparılan islahatlara inamın bir göstəricisidir.*

*Əminəm ki, Türk və Azərbaycan xalqları arasında mövcud olan qardaşlıq, ölkələrimizin sıx əməkdaşlığı və dostluğu qarşıdakı dövrdə də genişlənib davam edəcəkdir.*

*Fürsətdən istifadə edib Sizi və qardaş Azərbaycan xalqını təbrik edir, ehtiramımı bildirirəm.*

***İsmet SEZGİN***
***Türkiyə Respublikasının Baş Nazirinin müavini və Milli Müdafiə Naziri***

***Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə***

***Zati-aliləri,***

*Keçirilən seçkilər nəticəsində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmənizlə əlaqədar olaraq Sizi təbrik edirəm.*

*Türkiyə ilə qardaş Azərbaycanın dostluğunun və təşəkkül tapmış iqtisadi əlaqələrinin bu yeni mərhələdə də Sizin dövlət başçılığınızla inkişaf edəcəyinə inanır, Sizə uğurlar və cansağlığı diləyirəm.*

***Hörmətlə,***

***Hüsamettin CİNDORUK***
***Demokratik Türkiyə Partiyasının Baş Katibi***



**26 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident sarayında türkiyəli qonaqları - İstanbuldakı Fatih Universiteti rəyasət heyətinin üzvləri dr. Ali Bayram və Ömer Bağcını, Azərbaycan-Türk liseyləri Baş İdarəsinin rəisi Mehmed Mesud Atanı, habelə Bakıdakı **Qafqaz Universitetinin** rektoru prof. dr. Ahmet Çetin Canı və **"Çağ" Öyrətim İşlətmələri A.Ş.**-nin Azərbaycan üzrə prezidenti Adem Öcalı qəbul etmişdir. Qonaqlar **xalqın iradəsi ilə yenidən prezident vəzifəsinə seçilməsi** münasibəti ilə **Heydər Əliyevi** türk ziyalıları və rəhbərlik etdikləri qurumların çoxsaylı kollektivləri adından təbrik etmişlər.

Dövlət başçısı ötən beş ildə Azərbaycanın Prezidenti vəzifəsini həyata keçirdiyi zaman gördüyü işlər içərisində ən önəmlilərindən birinin də **Türkiyə-**






**Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin gücləndirilməsi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi** olduğunu vurğulamışdır.

Türkiyə və Azərbaycan hökumətləri ilə yanaşı, hər iki ölkədə yaşayan insanların da bu dostluğun güclü və möhkəm olmasını istədiklərini təqdirəlayiq hesab edən Azərbaycan Prezidenti **"Çağ" Öyrətim**



**İşlətmələri A.Ş.**-nin fəaliyyətindən məmnun olduğunu bir daha ifadə etmişdir.

Prezidentin qayğısı sayəsində **Qafqaz Universitetinə** ayrılmış torpaq sahəsi üçün minnətdarlığını ifadə edən Universitetin rektoru Prezidentə müasir universitet kompleksinin inşası üçün hazırlıq işlərinin başa çatması haqda məlumat vermişdir. Qonaqlar üzərində



**Heydər Əliyev** cənablarının **"Müstəqil-liyimiz əbədidir!"** sözləri həkk olunmuş Prezident **Heydər Əliyevin** və məktəb şagirdlərinin təsvir olunduqları tablonu və xatirə hədiyyəsini ölkə başçısına təqdim etmişlər.



# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - *1999*







**22 mart** - Hataydakı **Mustafa Kemal Universitetinin** Elmi Şurası *Türkiyə Cümhuriyyətinə və onun qurucusu ulu öndər Atatürkə olan sevgisinə, Azərbaycan türk dövlətində dünyəvi və demokratik sistemin qurulması, ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin inkişafı və xalqlarımızın bir-birinə yaxınlaşması sahəsindəki böyük xidmətlərinə görə* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə** sosial elmlər üzrə fəxri doktor adının verilməsi barədə yekdilliklə **B.30.2.MKÜ.0.70.00.00/17-3-2231** saylı qərarı qəbul etmişdir.

**6 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin **"TRT-1"** televiziya kanalında bütün dünyaya yayımlanmış **"Dünya düşüncələri Atatürkün gözü ilə"** verlişində prof. dr. Özer Özankayaya müsahibə vermişdir.

**14 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Kaspian-Amerikan Telekom" Azərbaycan-Amerika birgə müəssisəsinin açılış mərasimindən sonra Türkiyənin Anadolu Acansı müxbirinin sualına cavab verərkən demişdir:

*"Türkiyə və Azərbaycan gənclərinə arzum budur ki, öz cümhuriyyətlərini **Mustafa Kemal Atatürk** kimi qorusunlar, inkişaf etdirsinlər, daha da yüksəklərə qaldırsınlar."*

**15 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** 1999-cu il **Atatürk Beynəlxalq Sülh Mükafatına** layiq görülməsi ilə əlaqədar Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** təbrik məktubunu və mükafatın təqdim edilməsi mərasimində iştirakı üçün dəvətini almışdır.

**16 aprel** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** dünyanın ən nüfuzlu mükafatlarından olan **Atatürk Beynəlxalq Sülh Mükafatına** layiq görülməsi münasibəti ilə Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** təbrik məktubuna cavab göndərmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Atatürk Mükafatı ilə onun fəaliyyətinə verilən yüksək qiymətə, şəxsinə, Azərbaycan xalqına göstərilən qayğı və diqqətə görə Türkiyə Cümhuriyyətinin Baş Naziri, **Atatürk Beynəlxalq Sülh Mükafatı** Komitəsinin sədri **Bülent Ecevitə** təşəkkür məktubu göndərmişdir.

**19 may** - ABŞ-ın Klivlend şəhərindəki klinikada müalicəsini uğurla başa çatdırıb





Türkiyəyə qayıdarkən Böyük Britaniyanın paytaxtında onun üçün ayrılmış iqamətgahda Türkiyə Cümhuriyyətinin Böyük Britaniyadakı səfiri Özden Sanberki diplomatın xahişi ilə qəbul etmişdir.

**20 may**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** əziz dostu və qardaşı, Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** şəxsi dəvəti ilə qardaş ölkəyə qısamüddətli istirahətə gəlmişdir.

- Ölkəmizin rəhbərini Ankaranın Esenboğa hava limanında Türkiyə Cümhuriyyəti Prezidenti cənab **Süleyman Demirel**, ölkənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycanın Ankaradakı səfirliyinin əməkdaşları hərarətlə, mehribanlıqla qarşılamışlar.

- Rəsmi qarşılama mərasimindən sonra prezidentlər hava limanından xüsusi vertolyotla **"Çankaya"** köşkünə gəlmişlər.

- Azərbaycan Respublikasının Prezidentinə ayrılmış iqamətgahda **Heydər Əliyev** ilə Prezident **Süleyman Demirel** arasında səmimi söhbət olmuşdur.

**22 may** - Türkiyə Cümhuriyyətinin Baş Naziri **Bülent Ecevit** Ankarada **"Çankaya"** köşkünə gələrək Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevi** ziyarət etmişdir.

**23 may** -
- Türkiyənin Anavatan Partiyasının sədri, millət vəkili Mesut Yılmaz Ankarada **"Çankaya"** köşkünə gələrək Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevi** ziyarət etmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Prezidenti **Süleyman Demirelin "Çankaya"** köşkündə yaşadığı iqamətgaha gəlmişdir. Burada dövlət başçıları jurnalistlər qarşısında bəyanatla çıxış etmişlər.

- Sonra iki qardaş ölkənin dövlət başçısı arasında Azərbaycanın millət vəkili ARDNŞ-in birinci vitse-prezidenti **İlham Əliyevin** də iştirak etdiyi görüş olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Çankaya"** köşkündəki iqamətgahında Türkiyənin **"Nərgiz-TV"** televiziyasının Ankaradakı təmsilçisi Murat Yetrinə müsahibə vermişdir.

**24 may**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ulu öndər Mustafa Kemal Atatürkün Ankarada **"Çankaya"** köşkündəki ev-muzeyində olmuşdur.

- Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyin Kıvrıkoğlu **"Çankaya"** köşkünə gələrək Azərbaycan Prezidenti **Heydər Əliyevi** ziyarət etmişdir.

**25 may**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** qısamüddətli istirahət üçün Ankaradan məşhur kurort şəhəri Antalyaya yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidentini Antalyanın valisi Hüsnü Tulu, bələdiyyə rəisi Bekir Kumbul və digər rəsmi şəxslər hörmət və ehtiramla qarşılamışlar.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** hava limanındakı ali qonaqlar otağında televiziya və mətbuat işçiləri qarşısında bəyanatla çıxış etmişdir.











- Sonra Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** Antalya valisi Hüsnü Tulu ilə görüşü olmuşdur.

**26 may**
- Türkiyə Prezidenti **Süleyman Demirel** və xanımı **Nazmiye Demirel** Antalyada Azərbaycan Prezidenti **Heydər Əliyevi** ziyarət etmişlər.

- Ziyarət əsnasında ölkə prezidentləri arasında görüş olmuşdur. Görüşdə Antalyanın valisi Hüsnü Tulu, Azərbaycanın millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti **İlham Əliyev**, respublikamızın Türkiyədəki səfiri Məmməd Əliyev və digər rəsmi şəxslər iştirak etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Antalyada onun üçün ayrılmış iqamətgahda Türkiyənin **"Ceylan-TV"** televiziyasının müxbiri xanım Nagihan Akbuluta müsahibə vermişdir.

**28 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Samanyolu"** televiziyasının müxbirinə müsahibə vermişdir. Azərbaycan Prezidenti müsahibədə Azərbaycandakı türk təhsil müəssisələrinin fəaliyyətini səciyyələndirərək demişdir:

*"Azərbaycanda türk məktəblərinin açılmasını mən hələ Naxçıvanda olarkən hələ 1992-ci ilin əvvəllərində hiss etdim. Sizin adamlar Naxçıvana gəldilər, mənimlə görüşdülər. Naxçıvanda türk məktəbinin açılmasını rica etdilər, mən də bunu dəstəklədim və türk məktəbi açıldı.*

*1993-cü ildə mən Bakıya gələndən sonra Azərbaycanda türk məktəblərin açılması haqqında mənə geniş məlumat verdilər. Mən bunu həmişə dəstəkləmişəm, buna həmişə yardım etmişəm, bu gün də edirəm, sabah da edəcəyəm.*

*Çünki bu məktəblər Azərbaycanın təhsil sistemində bir yenilik yaradır. Azərbaycanın təhsil sistemi keçmiş Sovetlər Birliyinin təhsil sistemidir. İndi biz o təhsil sistemində - həm orta məktəb təhsilində, həm ali universitet təhsilində bir çox islahatlar həyata keçiririk və bundan sonra da keçirəcəyik. Ona görə də Türkiyənin məktəblərinin, kolleclərinin təcrübəsi Azərbaycan üçün lazımdır. Bu, birincisi.*

*İkincisi də, sizin bu məktəblərdə Azərbaycanın uşaqları, gəncləri təhsil alırlar, oxuyurlar. Bildiyimə görə, onların təhsil alması üçün çox gözəl şərait yaratmısınız. Onlara yaxşı təhsil verirsiniz. Bunun da nəticəsində onlar dünya olimpiadalarında medallar alırlar, gözəl yerlər tuturlar. Mənə məlumat verdilər ki, sizin məktəbləri bitirənlər 99 faizi Azərbaycanın universitetlərinə qəbul olunurlar. Bu da böyük işdir, çox böyük işdir. Ona görə də mən sizə təşəkkürümü bildirirəm. Güman edirəm ki, siz Azərbaycanda bu işləri davam etdirəcəksiniz."*



**1 iyun -** Türkiyənin "Enka Holdinq" şirkətlər qrupunun prezidenti Şarik Tara Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevi** Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

**2 iyun -** Türkiyənin Energetika və Təbii Kaynaqlar Naziri Cumhur Ersümer Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevi** Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

**4 iyun -** Türkiyənin tanınmış dövlət xadimi, keçmiş Xarici İşlər Naziri Hikmet Çetin Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevi** Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

**8 iyun -** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevi** ziyarət etmək üçün vertolyotla Antalyaya gəlmişdir.

- İki qardaş ölkə prezidentləri arasında görüş olmuşdur. Azərbaycan Prezidenti **Heydər Əliyev** Türkiyə Prezidenti **Süleyman Demirelə** öz minnətdarlığını bildirmişdir. Prezidentlər dost və qardaş kimi görüşüb sağollaşmışlar.

- Həmin gün axşam Antalyada **Heydər Əliyevin** dincəldiyi **"Simena"** köşkündə onun şərəfinə böyük atəşfəşanlıq keçirilmişdir.

**9 iyun**
- Dövlət başçısı **Heydər Əliyev** Türkiyənin **"Ceylan-TV"** televiziyası müxbirinin suallarına cavab vermişdir.

- Elə həmin gün xüsusi vertolyotla Antalya hava limanına gələn Azərbaycan Prezidenti **Heydər Əliyev** təntənəli yolasalma mərasimindən sonra sağlam və gümrah halda doğma vətənə qayıtmışdır.

**10 sentyabr -** "Baltik-Qara Dəniz Əməkdaşlığı: XXI əsrdə ayırıcı xətlər olmayan inteqrasiyalı Avropaya doğru" forumu çərçivəsində keçirilən sammitdə





iştirak etmək üçün Yaltaya gəlmiş Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** Türkiyənin Xarici İşlər Naziri İsmail Cem ilə təkbətək görüşü olmuşdur.

**31 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** dəvəti ilə qardaş ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- İstanbul şəhərinin Atatürk adına hava limanında rəsmi qarşılama mərasimindən sonra Azərbaycan Prezidenti hava limanının şərəf salonunda jurnalistlərin suallarına cavab vermişdir.

- Daha sonra dövlət başçısı **Heydər Əliyev** onun üçün ayrılmış iqamətgaha gəlmişdir.











**1 noyabr**

- Türkiyəyə qısamüddətli işgüzar səfərə gəlmiş Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** Türkiyə Cümhuriyyəti Prezidentinin rəsmi iqamətgahı **"Çankaya"** köşkündə qardaş ölkənin dövlət başçısı **Süleyman Demirel** ilə təkbətək görüşü olmuşdur.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbulun Atatürk adına hava limanının xüsusi terminalından Türkiyənin zəlzələdən zərər çəkmiş Kocaeli bölgəsinə yola düşmüşdür.

- Kocaelinin **"Kösəköy"** hava limanında Azərbaycan Prezidentini Türkiyə Prezidenti **Süleyman Demirel** dostcasına, qardaşcasına qarşılamışdır.

- Hava limanının şərəf salonunda toplaşmış yerli və xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələrini salamladıqdan sonra hər iki Prezident jurnalistlər qarşısında bəyanatla çıxış etmişlər.

- Sonra Azərbaycanın və Türkiyənin dövlət başçıları Saraybağça qəsəbəsində yerləşən, yardımların mərkəzləşdiyi "İnterteks" Beynəlxalq Mərkəzinə gəlmişlər. Dövlət başçıları burada Azərbaycan Respublikası Baş Nazirinin müavini Abid Şərifovun rəhbərliyi ilə gətirilmiş 100 min dollar dəyərindəki yardımla tanış olmuşlar.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Süleyman Demirel** buraya toplaşanlar qarşısında çıxış etmişlər.

- Daha sonra prezidentlər **Heydər Əliyev** və **Süleyman Demirel** Saraybağçada Türkiyə Silahlı Quvvələrinin Maddi-Texniki Yardım Mərkəzi tərəfindən inşa edilmiş **"Mehmetcik"** çadır şəhərciyinə gəlmişlər.

- Dövlət başçıları buraya toplaşan sakinləri salamladıqdan və onlarla səmimi görüşdən sonra çıxış etmişlər. Azərbaycan Prezidenti **Heydər Əliyev** bu ağır gündə qardaş Azərbaycan xalqının türkiyəli soydaşları ilə həmrəyliyini bu sözlərlə ifadə etmişdir:

*"Mən bu gün buraya gələrək Türkiyə-Azərbaycan dostluğunu, türk xalqı ilə Azərbaycan xalqı arasında olan əbədi, sarsılmaz dostluğu bir daha, bir daha dünyaya nümaiş etdirmək məqsədi daşıyıram."*

- Elə həmin gün Azərbaycan Prezidenti Türkiyə Prezidenti ilə birlikdə İzmitdə **"Galatasaray"** idman klubunun rəhbəri Faruk Süren və iş adamı Efen Tümen tərəfindən inşa edilmiş yığma evlərin təhvil verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmiş və nitq söyləmişlər.

- Sonra Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Süleyman Demirel** yeni dərs ilinin başlanmasına həsr edilmiş təntənəli mərasimdə iştirak etmək üçün **Kocaeli Universitetinə** gəlmişlər. Universitetin professor-müəllim heyəti və tələbələri tərəfindən hərarətli alqışlarla qarşılanan Azərbaycan Prezidenti mərasimdə nitq söyləmişdir:

*"Əziz dostlar, bu gün Türkiyə ilə Azərbaycan arasında böyük tarixə malik olan dostluq, qardaşlıq salnaməsinə qızıl hərflərlə daha bir yeni səhifə yazıldı. Bu gün biz bütün dünyaya bir daha nümayiş etdirdik ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bütün dünya xalqları içərisində dostluq və qardaşlıq üçün örnəkdir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, bu dostluğu özümüz üçün böyük dayaq kimi qəbul edirik. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bu dostluğa, qardaşlığa əbədiyyətə qədər sadiq olacaqdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

- Türkiyə Prezidenti **Süleyman Demirelin** cavab nitqindən sonra Türkiyə dövlətinin başçısına xatirə hədiyyəsi təqdim olunmuşdur.

- Elə həmin gün Azərbaycan Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Süleyman Demirel** İzmitin **"Cengiz Topel"** hava limanından dost ölkənin dövlət başçısının şəxsi təyyarəsi ilə Ankaraya yola düşmüşlər. Ankarada hər iki Prezident hava limanından xüsusi vertolyotla **"Çankaya"** köşkünə gəlmişlər.

- Ankarada, Türkiyə Prezidentinin rəsmi iqamətgahı **"Çankaya"** köşkünün böyük salonunda Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə** Beynəlxalq Atatürk Sülh Mükafatının təqdim olunmasına həsr edilmiş təntənəli mərasim keçirilmişdir.

Mərasimdə Atatürk Kültür, Dil və Tarix Ali Qurumunun rəhbəri professor Reşat Genç Atatürk Beynəlxalq Sülh Mükafatı haqqında və Azərbaycan Republikası Prezidentinin tərcümeyi-halı, mənalı həyat yolu haqqında məlumat vermişdir.

- Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** mərasimdə nitq söyləmişdir:

*"Hörmətli **Heydər Əliyev**, şübhəsiz ki, XX əsrdə iz qoymuş şəxsiyyətlər arasında haqlı yerini uzun illər bundan öncə almış dövlət və siyasət adamıdır. Əsasən XX əsrin iki super gücündən biri olan Sovetlər*



*Birliyinin tarixini yazarkən hörmətli **Heydər Əliyevdən** bəhs etmədən ötüşmək mümkün deyildir. Əziz qardaşım, hörmətli **Heydər Əliyev** Sovetlər Birliyinin içəridən dağılması ilə nəticələnəcək tarixi prosesin gedişatını böyük uzaqgörənliklə təsbit etmiş olan az sayda insanlardan öndə gedənidir.*

*Hörmətli **Heydər Əliyev** Sovetlər Birliyi dövründə Azərbaycanın çiçəklənən respublikaya çevrilməsi üçün uzun illər boyunca böyük fədakarlıqla çalışmış, ölkəsinin haqq və hüququnu qorumağa səylər göstərmişdir.*

*Möhtərəm **Əliyev** 1990-cı ilin yanvarında sovet tankları Bakıya yeriyəndə etirazını ilk bildirən insanların biri olmuş və Moskvanı tərk edərək ölkəsinə dönmüşdür. Ölkəsi yenidən müstəqillik qazandıqdan sonra hörmətli **Əliyev** Azərbaycanın müqəddaratında təsirli rol oynayan şəxsiyyətlərdən biri olmaq imkanı əldə etmişdir. Həqiqətən də, ölkəsinin son dərəcə çətin günlərində qarşısına çıxan tarixi məsuliyyətin üzərinə qoyduğu vəzifəni layaqətlə yerinə yetirmiş və Azərbaycanın sabitliyə qovuşmasını təmin etmişdir."*

***(Türkiyə Cumhuriyyəti Prezidenti Süleyman Demirelin nitqindən)***

- Sonra Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** mərasimdə geniş nitqlə çıxış etmişdir:

*"**Mustafa Kemal Atatürkün** ən böyük xidməti Türkiyə Cümhuriyyətini yaratmasıdır. Biz bəlkə bu gün bunu adi hadisə kimi qəbul edə bilərik, ancaq heç də yox. Bu, heç də adi hadisə deyildi. Türkiyənin Osmanlı imperatorluğunun 700 illik fəaliyyəti şəraitində, onun təsiri altında yaşamış insanlarını cümhuriyyət qurmağa sövq etmək, cəlb etmək və bu cümhuriyyəti qurmaq, yaratmaq və yaşatmaq **Mustafa Kemal Atatürkün** çox böyük xidmətidir, demək olar ki, tarixi xidmətidir. Zaman, əsrlər keçəcək, türk xalqı, türkköklü, türkdilli xalqlar, türk dünyası bunu heç vaxt unutmayacaqdır."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

- Prezident **Süleyman Demirel** mərasimə toplaşanların gurultulu alqışları altında Beynəlxalq Atatürk Sülh Mükafatını, onun nişanını və diplomunu Azərbaycan Prezidenti **Heydər Əliyevə** təqdim etmişdir.

Mərasimdə Xarici İşlər Naziri **Vilayət Quliyev**, Azərbaycan ARDNŞ-ın birinci vitse-prezidenti, millət vəkili **İlham Əliyev**, Prezidentin İcra Aparatının şöbə müdiri Əli Həsənov, Türkiyənin Bakıdakı səfiri Kadri Ecvet Tezcan, Azərbaycan səfiri Məmməd Əliyev və digər rəsmi şəxslər iştirak etmişlər.





Mükafatın təqdim edilməsi mərasimindən sonra Türkiyə Prezidenti **Süleyman Demirel** Azərbaycan Prezidenti **Heydər Əliyevin** şərəfinə ziyafət vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Çankaya"** köşkünün "Mavi salonu"nda Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demireli** anadan olmasının 75 illiyi münasibəti ilə təbrik etmişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** cavab çıxışından sonra Azərbaycan Prezidenti ona xatirə hədiyyələri təqdim etmiş və xatirə şəkli çəkdirmişlər.

- Həmin gün axşam Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** və Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ailə üzvləri ilə birlikdə Türkiyə Prezidentinin anadan olmasının 75 illiyi münasibətilə keçirilən ziyafətdə iştirak etmişlər.

**2 noyabr**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyədə qısamüddətli işgüzar səfərdə olarkən böyük öndər **Mustafa Kemal Atatürkün** məqbərə kompleksini - Anıtqəbiri ziyarət etmişdir.



Prezident məqbərə önünə əklil qoymuş, Türkiyə Cümhuriyyətinin banisi **Mustafa Kemal Atatürkün** xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.

Prezident məqbərə kompleksinin fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır:

*"**Mustafa Kemal Atatürk** bəşər tarixinin XX əsrin ən böyük şəxsiyyətlərindəndir: İstiqlal savaşına başçılıq edərək qalib gəlib Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmış, Türkiyə **Atatürk** ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı **Atatürkün** şəxsiyyətinə, onun ideyalarına, onun qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yaşayır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir. Bu gün mən böyük öndər **Mustafa Kemal Atatürkün** qəbrini böyük qürur hissi ilə ziyarət edirəm. Mənə böyük **Ata-***

*__türkün__ adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün böyük şərəfdir. Mən bundan fəxr edirəm. __Atatürkün__ şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq olacağam. Əminəm ki, __Atatürk Türkiyəsi__ əbədiyyətə qədər uğurla yaşayacaqdır.*

*Bir daha Allahdan rəhmət diləyirəm".*

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

- Sonra Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər









**Mustafa Kemal Atatürkün** məzarını ziyarət etmiş, onun müzeyi ilə yaxından tanış olmuş, burada saxlanılan tarixi eksponatlara baxmış, ilk xarici ölkənin dövlət başçısı kimi, **Atatürkün** məzarının yanına Azərbaycandan gətirilmiş torpaq qoymuşdur.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyəyə qısamüddətli işgüzar səfəri zamanı **"Çankaya"** köşkündə onun üçün ayrılmış iqamətgahda Türkiyənin Baş Naziri **Bülent Ecevitlə** təkbətək görüş keçirmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Atatürk Beynəlxalq Sülh Mükafatı Komissiyasının sədri, Atatürk Kültür, Dil və Tarix Ali Qurumunun rəhbəri professor Reşat Genç ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və oğlu **İlham Əliyev** Ankarada Gülhanə Hərbi Tibb Akademiyasını ziyarət etmiş, Akademiyanın xüsusi cərrahiyyə şöbəsinin ayrı-ayrı palatalarında müalicə olunan zabit və əsgərlərə baş çəkərək onların hər birinə hədiyyə və pul mükafatı təqdim etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti mətbuat nümayəndələri qarşısında



bəyanatla çıxış etdikdən sonra Akademiyanın rəhbər heyəti ilə görüşmüşdür.

- Türkiyə Prezidenti **Süleyman Demirel** **"Çankaya"** köşkündə **Heydər Əliyevə** onun dost, qardaş ölkəyə səfərini əks etdirən fotoalbom təqdim etmişdir.

- Həmin gün axşam hər iki Prezident **"Çankaya"** köşkündən Ankaranın Esenboğa hava limanına gəlmişlər.

Dövlət başçıları hava limanının şərəf salonunda mətbuat nümayəndələri qarşısında bəyanatla çıxış etmişlər.

- Azərbaycan Prezidenti onun vətənə yola salınması mərasimində iştirak edən rəsmi şəxslər və təyyarənin pilləkəni yanında Türkiyə Prezidenti **Süleyman Demirel** ilə dostcasına görüşüb ayrıldıqdan sonra Bakıya qayıtmışdır.

- Vətənə qayıtmış dövlət başçısı Binə hava limanında onu qarşılamağa gəlmiş jurnalistlərin suallarına cavab vermişdir.



**17 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə iştirak etmək üçün Türkiyənin İstanbul şəhərinə yola düşmüşdür.

- İstanbul şəhərinin **Atatürk** hava limanında Türkiyənin dövlət və hökumət nümayəndələri tərəfindən qarşılanan **Azərbaycan Prezidenti** hava limanından onun üçün ayrılmış rəsmi iqamətgaha yola düşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** səfər zamanı İstanbulda, Türkiyə Xarici İşlər Nazirliyinin bölgə nümayəndəliyinin binasında Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 5-ci Zirvə görüşündə iştirak etmiş və geniş nitq söyləmişdir.

**18 noyabr -** İqtisadiyyat və İdarəetmə fakültəsi dekanlığının təklifinə əsasən, **Süleyman Demirel adına Universitetin** Elmi Şurası Universitetin **fəxri doktor** adının verilməsi barədə əsasnaməyə uyğun olaraq, 1923-cü ildə Naxçıvanda anadan olan və ömrü boyu dövlətin müxtəlif vəzifələrində çalışan, təcrübə qazanan, *Azərbaycan və Türkiyə respublikaları arasında dostluq və əməkdaşlığın qurulmasına töhfələr verən, Qafqazda və bütün dünyada sülhün bərqərar edilməsi istiqamətində fəaliyyət göstərən* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə** beynəlxalq münasibətlər sahəsində **fəxri doktor** adının verilməsi barədə yekdilliklə **115/2** saylı qərarı qəbul etmişdir.










**18 noyabr**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbulun məşhur **"Çırağan"** sarayındakı konferans mərkəzində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti Zirvə görüşünün təntənəli açılış mərasimində iştirak və nitqlə çıxış etmişdir.

- İstanbulun **"Çırağan"** sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neftinin bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul Bəyannaməsi"nin, Transxəzər qaz kəməri barəsində Azərbaycan Respublikası, Türkiyə








Cümhuriyyəti, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası Bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Cümhuriyyətinə və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında "Qarşılıqlı Anlaşma Memorandumu"nun imzalanma mərasimi olmuşdur.

İmzalanma mərasimində Azərbaycan Prezidenti nitq söyləmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti cənab **Süleyman Demirelin** zirvə görüşü iştirakçılarının şərəfinə verdiyi ziyafətdə iştirak etmişdir.

**19 noyabr -** ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** ilə görüşmüşdür.

**27 noyabr**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Respublikasının Prezidenti **Süleyman Demirelin** dəvəti ilə qardaş ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

- Ali qonağı Ankaranın Esenboğa hava limanında təyyarənin pilləkəni önündə Türkiyə Prezidenti **Süleyman Demirel**, Şimali Kipr-Türk Cümhuriyyətinin Prezidenti **Rauf Denktaş** və digər rəsmi şəxslər qarşılamışlar.

Rəsmi qarşılama mərasimindən sonra dövlət başçıları xüsusi vertolyotla hava limanından Türkiyə Prezidentinin iqamətgahına - **"Çankaya"** köşkünə gəlmişlər.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Çankaya"** köşkündə Türkiyə dövlətinin başçısı **Süleyman Demirel** ilə görüşmüşdür.

- Elə həmin gün Azərbaycan Prezidenti **"Çankaya"** köşkünün konfrans salonunda Türkiyə Eroziyaya Qarşı Mübarizə, Yaşıllaşdırma və Ətraf Mühitin Mühafizəsi Vəqfinin (TEMA) təşəbbüsü ilə keçirilən "Eroziyaya Qarşı Mübarizə Həftəsi"nin açılışı mərasimində iştirak və çıxış etmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** öz iqamətgahında - "Çamlı" köşkdə Bilkend Universite.tinin banisi və fəxri rektoru, dünya şöhrətli alim, prezidentlər



**Heydər Əliyevin** və **Süleyman Demirelin** fəxri sədri olduqları Azərbaycan-Türkiyə Dostluq və əməkdaşlıq Fondunun başçısı, professor **İhsan Doğramacını** qəbul etmişdir.

**28 noyabr**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Süleyman Demirel** qardaş ölkənin dövlət başçısının şəxsi təyyarəsi ilə qədim İsparta şəhərinə gəlmişlər.

- Elə həmin gün dövlət başçıları İspartanın mərkəzində yerləşən Şövkət Demirel adına Kardioloji mərkəzin açılış mərasimində iştirak etmişlər.

Mərasimdə Azərbaycan Prezidenti **Heydər Əliyev** nitq söyləmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Süleyman Demirel** İspartada **"Ülkü"** orta məktəbinin təntənəli açılışı mərasimində iştirak etmişlər.

- Azərbaycanın və Türkiyənin dövlət başçıları İspartada **Süleyman Demirel** adına **"Mədəniyyət və Konqres Mərkəzi"**nin açılışı münasibətilə keçirilən təntənəli mərasimdə də iştirak etmişlər.

- Sonra Prezident **Heydər Əliyev** və Prezident **Süleyman Demirel** **"Mədəniyyət və Konqres Mərkəzi"**nin əzəmətli toplantı salonunda verilən nahar-da iştirak etmişlər.

- Azərbaycan Republikasının və Türkiyə Cümhuriyyətinin dövlət başçıları İspartada **Süleyman Demirel** adına Universitetə gələrək Universitetin araşdırma və tədqiqat xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İspartada **Süleyman Demirel** adına Universitetin mədəniyyət mərkəzində ona bu ali təhsil ocağının fəxri doktoru adının verilməsi münasibətilə keçirilmiş təntənəli mərasimdə iştirak etmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İsparta şəhərinin **Süleyman Demirel** adına hava limanından vətənə yola düşmüşdür.



2000

AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 2000







**9 yanvar**
- Azərbaycan Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirelin** dəvəti ilə qardaş ölkəyə qısamuddətli işgüzar səfərə yola düşmüşdür.

- Dövlət başçısı yola düşməzdən əvvəl Binə hava limanında səfərlə bağlı jurnalistlərin suallarına cavab vermişdir.

- Ankaranın Esenboğa hava limanında rəsmi qarşılama mərasimdən sonra prezident **Süleyman Demirel** və Prezident **Heydər Əliyev** hava limanının şərəf salonunda Azərbaycanın, Türkiyənin və Ankarada akkreditə olunmuş xarici ölkələrin jurnalistləri qarşısında qısa bəyanatla çıxış etmişlər.







*"Türkiyə birinci bizim dostumuzdur, bizim üçün ən yaxın ölkədir. Ermənistan-Azərbaycan münaqişəsində Türkiyə həmişə Azərbaycanın haqq işini dəstəkləyibdir, müdafiə edibdir. Bütün beynəlxalq təşkilatlarda, hər yerdə Türkiyə hökuməti, Türkiyənin cümhur başqanı həmişə Ermənistanı Azərbaycana təcavüz etmiş bir dövlət kimi qiymətləndiribdir, bildiribdir və eyni zamanda Türkiyə ATƏT-in Minsk qrupunun üzvüdür.*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatından)***

- Azərbaycan Respublikasının Prezidenti **"Çankaya"** köşkündə qardaş ölkənin dövlət başçısı **Süleyman Demirel** ilə görüşmüşdür.

- Elə həmin gün axşam Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** şərəfinə ziyafət vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Çankaya"** köşkündə Türkiyə Cümhuriyyətinin Baş Naziri **Bülent Ecevitlə** görüşmüşdür.

**10 yanvar**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Çankaya"** köşkündə



Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyin Kıvrıkoğlu ilə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Çankaya"** köşkündə Türkiyə Cümhuriyyətinin Baş Nazirinin müavini Devlet Bahçeli ilə görüşmüşdür.





- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** Türkiyəyə qısamüddətli işgüzar səfəri zamanı Ankarada Gülhanə Tibb Akademiyasında 1999-cu ilin aprelində ABŞ-ın Klivlend şəhərindəki klinikada ürəyində aparılmış cərrahiyyə əməliyyatından sonrakı reabilitasiya dövrünün başa çatması ilə əlaqədar plana uyğun sürətdə müayinədən keçmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinə qısamüddətli işgüzar səfərini başa çatdırarq vətənə yola düşmək üçün Ankaranın Esenboğa hava limanına gəlmişdir.

- Ali qonağı yola salmaq üçün hava limanına gəlmiş Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** və Azərbaycan Prezidenti şərəf salonunda Azərbaycanın, Türkiyənin və xarici ölkələrin Ankarada akkreditə olunmuş jurnalistləri qarşısında bəyanatla çıxış etmişlər.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** həmin axşam Bakıya qayıtmışdır.

**29 yanvar -** İsveçrənin Davos şəhərində keçirilən növbəti Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün bu ölkəyə gəlmiş Azərbaycan Respublikasının




















Prezidenti **Heydər Əliyev** Davosda Türkiyə Cümhuriyyətinin Baş Naziri **Bülent Ecevit** və Türkiyənin Xarici İşlər Naziri İsmail Cem ilə görüşmüşdür.

**27 fevral -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Amerika Birləşmiş Ştatlarına işguzar səfəri zamanı Vaşinqtonda öz iqamətgahında Türkiyənin bu ölkədəki səfiri Baki İlkinlə görüşmüşdür.

**9 aprel -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** cənablarının iştirakı ilə Bakıda səfərdə olan Türkiyə Cümhuriyyətinin Prezidenti cənab **Süleyman Demirelin** Türkiyə səfirliyi üçün ayrılan sahəyə baxışı keçirilmişlər.

**11 aprel -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "Samanyolu"** telekanalının Qafqaz və Orta Asiya üzrə səlahiyyətli nümayəndəsi Naci Tosun və bu TV-nin Azərbaycan təmsilçisi Tahir Karanfil, **"Çağ" Öyrətim İşlətmələri MMM**-in prezidenti Adem Öcal və **"Zaman-Azərbaycan"** qəzetinin baş redaktoru Ersin Dəmircidən ibarət nümayəndə heyətini qəbul etmişdir.

**"Çağ" Öyrətim İşlətmələri MMM**-in prezidenti Adem Öcal rəhbərlik etdiyi Azərbaycan-Türkiyə özəl liseylərinin bu ölkədə gördüyü işlər haqda **Heydər Əliyevə** məlumat verdikdən sonra Qubadakı özəl liseyin yeni binasının tikintisinin başa çatdığını bildirmişdir. **"Çağ" MMM**-in prezidenti Azərbaycanda fəaliyyət göstərdikləri 7 il ərzində qazandıqları nailiyyətlər və builki respublika fənn olimpiadalarında 27 birinci yerdən 18-ni bu liseylərin şagirdlərinin tutması haqda ölkə rəhbərinə geniş məlumat vermiş və **Heydər Əliyev** cənablarına özəl türk









liseylərinin **"Fəxri Baş Müəllimi"** diplomunu təqdim etmişdir. Bakıda fəaliyyət göstərən özəl türk liseylərindən birinə "Dədə Qorqud" adının verilməsi təklifini razılıqla qarşılayan Azərbaycan Prezidenti **"Çağ" MMM**-in Azərbaycanda açdığı təhsil ocaqlarının fəaliyyətindən məmnun olduğunu bildirmişdir.

**5 may -** Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Demirel** Prezident vəzifəsinə seçildiyi yeddi illik müddətin 2000-ci ilin mayın 16-da başa çatması ilə





əlaqədar Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə** səmərəli və məhsuldar əməkdaşlıq üçün təşəkkür məktubu göndərmişdir:

***Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri Heydər Əliyevə***

***Hörmətli Prezident!***
***Əziz qardaşım!***

*Türkiyə Böyük Millət Məclisi tərəfindən 1993-cü il mayın 16-da Türkiyənin prezidenti vəzifəsinə seçildiyim yeddi illik müddət 2000-ci il mayın 16-da bitir.*

*Siz əziz qardaşımla qurduğumuz yaxın dostluq və qardaşlıq əlaqələrini baş nazir və prezident sifəti ilə gözəl ölkəniz qardaş Azərbaycana səfərlərimdən aldığım unudulmaz hərarətli xatirələri ən xoş təəssüratla yad edəcəyəm. Biz tarixin yeni dönəmində birlikdə fəaliyyət göstərdik. SSRİ-nin öz-özünə dağıldığı bir zamanda Adriatik dənizindən Çin səddinə qədər uzanan geniş bir coğrafi ərazidə böyük Türk Dünyası möhtəşəm bir varlıq kimi yaranmış, Avrasiya məkanı yeni bir siyasi gerçəkliyə çevrilmiş, Avropa ideologiyaların təsirindən qurtularaq, vüsətli bir iqtisadi və siyasi inteqrasiya ilə inkişafa başlamış, demokratiya, insan hüquqlarına hörmət, hüququn aliliyi və sərbəst bazar iqtisadiyyatı beynəlxalq birliyin ortaq dəyərlərinə çevrilmiş, Avrasiya yeni bir siyasi gerçəklik kimi meydana çıxmış, Avropa və Asiya ipək yolu boyunca yenidən bir-biri ilə əlaqələri möhkəmləndirməyə imkan tapmış, Balkanlarda və Yaxın Şərqdə sülhün bərqərar olacağına ümidlər daha da artmış, iqtisadiyyatda qloballaşma, hüquqda beynəlxalq normalara uyğunlaşma dünyanın simasını hər cəhətdən əsaslı şəkildə dəyişdirməyə başlamış, dünya problemlərinin həlli üçün beynəlxalq səylərə yollar tapılmasının vacibliyi dərk edilməyə başlanmışdır. Tarixin bu dönəmində əməkdaşlığımızın bölgəmizdə və bütün dünyada sabitlik və firavanlıq yaradılmasına kömək edəcəyinə inanıram.*

***Əziz qardaşım!***

*Qardaş Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, iqtisadiyyatını inkişaf etdirmək istiqamətində göstərilən səylərin uğurlu olması və ölkənizin öz qüvvəsi ilə dünya sisteminə qoşulması yolunda qət edilən böyük məsafələr onun gələcək parlaq günlərinin müjdəçisidir. Biz qardaş xalqlarımızın rifahı və əmin-amanlığı üçün birlikdə böyük işlər gördük. Bizim birlikdə başladığımız Bakı-Ceyhan boru xətti layihəsi kimi böyük layihələrin həyata keçirilməsinin gedişini mən bundan sonra da həmişə izləyəcəyəm. Türkiyə ölkənizin xoş günlərində də, pis günlərində də hər zaman sizə arxa olacaq, öz dəstəyini sizdən əsirgəməyəcəkdir. Son on il ərzində biz türk dünyasının üzvləri kimi bir-birimizə yenidən qovuşduq və ortaq mədəniyyətimizin, incəsənətimizin sərvətlərinə*

*birlikdə sahib çıxdıq. Bu səylərimizi mütləq davam etdirməli, taleyimizin bağlarını daha da gücləndirməliyik. Qardaş ölkələrimiz arasında həmrəyliyin və əməkdaşlığın hər sahədə inkişaf etməsi naminə davam etdiriləcək əlaqələrimizin əbədiliyinə inanıram.*

*Fürsətdən istifadə edərək, Sizin simanızda bütün qardaş Azərbaycan xalqına səmimi məhəbbətimi və salamlarımı yetirmək istəyirəm. İstəyirəm biləsiniz ki, ölkənizin və xalqınızın rifahı və əmin-amanlığı naminə səylərimi bundan sonra da davam etdirəcək və hər zaman Sizinlə olacağam. Böyük Atatürkün ifadəsi ilə desək, Azərbaycanın sevinci daim bizim sevincimiz, dərdi daim bizim dərdimiz olacaqdır. Türkiyə Azərbaycanın dirçəlmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq səylərində hər zaman onu dəstəkləyəcəkdir.*

*Aramızdakı dostluq, qardaşlıq və yaxınlığı hər zaman goruyub saxlamaq əzmində olduğumu bildirərək, zati-aliləri əziz qardaşımın cansağlığı və səadəti, qardaş Azərbaycan xalqının əbədi rifahı və əmin-amanlığı üçün ən xoş arzularımı yetirirəm.*

***Süleyman DEMİREL***
***Türkiyə Cümhuriyyətinin Prezidenti***

**6 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin prezidenti seçilməsi ilə əlaqədar **Ahmet Necdet Sezerə** təbrik məktubu göndərmindir:

***Türkiyə Respublikasının Prezidenti Zati-Aliləri Cənab Ahmet Necdet Sezerə***

***Hörmətli cənab prezident!***

*Türkiyə Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.*

*Xalqlarımız arasında dərin tarixi kökləri olan dostluq və qardaşlıq münasibətlərinin Türkiyə-Azərbaycan əlaqələrinin sarsılmazlığının və dönməzliyinin mühüm şərti hesab edirəm. Əminəm ki, ölkələrimiz arasındakı strateji tərəfdağlıq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.*

*Sizə möhkəm can sağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.*

*Hörmətlə,*

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**13 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyəti Prezident kimi fəaliyyətinin başa çatması ilə əlaqədar cənab **Süleyman Demirelin** mayın 5-də ona göndərdiyi məktubuna cavab yazmışdır:





***Türkiyə Respublikasının Prezidenti Zati-Aliləri Cənab Süleyman Demirelə***

***Hörmətli cənab prezident!***

***Əziz dostum və qardaşım!***

*Mayın 5-də mənə yazdığınız məktuba görə Sizə təşəkkür edir, dərin minnətdarlığımı bildirirəm. Qafqaz regionunda çoxtərəfli əməkdaşlıq forumunun yaradılması ilə əlaqədar Sizin təşəbbüsünüzə dünyanın bir çox dövlət başçılarının müsbət cavab verməsi barədə məlumatlar məni məmnun etdi.*

*Hesab edirəm ki, belə bir forumun yaradılması Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olmasında mühüm rol oynaya bilər. Eyni zamanda Sizinlə tam razıyam ki, regionda real, səmərəli və uzun müddətli əməkdaşlığa nail olmaq üçün ilk növbədə cənub Qafqazdakı hərbi münaqişələri, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmaq, bölgədə daimi sülhü təmin etmək lazımdır.*

*Bu baxımdan Türkiyənin Cənub Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olması üçün göstərdiyi davamlı səyləri yüksək qiymətləndirirəm.*

*Dünyanın aparıcı dövlətlərinin və Türkiyənin Balkanlarda uğurlu əməkdaşlığına istinad edərək beynəlxalq ictimaiyyətin diqqətini Cənubi Qafqazın təhlükəsizlik problemlərinə yönəltmək istiqamətindəki səyləriniz xüsusilə təqdirə layiqdir.*

*Cənub Qafqazın üç ölkəsi ilə yanaşı, Türkiyənin Amerika Birləşmiş Ştatlarının, Fransanın, Rusiyanın, İngiltərənin, Almaniyanın, Avropa Birliyinin marağı olan digər dövlətlərinin, habelə nüfuzlu beynəlxalq maliyyə qurumlarının səylərini birləşdirərək regionun birlikdə dirçəlişinə və inkişafına nail olmaq, bərpa və quruculuq işləri aparmaq üçün dünya dövlətlərinin başçılarına və beynəlxalq təşkilatların rəhbərlərinə müraciətlərinizi alqışlayıram.*

*Bir daha bəyan edirəm ki, biz bölgəmizdə və beləliklə də, bütün Avroatlantika məkanında sülhün və əmin-amanlığın bərqərar olması üçün konstruktiv əməkdaşlığa hazırıq.*

*Əziz qardaşım **Süleymən Demirel**, bir neçə gündən sonra Siz Türkiyə Cumhuriyətinin prezidenti kimi fəaliyyətinizi başa vuracaqsınız.*

*Hər şeydən öncə, qardaş Türkiyə dövlətinə rəhbərlik etdiyiniz dövrdə Azərbaycana və Azərbaycan xalqına göstərdiyiniz daimi diqqətə və qayğıya görə xalqımız adından Sizə dərindən təşəkkür edirəm.*

*Türkiyə Cümhuriyətinin prezidenti vəzifəsini çiyninizdə daşıdığınız ötən illərdə Türkiyənin dünyada hörmətini qaldırmaq, türk xalqının rifahını yüksəltmək, Türkiyənin iqtisadiyyatını inkişaf etdirmək, həm də Türkiyəni daha əzəmətli, qüdrətli və çiçəklənən dövlət etmək üçün Siz çox böyük işlər görmüsünüz.*




*Siz bir daha nümayiş etdirdiniz ki, böyük* ***Mustafa Kemal Atatürkün*** *sədaqətli və etibarlı davamçısısınız.*

*Bütün başqa keyfiyyətlərinizlə yanaşı, Siz böyük dövlət xadimi, böyük siyasət adamı, həm də çox etibarlı, sədaqətli dostsunuz.*

*Müstəqilliyini əldə etdiyi vaxtdan bəri Siz daim Azərbaycan xalqının yanında olmusunuz, onun haqq işini yorulmadan müdafiə etmiş, xalqımıza qarşı törədilən ədalətsizliyə, soyqırımına, etnik təmizləməyə qarşı öz etiraz səsinizi ucaltmısınız.*

*Mən* ***Türkiyə – Azərbaycan*** *əlaqələrinin möhkəmləndirilməsi və inkişaf etdirilməsində Sizin xidmətlərinizi yüksək qiymətləndirirəm. Sizinlə birgə fəaliyyətimiz nəticəsində Azərbaycan ilə Türkiyə, iki qardaş ölkə, xalq və dövlət arasında qarşılıqlı və faydalı münasibətlər, hərtərəfli əməkdaşlıq ən yüksək səviyyəyə çatmış və Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı dönməz, əbədi və sarsılmaz olmuşdur.*

*Xalqımız sizin xidmətlərinizi heç vaxt unutmayacaqdır. Azərbaycana hər gəlişiniz zamanı Sizi öz oğlu kimi təkrar-təkrar bağrına basmağa şad olacaqdır. Mən isə şəxsən Sizinlə dostluğumuzdan qürur duyuram və bu dostluğa daimi sadiq qalacağam.*

*Əziz qardaşım, bir daha şəxsiyyətinizə dərin hörmət və ehtiramımı bildirir, Sizə və ailənizə cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq, firavan və xoşbəxt həyat arzulayıram.*

*Dərin hörmətlə,*

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**31 may -** Əskişəhərdəki **Osman Gazi Universitetinin** Elmi Şurası *Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, inkişafı, Türkiyə-Azərbaycan əlaqələrinin gücləndirilməsi sahəsində göstərdiyi böyük xidmətlərə görə* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə** beynəlxalq münasibətlər üzrə **fəxri doktor** adının verilməsi barədə yekdilliklə **B.30.2.OGÜ.0.00.00.00–12** saylı qərarı qəbul etmişdir.

**13 iyun -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Azərbaycan Yazıçılar Birliyi və Türkiyə Jurnalistlər və Yazarlar Vəqfinin **"Gülüstan"** sarayında birgə təşkil etdiyi "Dialoq - Avrasiya" jurnalının təqdimat mərasimində iştirak və geniş nitqlə çıxış etmişdir.







**11 iyul**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Binə hava limanında Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezeri** qarşılamışdır.

- İki ölkənin dövlət başçıları arasında təkbətək görüş olmuşdur.

- Prezident Sarayında hər iki ölkə prezidentinin başçılıq etdikləri nümayəndə heyətləri arasında Azərbaycan-Türkiyə danışıqları davam etdirilmişdir.

- Ali qonağı və onu müşayiət edən şəxsləri səmimiyyətlə salamlayan Prezident **Heydər Əliyev** demişdir:



*"Türkiyə Cümhuriyəti ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq və geniş əməkdaşlıq əlaqələri dərin köklərə malikdir. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr sürətlə inkişaf edibdir. Əlaqələrimiz o qədər yaxındır ki, biz bir-birimizi ayrı bir dövlət xalq kimi hiss etmirik. Belə bir zamanda, dönəmdə Türkiyənin yeni seçilmiş onuncu prezidenti hörmətli* ***Ahmet Necdet Sezerin*** *ilk xarici ölkəyə səfərinin Azərbaycana olması bizim üçün çox əzizdir, hörmətlidir və biz Azərbaycan xalqı bunu yüksək qiymətləndiririk."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışından)***

- Türkiyə Prezidenti **Ahmet Necdet Sezer** səmimi sözlərə və qonaqpərvərliyə görə **Heydər Əliyevə** minnətdarlığını bildirərək demişdir:

*"Bunu da bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan münasibətləri Türkiyədə dövlət başçısının dəyişməsi ilə hər hansı bir dəyişikliyə məruz qalacaq əlaqələr deyildir. Bunlar öz kökünü tarixdən, qardaşlıqdan, qan birliyindən alan əlaqələrdir. Buna görə də bu əlaqələr həmişə olduğu kimi, yenə də ahəngdar şəkildə davam edəcəkdir. Bunu bilməyinizi xahiş edirəm."*

***(Türkiyə Cümhuriyyətinin Prezidenti Ahmet Necdet Sezerin nitqindən)***

- Danışıqlardan sonra Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Prezidenti **Ahmet Necdet Sezer** birgə bəyanat imzalamışlar.

- Azərbaycan və Türkiyə prezidentlərinin yerli və xarici jurnalistlər üçün birgə mətbuat konfransı keçirilmişdir.









- Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** Azərbaycanın Respublikasının Baş Naziri **Artur Rasizadə** ilə görüşmüşdür.

- Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** Azərbaycan Konstitusiya Məhkəməsinin Sədri Xanlar Hacıyevlə görüşmüşdür.
- Elə həmin gün axşam **"Gülüstan"** sarayında Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** adından Türkiyə Prezidenti **Ahmet Necdet Sezerin** şərəfinə rəsmi qəbul təşkil edilmişdir. Qəbulda ölkə prezidentləri nitq söyləmişlər.

*"Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almış, türk xalqının köməyini hiss etmiş, türk xalqının Azərbaycan xalqı ilə həmrəyliyini daim duymuşdur. Bizim keçmişimiz, tarixi əlaqələrimiz çox zəngindir."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

**12 iyul**
- Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** onun üçün ayrılmış iqamətgahda Bakıda fəaliyyət göstərən türk iş adamları və türk icmasının nümayəndələri ilə görüşmüşdür.

- **Heydər Əliyev** və **Ahmet Necdet Sezer** Şəhidlər Xiyabanını ziyarət etmişlər.

- Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** Azərbaycan Milli Məclisində olmuş və deputatlar qarşısında çıxış etmişdir:

*"1918-ci ildə olduğu kimi, Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini elan edərkən onun yanında bu dəfə Türkiyə Cümhuriyyəti var idi. Müstəqil Azərbaycanı tanıyan ilk dövlət Türkiyə Cümhuriyyətidir. Türkiyənin Azərbaycanı tanımaq barəsindəki qərarı bütün dünya dövlətləri üçün nümunə olmuşdur. Azərbaycana siyasi, iqtisadi və digər sahələrdə ilk dəstəyi məhz Türkiyə vermişdir. Azərbaycana doğru uzanan ilk əl Türkiyənin əli olmuşdur. Dünya dövlətlərinin diqqətinin bu bölgəyə yönəldilməsində ilk addımı Türkiyə atmışdır. Bu yanaşma bundan sonra da eyni şəkildə davam edəcəkdir.*

*Azərbaycan hər dəfə əlini uzatdıqda bir qardaş əlinin onu tutacağını bilməlidir. Bu son dərəcə qüvvətli həmrəylik duyğusu iki xalq arasındakı dərin sevgi və yaxınlıqdan, iki ölkə arasındakı strateji əməkdaşlıq və ortaq mənafeyə əsaslanan köklü münasibətdən qaynaqlanır."*

***(Türkiyə Cümhuriyyətinin Prezidenti Ahmet Necdet Sezerin nitqindən)***

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Cümhuriyyətinin prezidenti **Ahmet Necdet Sezer** Bakı şəhər Nərimanov rayonu ərazisində məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşmüş, onlar qarşısında çıxış etmişlər. Görüşdən sonra dövlət başçıları Qızıl Ay Cəmiyyətinin gətirdiyi yardımı qaçqın və məcburi köçkünlərə paylamışlar.

- Azərbaycana rəsmi ziyarətini başa çatdıran Türkiyə Prezidenti vətənə yola düşmüşdür.

**7 sentyabr -** Sentyabrın 6-8-də Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Himayəsi altında keçirilmiş minilliyin zirvə görüşündə iştirak etmək məqsədilə Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə gəlmiş Azərbaycan Prezidenti **Heydər Əliyev** zirvə görüşündə iştirak edən Türkiyə Prezidenti **Ahmet Necdet Sezerlə** görüşmüşdür.

**8 sentyabr -** Karsdakı **Kafkas Universitetinin** Elmi Şurası 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, *uzun illər yüksək dövlət vəzifələrində çalışdığı zaman xalqının rifahı və ölkəsinin inkişafı naminə göstərdiyi səylərə, Sovetlər Birliyinin süqutundan sonra Azərbaycanda dövlət quruculuğu sahəsində əldə etdiyi nailiyyətlərə görə* Türkiyə-Azərbaycan əlaqələrinin könüllü memarı, müdrik dövlət xadimi **Heydər Əliyevə** ümumi türk tarixi üzrə fəxri doktor adının verilməsi barədə yekdilliklə **08/25** saylı qərarı qəbul etmişdir.

**19 oktyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Böyük Millət Məclisinin Sədri seçilməsi ilə əlaqədar cənab **Ömer İzgiyə** təbrik məktubu göndərmişdir:

***Türkiyə BMM-nin Sədri***
***Zati-Aliləri Cənab Ömer İzgiyə***

***Hörmətli Cənab Sədr.***

*Türkiyə BMM-nin sədri seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.*

*Azərbaycan ilə Türkiyə arasında dərin tarixi kökləri olan dostluq və qardaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.*

*Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.*

*Hörmətlə,*

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



01

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV - 2001







**16 yanvar -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident sarayında TÜRKSOY təşkilatının toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul etmişdir.

**24 yanvar -** Fransa Prezidenti Jak Şirakın dəvətilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Parisdə, onun üçün ayrılmış iqamətgahda, Türkiyəli jurnalistlərin - **«TRT»**, **«TGRT»** televiziyalarının və **«Sabah»** qəzeti müxbirlərinin suallarına cavab vermişdir.

**12 fevral -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident sarayında Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Kadri Ecvet Tezcanı qəbul etmişdir. Səfir Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi münasibətilə Azərbaycan Prezidentini təbrik etmişdir. Türkiyə Prezidenti və hökuməti adından uydurma "erməni soyqırımı" barəsindəki mövqeyinə görə dövlət başçısına təşəkkür etmişdir. Səfir həmçinin Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezerin** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** Türkiyəyə rəsmi səfəri ilə əlaqədar dəvətini çatdırmışdır.

**27 fevral - Ankara Universiteti** Elmi Şurası *beynəlxalq münasibətlərin təlatümlü və gərgin bir dönəmində, son dərəcə müdriklik tələb edən vəzifəsində türk dostu kimi hər zaman Türkiyəni dəstəkləyən və hər vasitə ilə Türkiyənin beynəlxalq aləmdəki önəmini ifadə edən, daim "Bir millət, iki dövlət" olaraq gördüyü Türkiyə və Azərbaycan arasındakı dostluğun inkişafı, iki ölkə arasındakı qardaşlığın strateji müttəfiqliyə çevrilməsi sahəsindəki xidmətlərinə, böyük dövlət adamı keyfiyyətinə və təcrübəsinə malik olduğuna, Azərbaycanda və dünyanın ən qarışıq bölgələrindən biri olan Qafqazda sabitliyin bərqərar olması nəticəsində ölkəsinin və bölgənin Avropa ilə inteqrasiyası sahəsində əldə etdiyi uğurlara görə* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevə** beynəlxalq münasibətlər sahəsində **fəxri doktor** adı verilməsi barədə **1742** saylı qərarı yekdilliklə qəbul etmişdir.

**9 mart -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Azərbaycanda **Atatürk Mərkəzinin** yaradılması ilə əlaqədar sərəncam vermişdir.

**12 mart**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Respublikasının Prezidenti **Ahmet Necdet Sezerin** dəvəti








ilə dost ölkəyə rəsmi səfərə yola düşmüşdür.

- Ankaranın Esenboğa hava limanında **Heydər Əliyevi** qardaş ölkənin Dövlət Naziri Abdülhaluk Çay, Türkiyə Böyük Millət Məclisinin deputatları, yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycanın Ankaradakı səfiri Məmməd Əliyev, Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Kadri Ecvet Tezcan və Azərbaycanın İstanbuldakı baş konsulu Xeyrəddin Qoca qarşılamışlar.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin banisi, Türk dünyasının görkəmli xadimi **Mustafa Kemal Atatürkün** məqbərəsini ziyarət etmiş, məzarın önünə əklil qoymuşdur.

- Sonra **"Çankaya"** köşkünə gələn Azərbaycan Respublikasının Prezidentini



Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** böyük hörmət və ehtiramla qarşılamışdır.

Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Prezidenti **Ahmet Necdet Sezerlə** təkbətək görüşdükdən sonra nümayəndə heyətlərinin görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə dair sənədlər imzalanmışdır.

- Həmin gün dövlət başçısı üçün ayrılmış iqamətgahda - "Çamlı" köşkdə Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ilə Türkiyənin Baş Naziri **Bülent Ecevit** arasında təkbətək görüş olmuşdur.

- Axşam isə **"Çankaya"** köşkündə Türkiyə Prezidenti **Ahmet Necdet Sezerin** adından Azərbaycan Prezidenti **Heydər Əliyevin** şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

**13 mart**

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Çamlı" köşkdə Türk Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyin Kıvrıkoğlu ilə görüşmüşdür.













- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** öz iqamətgahında Türkiyə Baş Nazirinin müavini, Dövlət Naziri, Milliyetçi Hareket Partiyasının sədri Devlet Bahçeli ilə görüşmüşdür.

- Həmin gün "Çamlı" köşkdə Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Baş Nazirinin müavini, ANAP sədri Mesut Yılmaz arasında görüş olmuşdur.

- Daha sonra Azərbaycan Respublikasının Prezidenti "Çamlı" köşkdə Türkiyə Xarici İşlər Naziri İsmail Cem ilə görüşmüşdür.

- Günortadan sonra ali qonaq TBMM-nə gəlmişdir. TBMM-nin sədri **Ömer İzgi** Azərbaycan rəhbərini parlament binası önündə qarşılamışdır. Sonra onların arasında təkbətək görüş olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** TBMM üzvləri qarşısında geniş nitq söyləmişdir:

*"Ötən illər bizim ölkələrimiz, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri artmaqda davam edir. Biz artıq Türkiyə-Azərbaycan strateji tərəfdaşlıq əlaqələri səviyyəsinə gəlib çatmışıq. Bu, dövlətlərarası əlaqələrdir. Ancaq xalqlarımız arasındakı əlaqələrin tarixi də çox böyükdür və onun qiyməti də bundan artıqdır. Çünki biz eyni köklərə mənsub olan xalqlarıq. Eyni milli-mənəvi dəyərlərə, eyni dilə, eyni dinə*









*mənsub olan xalqlarıq. Biz hamımız bir kökdən gəlirik. Ona görə də bizim hamımızın fikri, zəkası bu köklərlə başlıdır. Biz Azərbaycanda xalqlarımızın mənsub olduqları bu kökləri, milli-mənəvi dəyərləri yüksək qiymətləndiririk və bu dəyərlərə, bu tarixə daim sadiq olduğumuzu mən bir daha bəyan edirəm."*

***(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən)***

- Həmin gün Türkiyənin sabiq Prezidenti **Süleyman Demirel** "Çamlı" köşkə gələrək əziz dostu və qardaşı **Heydər Əliyevlə** görüşmüşdür.









**14 mart**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Ankarada "Etimesqut" hərbi təyyarə meydanına gəlmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** və Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** buradan xüsusi təyyarə ilə İstanbula yola düşmüşlər.

- İstanbuldakı **Atatürk** hava limanının hərbi terminalında prezidentləri şəhər valisi və digər rəsmi şəxslər qarşılamışlar.

- Sonra prezidentlər Türkiyə dövləti başçısının İstanbuldakı iqamətgahına gələrək burada birgə nahar etmişlər. Daha sonra hər iki ölkənin prezidentləri Türkiyə Cümhuriyyətinin Hərbi Akademiya Komandanlarının birgə konfransında iştirak etmiş və nitq söyləmişlər. Həmin gün axşam prezidentlər xüsusi təyyarə ilə Ankaraya qayıtmışlar.

**15 Mart**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** onun üçün ayrılmış iqamətgahda - "Çamlı" köşkdə, **"CNN-Türk"** televiziya kanalının baş direktoru Taha Akyola müsahibə vermişdir.

- Həmin gün dövlət başçımız "Çamlı" köşkdə **TRT** kanalı Xəbərlər Departamentinin müdiri Haluk Koça, **"NTV"** televiziya kanalının əməkdaşları İrfan Sapmaz və Didən Tuncaya, daha sonra **"SAMANYOLU"** kanalı müxbiri Melih Meriçə müsahibə vermişdir.

**16 mart**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezerlə** birlikdə ali qonağa **fəxri doktor** adı verilməsi münasibətilə təşkil edilən mərasimdə iştirak etmək məqsədilə Ankara Universitetinə gəlmişdir. Universitetin rektoru prof. Nüsrət Aras, Ankara valisi Yahya Gur və bu tanınmış təhsil ocağının professor-müəlljim heyəti tərəfindən hərarətlə qarşılanan prezidentlər Universitetin rektoru professor Nüsret Arasla görüşmüşlər.

- Sonra Azərbaycan Respublikası Prezidenti **Heydər Əliyevə Ankara Universitetinin fəxri doktoru** adı









verilməsi münasibətilə təntənəli mərasim keçirilmişdir. Mərasimdə Türkiyə Dövlət Naziri Abdülhaluk Çay, Təhsil Naziri Metin Bostançıoğlu, millət vəkilləri, universitetin professor-müəllim heyəti və KİV nümayəndələri iştirak etmişlər.

Universitet Elmi Şurasının iclası açıq elan edildikdən sonra Sosial Elmlər fakültəsi dekanı prof. Celal Göle Azərbaycan Respublikası Prezidenti **Heydər Əliyevə fəxri doktor** adı verilməsi barədə Elmi Şuranın qərarını oxumuşdur. Ankara Universitetinin rektoru prof. Nüsret Aras mantiya və diplomu prezidentə təqdim etmişdir.

Azərbaycan Prezidenti **Heydər Əliyev** mərasimdə geniş nitq söyləmişdir.

Prezident **Heydər Əliyev** azərbaycanlı rəssamın Bakının mənzərəsi təsvir olunmuş tablosunu Ankara Universitetinə bağışlamış və universitet binası önündə xatirə ağacı əkmişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** "Çamlı" köşkdə TBMM deputatları Ali Güner, Aslan Haydar və Osman Gezegerlə görüşmüşdür.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** həmin gün **"Sabah"** qəzetinin siyasi şərhçisi Füsun Mutluya müsahibə vermişdir.

**17 mart -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** qardaş ölkəyə











rəsmi səfərini başa vuraraq Ankara Esenboğa hava limanına gəlmişdir.

Ali qonaq Türkiyənin Dövlət Naziri Abdülhaluk Çay, Türkiyənin sabiq prezidenti **Süleyman Demirel**, millət vəkilləri və digər rəsmi şəxslər tərəfindən Vətənə yola salınmışdır.

**30 Mart -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyənin Dövlət Naziri Abdülhaluk Çayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**9 aprel -** Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Vaşinqtonda Türkiyənin ABŞ -daki səfiri Baki İlkin ilə görüşmüşdür.

**19 aprel -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ilə Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** arasında telefon danışığı olmuşdur.






**23 aprel**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** türkdilli dövlət başçılarının İstanbulda keçiriləcək VII Zirvə Görüşündə iştirak etmək üçün Türkiyə Cümhuriyyətinə işgüzar səfərə yola düşmüşdür.

- İstanbul **Atatürk** hava limanında dövlət başçısını Türkiyə Cümhuriyyətinin Dövlət Naziri Abdülhaluk Çay, Türkiyə hökumətinin yüksək vəzifəli digər rəsmi şəxsləri, Azərbaycanın Ankaradakı səfiri Məmməd Əliyev, Türkiyə Cümhuriyyətinin Bakıdakı səfiri Kadri Ecvet Tezcan, Azərbaycanın İstanbuldakı baş konsulu Xeyrəddin Qoca qarşılamışlar.

- Hava limanından Prezident onun üçün ayrılmış iqamətgaha yola düşmüşdür. Dövlətimizin başçısını burada Zirvə Görüşünün əlaqələndiricisi Umud Apaydın qarşılamışdır.

- Prezident onun üçün ayrılmış iqamətgahda Türkiyə Xarici İşlər Naziri İsmail Cemi qəbul etmişdir.

- Həmin gün axşam Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** İstanbulda onun üçün ayrılmış iqamətgahda - **"Çırağan"** sarayında Türkiyə Baş Nazirinin müavini Devlet Bahçeli ilə görüşmüşdür.

**24 aprel -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyə





Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezerlə** Çırağan sarayında görüşmüşdür.

**25 aprel -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** qardaş ölkəyə işgüzar səfərini başa vurduqdan sonra İstanbulun **Atatürk** hava limanından Vətənə qayıtmışdır.

**30 aprel -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyə Silahlı Qüvvələri baş qərargahının maddi-texniki təminat rəisi, korpus generalı Hurşit Tolonu qəbul etmişdir.

**1 may -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyənin Jandarm Qüvvələrinin baş komandanı, ordu generalı Aytaç Yalmanı qəbul etmişdir.

**8 may**
- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** 2001-ci il fevralın 28-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Cümhuriyyəti hökuməti arasında təmənnasız hərbi yardım və Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımı pro-



tokollarının təsdiqi haqqında sərəncam vermişdir.

- Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** 2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq protokollarının təsdiqi haqqında sərəncam vermişdir.



**13 may** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyə Xarici İşlər Nazirinin müavini, səfir Yiğit Alpoğlanı qəbul etmişdir.

**14 may** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyənin "Mərmərə Grupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**24 may** - Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Prezident Sarayında tanınmış alim Bilkənd Universitetinin idarə heyətinin sədri prof. **İhsan Doğramacını** və Bilkent Universitetinin rektoru Ali Doğramacını qəbul etmişdir.

**5 iyul**

- Azərbaycan Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyənin Dövlət Naziri Abdülhaluk Çayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

- Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** ilə Türkiyə Republikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hüseyin Kıvrıkoğlu arasında təkbətək görüş keçirilmişdir.





**25 avqust** - Prezident Sarayında Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hüseyin Kıvrıkoğluna Türkiyə ilə Azərbaycan arasında dostluq və strateji əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində böyük xidmətlərinə görə Azərbaycan Bayrağı ordeni təqdim olunması münasibətilə mərasim keçirilmişdir.

**30 avqust** - Ankarada yerləşən **"İpək Yolu"** Vəqfi idarə heyətinin yekdil rəyinə əsasən 2001-ci il 18 iyun tarixli fərmanı ilə *avqustun 1-dən etibarən Azərbaycanda latın əlifbasına keçilməsi, mətbuatın, təhsilin, rəsmi yazışmaların, çıxışların Azərbaycan dilində olması, Azərbaycanın latın əlifbası ilə dünyaya açılması, İpək Yolunda əlifba ilə dil birliyinin təmin edilməsi, türkdilli dövlətlər arasında "türkçə dil körpüsü"nün qurulması, "dildə, fikirdə, işdə birlik" şuarının həyata keçirilməsi, **"Bir millət, iki dövlət"** kəlamı ilə Türkiyə və Azərbaycanın sıx yaxınlaşdırılması, əlifba və dil birliyindən çıxış edərək, "türk birliyinin" təmin edilməsi sahəsində böyük fəaliyyətinə* görə Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev "2001-ci ilin Dövlət Adamı mükafatı"** verilməsi qərara alınmışdır.

**6 sentyabr** - Azərbaycan Respublikası Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyənin "Doğan Holdinq" qrupunun rəhbəri Aydın Doğan, onun müavini Tufan Kərbaş, qrupun idarə heyətinin üzvü Tayan Bikdel, **"Hürriyet"** qəzetinin baş redaktoru Ertoğrul Özkök, **"Milliyet"** qəzetinin baş redaktoru Mehmet Yılmaz, "Petrol Ofisi" anonim şirkətinin baş direktoru Ertoğrul Tuncer, "Türk Bank" idarə heyətinin üzvü Tayfur Bayaziti qəbul etmişdir.

**10 sentyabr** - Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezerə** 60 illik yubileyi ilə əlaqədar təbrik göndərmişdir.

**11 sentyabr** - 20 sentyabr "Neftçilər günü" münasibəti ilə "Petrol Holding"in idarə heyətinin sədri prof. dr. Güntekin Köksal Azərbaycan Prezidenti **Heydər Əliyev** təbrik məktubu göndərmişdir.

**16 sentyabr** - 1993-cü ildən fəaliyyət göstərən *Ankara İş Qadınları Cəmiyyəti iki qardaş ölkə arasında dildə də birliyi təmin etmək məqsədi ilə böyük bir addım ataraq 2001-ci ilin avqustun 1-dən etibarən latın əlifbasına keçilməsi ilə əlaqədar verdiyi tarixi qərara görə* Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevi "2001-ci ilin müdrik dövlət adamı"** seçmişdir.





**17 sentyabr**
- 20 sentyabr "Neftçilər günü" münasibəti ilə Türkiyənin Dövlət Naziri prof. dr. Abdülhaluk Çay Azərbaycan Prezidenti **Heydər Əliyev** təbrik məktubu göndərmişdir.

- 20 sentyabr "Neftçilər günü" münasibəti ilə "Türkiyə Petrolları" AŞ-nin prezidenti M. Ali Türkoğlu Azərbaycan Prezidenti **Heydər Əliyevə** təbrik məktubu göndərmişdir.

- Türkiyənin "Doğan Holdinq" qrupunun rəhbəri Aydın Doğan Prezident **Heydər Əliyevə** Azərbaycanda olduğu müddətdə onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyinə görə təşəkkür məktubu göndərmişdir.

**27 sentyabr -** Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** ad günü münasibətilə göndərdiyi təbrik məktubu və etdiyi telefon zənginə görə **Heydər Əliyevə** təşəkkür məktubu göndərmişdir.

**10 oktyabr -** Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin (TÜRKSAN) İdarə Heyəti Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyevin** 2001-ci il üçün **"Türk Dünyasının Xüsusi Mükafatı"**na layiq görülməsi barədə yekdilliklə qərar qəbul etmişdir.

**17 oktyabr -** Türkiyə Cümhuriyyətinin Baş Naziri **Bülent Ecevit**, Azərbaycanın milli müstəqilliyinin 10-cu ildönümü münasibətilə **Heydər Əliyevə** təbrik məktubu göndərmişdir.

**18 oktyabr -** Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezer** Azərbaycanın Milli Müstəqilliyinin 10-cu ildönümü münasibətilə **Heydər Əliyevə** təbrik məktubu göndərmişdir:

***Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri Cənab Heydər Əliyevə***

***Cənab Prezident!***
***Əziz dostum!***

*Qardaş Azərbaycanın milli müstəqilliyinin onuncu ildönümünü şəxsən öz adımdan və türk milləti adından ən səmimi arzularla təbrik edirəm.*

*Azərbaycan on illik qısa bir müddət ərzində bölgədə baş verən bütün çətinliklərə sinə gərərək, tarixi təcrübəsi, mükəmməl insan potensialı və yeritdiyi qəti siyasət sayəsində müstəqilliyini və respublika quruluşunu inkişaf etdirmiş, beynəlxalq ictimaiyyətin sayılan bir üzvü kimi layiq olduğu yeri tutmuşdur. Bu müvəffəqiyyətin qazanılmasında Uca Şəxsiyyətinizin dərin təcrübəsi və müdrik rəhbərliyi, şübhəsiz, böyük rol oynamışdır.*

*Azərbaycan müstəqilliyini yenidən əldə etdikdən sonra ölkələrimiz arasında qurulan əlaqələrin sürətlə inkişaf edərək, hər sahədə yüksək səviyyəyə çatması əməkdaşlığımızın və həmrəyliyimizin təminatıdır. Bütün dünyada nümunə olan əlaqələrimizin bu möhkəm təməllər əsasında dərinləşərək daha da inkişaf edəcəyinə əminəm.*

*Türk milləti Qafqazda azadlıq abidəsi kimi yüksələn qardaş Azərbaycanın on ildə nail olduğu sürətli inkişafla və əldə etdiyi müvəffəqiyyətlərlə fəxr edir, ürəkdən bağlı olduğu Azərbaycan xalqının Uca şəxsiyyətinizin rəhbərliyi altında daha neçə onillikləri əmin-amanlıq şəraitində bayram etməsini ürəkdən arzu edir.*

***Dəyərli qardaşım!***

*Fürsətdən istifadə edərək, Uca şəxsiyyətinizin sağlamlığı və xoşbəxtliyi, qardaş Azərbaycan xalqının rifahı və əmin-amanlığı naminə ən xoş arzularımı çatdırıram.*

***Ahmet Necdet SEZER***
***Türkiyə Cümhuriyyətinin Prezidenti***



**21 oktyabr -** Azərbaycan Prezidenti **Heydər Əliyev** Prezident Sarayında Türkiyənin Xarici İşlər Naziri İsmail Cemin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**23 oktyabr -** Azərbaycan Prezidenti **Heydər Əliyev** Türkiyə Cümhuriyyətinin Prezidenti **Ahmet Necdet Sezerə** Türkiyə Cümhuriyyətinin milli bayramı - Respublika elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir:

***Türkiyə Respublikasının Prezidenti Zati-Aliləri Cənab Ahmet Necdet Sezerə***

***Hörmətli Cənab Prezident!***
***Əziz dostum, qardaşım!***

*Qardaş Türkiyə Respublikasının milli bayramı - Respublika elan edilməsi günü münasibətilə Sizi və dost Türkiyə xalqını ürəkdən təbrik edirəm.*

*Biz tarixi-milli kökləri eyni olan, zəngin mənəvi dəyərlərə malik xalqlarımızın dostluğunu, əməkdaşlığını hər şeydən uca tuturuq. Bir millətin iki dövləti olaraq ölkələrimizin daim bir-birinə göstərdiyi qarşılıqlı dəstəyi, inam və etimadı yüksək qiymətləndiririk.*

*Böyük Atatürkün yolu ilə irəliləyən Türkiyə Cümhuriyyətinin uğurları bizi həmişə sevindirir. Bu gün qardaş Türkiyənin dünya*



*birliyində layiqli yer tutması, beynəlxalq aləmdə qazandığı nüfuz və hörmət qəlbimizi iftixar hissi ilə bürüyür.*

*Dövlətçiliyin inkişafı və möhkəmləndirilməsi, demokratiyanın bərqərar olunması sahəsində ölkənizin son dövrlərdə qazandığı nailiyyətlərdə Sizin rolunuz böyükdür.*

***Əziz qardaşım!***

*Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyəyə əmin-amanlıq və firavanlıq arzulayıram.*

*Dərin hörmətlə,*

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**24 oktyabr -** Azərbaycan Prezidenti **Heydər Əliyev** TBMM sədri **Ömer İzgiyə** Türkiyə Cümhuriyyətinin milli bayramı - Respublika elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

**7 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** «Bakıelektrikşəbəkə» Səhmdar Cəmiyyətini idarə etmək hüququnun Türkiyənin "Barmek Holdinq A.Ş." şirkətinə verilməsinə dair müqavilənin təsdiq edilməsi haqqında fərmanı imzalamışdır.

**11 noyabr -** Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev** Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ünal Çevikzün etimadnaməsini qəbul etmişdir.

**27 noyabr -** Türkiyə Sənayeçilər və İşadamları Vəqfi *Xəzər Dənizinin zəngin ehtiyatlarının türk dünyasına açılmasında, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, "Şahdəniz" yatağından çıxarılacaq təbii qazın Türkiyəyə nəqli üçün* ***Bakı-Ərzurum boru kəmərinin*** *reallaşmasında, habelə "Bir millət, iki dövlət" olan Türkiyə ilə Azərbaycanın əməkdaşlığının inkişafında misilsiz xidmətlərinə görə* Azərbaycan Prezidenti **Heydər Əliyevi "İlin Dövlət Adamı"** seçmişdir.

Ar 2002/1400

255